

HƏYAT BİLGİSİ

Metodik *vəsait*

4

SEVİNC BAYRAMOVA
AYGÜN HƏŞİMOVA

Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün Həyat bilgisi fənni üzrə dərsliyin Metodik vəsaiti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
aspoligraf.ltd@gmail.com və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

«ASPOLİQRAF»

MÜNDƏRİCAT

Dərsliyin xüsusiyyətləri 3
Vəsaitin quruluşu və metodik təlimatlar 4
Yaradıcı fəaliyyətin təqdimatı 5
Təqdimat *(Nümunə)* 6
Layihənin işlənib hazırlanması və qiymətləndirilməsi.....7
Fəndaxili və fənlərarası inteqrasiya 8
Tədris fəaliyyətinin stimullaşdırılması.....11
Şagirdlərin fərdi, cütlük şəklində və qruplarda işinin qiymətləndirilməsi.....11
Dərslərdə təlim nəticələrinin qiymətləndirilməsi.....14
Qiymətləndirmə vasitələrinin hazırlanması 17
Standartların reallaşdırılması və planlaşma 19

DƏRSLƏRİN GÜNDƏLİK PLANLAŞDIRILMASI

I. DÖVLƏTİMİZ, HÜQUQLARIMIZ, VƏZİFƏLƏRİMİZ

Yenidən məktəbdə *(1-ci dərs)* 22
Yenidən məktəbdə *(2-ci dərs)* 24
Uşaq hüquqları *(1-ci dərs)* 26
Uşaq hüquqları *(2-ci dərs)* 27
Dövlət orqanları *(1-ci dərs)*.....31
Dövlət orqanları *(2-ci dərs)*.....33
Dövlət büdcəsi. Vergi *(1-ci dərs)* 34
Dövlət büdcəsi. Vergi *(2-ci dərs)* 36
Sığorta 37
Milli pul *(1-ci dərs)* 39
Milli pul *(2-ci dərs)* 41
Vətəndaşlıq.....43

II. MƏNƏVİ DÜNYAMIZ

İsraf və qənaət *(1-ci dərs)* 47
İsraf və qənaət *(2-ci dərs)* 49
Doğma və ögey münasibət.....51
Məsuliyyət hissi 53
Ədəb qaydaları 56
İslam dininin yaranması *(1-ci dərs)* 58
İslam dininin yaranması *(2-ci dərs)* 59
Azərbaycanda din.....61
Mövhumatçılıq *(1-ci dərs)* 64
Mövhumatçılıq *(2-ci dərs)* 66

III. SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT

Onurğa sütunu *(1-ci dərs)* 67
Onurğa sütunu *(2-ci dərs)* 69
İnsanın daxili orqanları *(1-ci dərs)*.....70
İnsanın daxili orqanları *(2-ci dərs)*.....72
Orqanizmi necə qorumalı? *(1-ci dərs)* 74
Orqanizmi necə qorumalı? *(2-ci dərs)* 77
İlk tibbi yardım *(1-ci dərs)*.....79
İlk tibbi yardım *(2-ci dərs)*.....81
Məişət qəzaları 83
Yol hərəkəti qaydaları *(1-ci dərs)*.....85
Yol hərəkəti qaydaları *(2-ci dərs)*.....87
Fövqəladə hal *(1-ci dərs)* 90
Fövqəladə hal *(2-ci dərs)* 92

IV. TƏBİƏT VƏ CƏMİYYƏT

Yer təbiətinin müxtəlifliyi *(1-ci dərs)* 94
Yer təbiətinin müxtəlifliyi *(2-ci dərs)* 96
Təbiətdəki əlaqələr *(1-ci dərs)* 97
Təbiətdəki əlaqələr *(2-ci dərs)* 99
Ekologiya *(1-ci dərs)*.....101
Ekologiya *(2-ci dərs)*.....103
Yurdumuzun işıqları 105
Enerji mənbələri *(1-ci dərs)* 107
Enerji mənbələri *(2-ci dərs)* 109

KSQ nümunəsi 110
Ədəbiyyat 118

DƏRSLİYİN XÜSUSİYYƏTLƏRİ

Dərslikdəki mövzular dörd tədris vahidində qruplaşdırılmışdır. Dərslikdə mövzuların yerləşmə qaydası fənnin öyrənilməsinin ardıcıllığını müəyyənləşdirir və müvafiq olaraq tematik planlaşdırmanı qurur. Tədris materialının strukturlaşdırılmasının bir yolu olan məzmun xətləri bütün tədris materialını əhatə edən məlumat təqdimatının məntiqini, əsas anlayışların tətbiqi sırasını müəyyənləşdirir.

Məzmun xətləri üzrə standartların seçilməsi mühüm strateji əhəmiyyət kəsb edir və müəllim tərəfindən tədris metodikasının qurulması, iş formasının və üsullarının seçimi üçün vacibdir. Bir dərsdən o biri dərsə qədər əsas anlayışların inkişafı barədə düzgün formalaşmış təsəvvürə malik olaraq, müəllim motivasiyanın qurulması üçün düzgün istiqamət seçə və dərsin gedişatında qarşıya qoyulmuş məqsədləri effektiv şəkildə həyata keçirə bilər.

Bölmələr üzrə dərsliyin ayrı-ayrı mövzularının məzmunu məntiqi cəhətdən bir-biri ilə əlaqəlidir. Dərslik və metodik vəsaitin strukturu müəllimə bir mövzunun məzmununun və digər mövzu üçün əsas olan anlayışların öyrənilməsinin metodik istiqamətlərini müqayisə etməyə kömək edəcəkdir. Təklif olunan iş üsulları təhsil prosesinin səmərəliliyinə müsbət təsir göstərəcək və «Həyat bilgisi» fənninin məqsəd və vəzifələrinin tam şəkildə həyata keçirilməsini təmin edəcəkdir.

Dərslikdəki hər bir mövzu aşağıdakı kimi qruplaşmışdır:

I – Düşünmək üçün vəziyyət təklif olunur (həvəsləndirmə).

II – Məlumat tədqiq edilir. Dərslikdə əks olunan məlumatlar «sadədən mürəkkəbə doğru» prinsipi üzrə qurulub və faktların ardıcıllığını əks etdirir.

III – Rubrikalar: «Oxumağı tövsiyə edirik», «Baxmağı tövsiyə edirik» və s. Bu rubrikalar həm müəllim, həm də şagirdlər üçün maraqlı faktları və tövsiyələri özündə əks etdirir.

IV – Nəticələrin ümumiləşdirilməsi və yekunlaşdırılması üçün tapşırıqlar. Metodiki vəsaitdə tapşırıqların yerinə yetirilməsinin müxtəlif üsullarının təfsilatlı təqdimatı verilir.

V – Açar sözlər. Mövzularda açar sözlər tədqiqatlara kömək məqsədilə verilir.

KİTABIN İÇİNDƏKİLƏR

I. DÖVLƏTİMİZ, HÜQUQLARIMIZ, VƏZİFƏLƏRİMİZ

1. Yenidən məktəbdə 8
2. Uşaq hüquqları 12
3. Dövlət orqanları 17
4. Dövlət büdcəsi. Vergi 21
5. Sığorta 25
6. Milli pul 27
7. Vətəndaşlıq 30

II. MƏNƏVİ DÜNYAMIZ

8. İsraf və qənaət 34
9. Doğma və ögey münasibət 38
10. Məsuliyyət hissi 40
11. Ədəb qaydaları 42
12. İslam dininin yaranması 44
13. Azərbaycanda din 48
14. Mövhumatçılıq 50

III. SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT

15. Onurğa sütunu 54
16. İnsanın daxili orqanları 58
17. Orqanizmi necə qorumalı? 61
18. İlk tibbi yardım 65
19. Məişət qəzaları 69
20. Yol hərəkəti qaydaları 71
21. Fövqəladə hal 74

IV. TƏBİƏT VƏ CƏMİYYƏT

22. Yer təbiətinin müxtəlifliyi 80
23. Təbiətdəki əlaqələr 89
24. Ekologiya 93
25. Yurdumuzun işıqları 97
26. Enerji mənbələri 100

ŞƏRTİ İŞARƏLƏR



VƏSAİTİN QURULUŞU VƏ METODİK TƏLİMATLAR

Əziz müəllimlər! Sizə təqdim olunan bu dərslik komplekti təhsilin müasirləşdirilməsi kontekstində şagirdlərin əsas bilik və bacarıqlarının formalaşdırılmasını təmin edən effektiv didaktik-metodik bazanın yaradılmasına istiqamətlənmişdir. Dərslik və metodik vəsait şagirdlərin təhlil, sintez, ümumiləşdirmə, sistemləşdirmə və təsnifat kimi davamlı zehni fəaliyyətlərinin inkişaf etdirilməsi üçün bir sıra imkanlar yaradır. Çoxlu sayda rəngbərəng şəkillər, müxtəlif yaradıcı tapşırıqlar uşaqların ümumi emosional vəziyyətinə müsbət təsir göstərəcək və onların yaradıcı potensialını artıracaqdır.

Vəsait ümumtəhsil məktəblərinin 4-cü sinifləri üçün «Həyat bilgisi» fənni üzrə dərslərin hazırlığını və gedişini əks etdirir. Metodik tövsiyələr nümunəvi xarakter daşıyır və konkret tədris şərtlərinə uyğun olaraq müəllimlər tərəfindən özünəməxsus dərs resurslarının və hazırlıqlarının yaradılması üçün baza rolunu oynaya bilər. Vəsaitdə aşağıdakı bloklar yer almışdır:

– perspektiv təhsil və müasir pedaqoji texnologiyalar haqqında;
– resurs bazasının yaradılması;
– fəndaxili və fənlərarası inteqrasiya;
– illik planlaşdırma;
– müəllimin portfoliosu;
– qiymətləndirmə üsulları və vasitələri;
– qiymətləndirmə meyarları;
– gündəlik planlaşdırma nümunələri və s.

Metodik vəsaitin vəzifələri:

– həm nəzəri, həm də praktiki xarakterli pedaqoji biliklərin mənimsənilməsində metodoloji köməyin göstərilməsi;
– fəndaxili əlaqələrin təmin edilməsi prinsiplərinin həyata keçirilməsi;
– səmərəli tədris metodlarının, rasional variantların, nümunə formalarının və iş üsullarının tövsiyəsi.

Metodik təlimat şagirdlərdə aşağıdakı bacarıqların inkişaf etdirilməsinə yönəlmişdir:

– elmi təhlil aparmaq;
– qeyri-müəyyənlik şəraitində nəticələr çıxarmaq və elmi əsaslı qərarlar tətbiq etmək;
– müasir elmi məlumatlardan istifadə etmək, onları emal etmək və praktik məsələlərin həllində istifadə etmək.

Metodik təlimatda ümumi məsələlərə aşağıdakılar aiddir:

– təbiətə, öz şəhərinə (kəndinə), vətəninə sevgi və hörmət hissi tərbiyə etmək;
– ətraf mühitin öyrənilməsinə marağın inkişaf etdirilməsi;
– uşağın ekoloji cəhətdən səmərəli bacarıqlarının formalaşdırılması;
– sosial mühitdə etik əsaslı davranışın, emosional sabitliyin təmin edilməsi;
– müsbət şəxsi keyfiyyətlərin, yaradıcılıq qabiliyyətlərinin inkişafı;
– əlçatan öyrənmə fəaliyyətinin formalaşdırılması.

Hər dərsin spesifik vəzifələri:

– hər bir dərsdə əsaslandırılmış və motivasiya olunmuş tematik məzmun obyektinin göstərilməsi;
– tədris fəaliyyətlərinin planlaşdırılmış nailiyyət göstəricilərinin müəyyən edilməsi;
– predmet və obyektlərin praktiki araşdırılması;
– ətraf mühit hadisələrinin modelləşdirilməsi.

Hər bir dərsdə məqsədləri müəyyənləşdirmək müəllimin diqqətini hər bir şagird tərəfindən tədris nəticələrinə maksimum nail olmağa yönəldəcəkdir. Şagird tərəfindən hər dərs nailiyyətinin göstəricilərinə əməl edən müəllim mümkün öyrənmənin minimum səviyyəsini müəyyən edə biləcəkdir.

Layihə tədrisinin və modelləşdirilməsinin spesifik vəzifələri:

– problem-axtarış yanaşmasını təmin etmək;
– məlumat əldə edilməsinə əsaslanan məqsədli fəaliyyətə yönəltmək;

– problemli bir məsələnin ortaya çıxması və axtarışı üçün kifayət qədər minimal məlumatı təmin etmək;
– layihə təliminin qismən oyun xarakterində olmasını təmin etmək.

Metodik tövsiyələrin layihələrə bağlı bölməsini xarakterizə edərkən bu yaşda şagirdlərdə tam sərbəstliyin olmaması üzərində dayanmaq lazımdır. Bu vəziyyətdə müəllim prosesi təşkil və idarə etməlidir. Məsələn, müəllim bütün şagirdlərə tanış olan iki personaj seçə və onların adlarını deyə bilər. İstənilən personajı seçə bilərsiniz. Bu nümunədə personajlar İ.A.Krılovun «Cırcırama və qarışqa» təmsilindən götürülüb. «Cırcırama» problemin qaynağı, «Qarışqa» isə gördüyü işlərin nəticələrini müqayisə etmək üçün ideal bir nümunə olacaq. Personajları dəyişmək olar. Bunun üçün şagirdlərə əvvəlcədən istədikləri personajları seçmək və görülən işləri müqayisə etmək üçün etalonlar hazırlamağı təklif etmək lazımdır.

Vəziyyətlərin modelləşdirilməsi şagirdlərə ətraf mühitin obyektləri və fenomenləri haqqında məlumat əldə etməyə imkan verir, onların əsas xüsusiyyətlərini vurğulayır. Effektiv – məzmunlu düşüncənin formalaşmasına yalnız hazır modellərdən istifadə etməklə deyil, həm də onları yaratmaqla nail olmaq mümkündür.

YARADICI FƏALİYYƏTİN TƏQDİMATI

Təqdimat nədir və nədən ibarətdir?

Təqdimat materialın müəyyən auditoriya üçün praktiki nümayişi və izahıdır. Təqdimat materialı tamaşaçılar qarşısında aydın, əyani şəkildə nümayiş etdirməyə imkan verir və nitqlə çıxışı mümkün edir. Əksər hallarda müəllimlər təqdimatın düzgün üsullarını öyrətmək problemi ilə qarşılaşırlar. Bu problemin ikinci aspekti elektron resursların olmamasıdır. Müvafiq olaraq, şagirdlərə öz fəaliyyətlərinin nəticələrini təkcə elektron şəkildə deyil, həm də tərtib olunmuş iş vərəqlərində təqdim etmək təklif olunmalıdır.

Təqdimatın əsas tərkib hissələri. 1. Təqdimatın məzmunu (əsas mətn). 2. Slaydlar dəsti və ya tərtib olunmuş iş vərəqləri.

Təqdimatın dinləyicini nə dərəcədə maraqlandıracağı mətnin şifahi nəqlindən asılıdır. Buna görə də uşaqlara təqdimat etməyi öyrədən zaman bu tələbləri vurğulayın: 1. Mətn qısa olmalıdır. 2. Bütün məlumatlar ardıcıl olmalıdır. 3. Hər bir məlumat yerinə yetirilmiş işin əsas mahiyyətini ifadə etməlidir. 4. Slaydlar bir-birini ardıcıl şəkildə əvəz etməlidir (əvvəlki slayddakı informasiya növbəti slaydda davam etməlidir).

Məruzəçinin davranışı. 1. Şagirdlərə izah edin ki, arxasını tamaşaçılara çevirmək düzgün deyil. Bu vəziyyətdə dinləyicilərin diqqəti dağılır və məruzəçinin çıxışı maraqsız olur. 2. Şagirdləri hər bir slaydda və ya hər bir iş vərəqi fəslində söhbətin nədən gedəcəyi haqqında məlumatlı olmaları üçün xəbərdar etmək lazımdır. Bu, auditoriya ilə əlaqəyə kömək edir. 3. Göz kontaktı zamanı məruzə adi söhbətə çevrilir, gərginlik itir və şagirdlər bir-birini asan başa düşürlər. 4. Güzgü qarşısında məşq etmək məsləhət görülür, məsələn, güzgü qarşısında təqdimat oxunur, zəruri olduqda jestlər edilir. Bu üsul nitqdə qeyri-aydınlığın, duruxmaların qarşısını alacaq və çıxışın kifayət qədər ucadan səslənməsini təmin edəcək.

Təqdimatın hazırlanması. Təqdimatın hazırlanması asan proses olmayıb, diqqət və ardıcıllıq tələb edir. Hazırlıq prosesini aşağıdakı mərhələlərə ayırmaq olar:

1. Etibarlı mənbələrdən zəruri materialı toplamaq. (Bizim nümunəmizdə «Yardım lövhəsi» stendindən istifadə etməyi və əlavə resurslar əldə etmək imkanı olmayan uşaqlara yardım üçün informasiya yerləşdirməyi təklif edirik.) 2. Tapılmış faktlar arasında əsas olan və şagirdin fikrincə maraqlı olan məlumatları qaralamaya yazmaq. 3. Öz nitqini hazırlayan və slaydlar (və ya iş vərəqləri) tərtib edən zaman istiqamət götürəcəyi planı tərtib etmək. (Qaralamadakı yazılar mövzunun şərhini düzgün başlamağa və bitirməyə kömək edəcək.) 4. Mətn yaratmaq (yadda saxlayın: mətn

sadə və dinləyicilərinizüçün anlaşılan olmalıdır). 5. Slaydlar (və ya cizgili iş vərəqləri) yaratmaq, mətni, şəkilləri, rəsmləri, təsvirləri və s. bura yerləşdirmək.

Slaydların tərtib edilməsi. Slaydların yaradılması zamanı aşağıdakı səhvlərdən qaçmağa çalışmaq lazımdır:

1. Çox sayda xüsusi effektlər əsas məzmundan yayındırır (iş vərəqlərində parlaq rənglər). 2. Həmçinin animasiyanın həddindən artıq istifadəsi diqqəti yayındıracaq, çünki hərəkət edən obyektlərin daim dəyişən təsvirləri şagirdlərin öz diqqətini əsas məsələyə yönəltməsinə mane olacaq. 3. Slaydların müxtəlif fonda olmasına yol verməmək. (Yalnız titul slaydında digər fondan istifadəni təklif etmək olar.) İstifadə üçün tövsiyə edilən (rəng palitrası *http://color.romanuke.com/* saytında təqdim edilib.)

Uşaqlara artıq detallardan istifadə etməməyi, vahid üsluba əməl etməyi, adekvat rənglər seçməyi, maketlərdən istifadə etməyi öyrədin (Microsoft PowerPoint, LibreOffice Impress və s.). Bu maketlər hər bir slayd üçün mətni, təsvirləri, cədvəlləri təkmilləşdirməyə kömək edir. Yuxarıda verilən tövsiyələrdən istifadə etməklə «Təqdimatın tərtib edilməsi qaydaları» adlı yaddaş kitabı tərtib etmək olar.

Resurslar və avadanlıqlar.

Sinifdə tapşırıqları yerinə yetirmək üçün qələm, rəngli karandaş, xətkeş və sadə karandaş lazımdır. Bunlar resurslar siyahısında göstərilmir, lakin müəllimin hər bir dərsdə bu aksesuarların vacibliyini şagirdlərə xatırlatması gərəkdir. Zamanında hazırlıq vaxta qənaət edir və diqqəti dərslərin əsas mərhələlərinə cəlb etməyə kömək edir. Bəzi dərslərdə hər bir şagirdə rəngli (yaşıl və qırmızı) kartlar lazım ola bilər ki, bu da sinifdənxaric işlərdə və ya texnologiya dərsləri zamanı şagirdlərin özləri tərəfindən hazırlana bilər. Bu kartlar «Bu bəyanatlarla razısınızmı?», «Müsbət və mənfi keyfiyyətləri müəyyənləşdirin», «Olar və ya olmaz» kimi məsələlərin icrası zamanı istifadə edilə bilər. Bu resurslar qruplarda və ya hər hansı kollektiv iş üçün istifadə edilə bilər. Onları müvafiq qovluqda saxlamaq lazımdır.

TƏQDİMAT

(Nümunə)

Mövzu. Fövqəladə hadisə.

Kollektiv iş. Müəllim vəziyyətləri oxuyur, uşaqlar isə bu və ya digər vəziyyətdə necə davranılmalı olduğunu və zərər çəkmiş şəxslərə hansı köməyin göstərilməli olduğunu izah edir və ya göstərirlər.

Vəziyyətlər:

1. Təhlükəli kimyəvi maddələrin atmosferə atılması. Əgər siz evdəsinizsə (küçədəsinizsə), necə davranmalısınız? (Yuxarı mərtəbələrə qalxmalı, pəncərələri və qapıları yapışqan lentlə kip bağlamalı, nəm tənzif sarğı taxmalı.)
   Şagirdlər sarğının qoyulmasını nümayiş etdirirlər.
2. İnsan huşunu itirmişdir. Nəbz və tənəffüs yoxdur. Hansı tədbirləri görmək lazımdır? (Dolayı ürək masajı.)
   Şagirdlər dolayı ürək masajının yerinə yetirilməsi texnikasını nümayiş etdirirlər.
3. Fuadın ailəsi doqquzuncu mərtəbədə yaşayır. Zəlzələ başladı. Fuad qaçdı və ayağı burxuldu. Zəlzələ baş verdikdə necə davranmalı? (Mənzildə təhlükəsiz yerdə dayanmaq, təşvişə düşməmək.) Fuada hansı köməyi göstərmək lazımdır? (Zədələnmiş ayağa buz qoymaq, sarımaq və hərəkətsizləşdirmək.)
   Şagirdlər ilk yardım texnikasını nümayiş etdirirlər.

Ev tapşırığı. «Fövqəladə hadisə zamanı davranış qaydaları»nı hazırlamaq və təqdim etmək.

Təqdimat cütlüklər və ya qruplar tərəfindən icra edilir. Cütlük və ya qrupların seçimi və təqdimetmə sırası püşk vasitəsi ilə həyata keçirilir.

Müəllim şagirdləri təqdimatın hazırlanması və təqdim edilməsi ilə bağlı əsas tələblərlə tanış etməlidir.

Təqdimatın hazırlanması ilə bağlı irəli sürülən əsas tələblər:

1.	Tədqiqat layihəsinin öyrənilməsinin dərinliyi
2.	Faktların ardıcıllığı və inandırıcılığı
3.	Layihənin müdafiəsinə dair dəlillərin irəli sürülməsi
4.	Digər fənlərdən biliklərin inteqrasiya edilməsi
5.	İdeyanın orijinallığı və problemin həll edilməsi üsulları
6.	Həyata keçirilmiş işin gedişinin qarşıya qoyulmuş suala və ya mövzuya uyğunluğu
7.	Nitq mədəniyyəti və natiqlik qabiliyyəti
8.	Estetik tərtibat

36–40 bal – ən yüksək səviyyə;
24–35 bal – yüksək səviyyə;
16–23 bal – orta səviyyə;
16 baldan aşağı – aşağı səviyyə.

LAYİHƏNİN İŞLƏNİB HAZIRLANMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Layihə. Layihənin mövzusu.

1-ci mərhələ. Problemin dərk edilməsi.

2-ci mərhələ. İnformasiyanın toplanması, əsas və ikinci dərəcəli məlumatların müəyyən edilməsi.

3-cü mərhələ. Problemin həll edilməsi üsullarının axtarışı, informasiyanın təhlili və sintezi, layihə fəaliyyətinin həyata keçirilməsinin mərhələlərlə işlənib hazırlanması.

4-cü mərhələ. Layihənin həyata keçirilməsi.

5-ci mərhələ. Layihənin müdafiəsinə hazırlıq: qruplar üzrə bölgü, stendin tərtib edilməsi, elektron təqdimatın hazırlanması (elektron resursların mövcud olduğu zaman).

6-cı mərhələ. Layihənin müdafiəsi: məruzə-müdafiə, səhnələşdirmə, elektron təqdimat və s.

7-ci mərhələ. Özünütəhlil, fəaliyyətin qiymətləndirilməsi.

Şagirdlər layihənin işlənib hazırlanması prosesində lazımi materialı toplayır, tədris ədəbiyyatı ilə işləyir, bütün mərhələləri ardıcıl şəkildə həyata keçirirlər (şagirdlər layihənin işlənib hazırlanması mərhələlərini əks etdirir, kartı bir həftə əvvəl alırlar). Müəllim fasilitator (uğurlu qrup kommunikasiyasını təmin edən) olaraq, şagirdlərin işini müşahidə edə, əlaqələndirə, informasiyanın toplanması ilə bağlı yardım edə, zərurət yarandığı təqdirdə dəstəkləyə bilər.

Uğurla yerinə yetirilmiş layihənin meyarları (qiymətləndirmə meyarları).

1. Nəticələr layihənin məqsədlərinə müvafiqdir.
2. Qrupun bütün iştirakçıları layihə üzərində işin bütün mərhələlərində fəal iştirak etmişlər.
3. Şagirdlərin komandası sonrakı birgə işə hazırdır.
4. Layihənin nəticələri digər şagirdlər tərəfindən istifadə edilə bilər.
5. Layihə haqqında məlumatlar informasiya mənbələrində açıqlanır: divar qəzeti, məktəbin saytı, jurnalda məqalə və s.
6. Şagirdlər tədqiqat işindən həzz aldılar.

Layihənin uğurlu olmasının müəyyən edilməsi ilə bağlı anket.

1. Problemin üzərində işləmək sizin üçün maraqlı idimi?
2. Bir komandada işləmək sizin üçün maraqlı idimi?
3. Layihə üzərində işin mərhələlərini dəyişdirmək istərdinizmi? Nə üçün?
4. Siz nəyi dəyişdirmək istərdiniz?

Bu anketlər müəllimə çatışmazlıqları aydınlaşdırmağa və sonrakı layihə fəaliyyəti üçün üstünlükləri müəyyən etməyə kömək edəcəkdir.

Layihə işinin qiymətləndirilməsi

Tədqiqatı qiymətləndirmənin meyarları	Maksimum bal	Faktiki nəticə
Mövzunun qısa ifadəsi və mövzunun açılması	2 bal – mövzunun qısa ifadəsi və mövzunun açılması tam şəkildə üst-üstə düşür, mövzu tam açılmışdır; 1 bal – mövzu tam açılmamışdır; 0 bal – mövzu açılmamışdır.	
Təqdimatın tərtib edilməsi	2 bal – təqdimat diqqətlə tərtib edilmişdir, xətt aydın oxunur; 1 bal – tərtibatın çatışmazlığı və ya həddən artıq izafiliyi; 0 bal – tərtibatın olmaması.	
Təqdimatı şəkillər, fotolar tamamlayır	1 bal – şəkillər və fotolar mətnə uyğundur; 0 bal – şəkillər və ya fotolar mətnə uyğun deyil.	
İstifadə edilmiş mənbələrin siyahısı	1 bal – istifadə edilmiş ədəbiyyat siyahısı var; 0 bal – istifadə edilmiş ədəbiyyat siyahısı yoxdur.	
Mövzu üzrə nəticələr	2 bal – nəticələr müstəqil şəkildə formalaşdırılmışdır; 1 bal – nəticələr qismən formalaşdırılmışdır; 0 bal – nəticələr formalaşdırılmamışdır.	

Qeyd. *Şagird sayı çox olan siniflərdə bütün şagirdlərin çıxış etməsi mümkün olmur. Belə hallarda aşağıdakı variantlardan birini seçmək olar:*

1. Müəllim şagirdlərə püşk atmağı təklif edir. Şagirdlərin yaşı nəzərə alınaraq hər bir çıxışa maksimum 5 dəqiqə ayrılır. Püşk atılır, 1-dən 8-dək rəqəmləri götürən şagirdlər seçilir (1, 2, 3, 4, 5, 6, 7, 8). Bu, o deməkdir ki, püşk rəqəminin göstərdiyi ardıcıllıqla 8 nəfər çıxış edəcək.

2. Müəllim yenə də püşkatma yolu ilə şagirdləri cütlərə bölür. Həmçinin vəzifələri şagirdlər arasında bölüşdürmək lazımdır. Bu halda vəzifə bölgüsü əvvəlki dərsdə aparılır, çıxış edənlərin sırası püşkatma metodu ilə müəyyən edilir.

FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYA

İnteqrasiyanın tətbiqi didaktikanın mühüm prinsiplərindən birini – sistematik öyrənmə prinsipini həyata keçirir. Fənlərarası inteqrasiya şagirdlərdə tənqidi düşüncə, tənqidçilik, özünü analiz etmə və sistemli dünyagörüşünün inkişafına yardım edir. İnteqrasiya prosesi müəyyən şərtlərin yerinə yetirilməsini tələb edir:

– tədqiqat obyektləri birləşdirilmiş və ya bir-birinə uyğun olmalıdır;
– müxtəlif fənlərin inteqrasiyası zamanı eyni tədris və ya tədqiqat üsulları tətbiq edilir;
– onlar oxşar nəzəri qanunauyğunluqlar üzərində qurulur.

Fəndaxili inteqrasiya, fənn daxilində biliklərin sistemləşdirilməsi səviyyəsidir, yeni biliklərin aşkarlanması prosesində ayrı-ayrı materialların sistemləşdirilməsinə keçidi təmin edir və fərqli bir quruluşa malikdir. Bu səviyyənin inteqrasiyası materialların böyük bloklara yığılmasına yönəldilmişdir ki, bu da nəticədə bütünləşdirilmiş məzmunu birləşdirə bilən daha geniş informasiya məkanının yaranmasına gətirib çıxarır. Fəndaxili inteqrasiyanın tətbiqi şagirdlərə daha geniş dərəcədə düşünməyə imkan yaradır. Bir qayda olaraq, fərdidən ümumiyə doğru qurulur, lakin ümumidən

xüsusiyə doğru qurulması da mümkündür. Yeni biliklərin dövri olaraq artırılması ilkin problemdən kənarlaşmanı istisna etmir, əksinə, struktur sahəsini və onunla əlaqəli bilikləri genişləndirir. Fəndaxili inteqrasiya şaquli və üfüqi inteqrasiya şəklində təqdim oluna bilər.

Fənlərarası inteqrasiyaya təhsil fəaliyyətində xüsusi yer ayrılmalıdır. Fənlərarası inteqrasiya bir fənnin öyrənilməsində digər fənnin xüsusiyyətlərinin, üsullarının, nəzəri məlumatlarının istifadəsi zamanı özünü büruzə verir. Fənlərarası inteqrasiyanın şərtlərinə düzgün əməl olunması təbii-elmi silsilənin anlaqlı təsəvvürünü möhkəmləndirməyə imkan verəcək ki, bu da ətraf mühitin öyrənilməsi zamanı çox vacibdir. Əşya və təzahürlərin tam mənimsəmə təsvirinin formalaşması üçün faktologiyaya, ayrı-ayrı faktların konkretləşməsinə və anlayış kompleksinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirmək lazımdır. Fənlərarası inteqrasiyanın tətbiqi həmçinin fəndaxili inteqrasiyaya müsbət təsir göstərəcək və fənn üzrə dəyərli elmi bilikləri təmin edəcək. Deyilənlərə dair növbəti nümunələri göstərmək olar:

Nümunə 1. Beləliklə, «Həyat bilgisi» dərsində ilin fəsilləri öyrənilir. «Texnologiya» dərsində isə şagirdlər qar dənəcikləri, qar adamı, şam ağacı, iynəyarpaqlı ağaclar, qozalar düzəldirlər, «Təsviri incəsənət» dərsində qış mənzərəsini, qışda bitki və heyvanların təsvirini çəkirlər. Bu baxımdan «Həyat bilgisi» dərsində şagirdlərin işlərinə texnologiya və təsviri incəsənət elementlərini daxil etmək olar, bununla da, onlarda həvəsləndirməni artırmaqla yanaşı, assosiativ bilikləri inkişaf etdirmək mümkündür. Bu dərsdə təsviri incəsənət və texnologiya fənlərinin materialları sintez edilir ki, bu da öz növbəsində müəllimdən təkcə mətnlə işləmək metodikasının istifadə bacarığını deyil, həmçinin müxtəlif obyektlərin təsviretmə iş metodikasından istifadə bacarığını tələb edir (T.i. 2.2.2; 2.2.3; Tex. 1.2.3.)

Nümunə 2. Analiz nümunəsi çoxprofilli obyektlərdir. Onların məzmunu haqqında məlumat bir neçə tədris fənnində mövcuddur. «Mənəviyyat» bölməsində müqayisə və assosiasiyaları istifadə etmək təklif edilir: mövzunun tam açılmasına imkan verən yaradıcılıq tapşırıqları. Məsələn, mövzunun mənəvi və emosional-poetik obrazını uyğunlaşdırmaq olar. «Vətəndaşlıq» mövzusunu öyrəndikdə sinkveyn-üsul təsvir edilir. Bu üsulda aforizmlər, sitatlar, epiqraflardan istifadə etmək təklif edilir. Aforizmlərin tətbiqi mövzunun fərqli növlərini, onun açılmasının müxtəlif istiqamətlərini təmin edir. Problemli dialoqun aparılma bacarığı əsas fikri göstərmək, səsləndirmək və ifadə etmək bacarığını formalaşdırır. (Az.d. 1.1.3; 2.1.2).

Dərslərdə inteqrasiyanın ən çox yayılmış təşkil formaları arasında əsaslarını göstərmək olar: təbəqəvari, spiralşəkilli, qarşılıqlı təsirli, təzadlı, fərdi-diferensiasiyalı (yaradıcı).

Nümunə 1. Təbəqəvari forma – məzmunun eyni dəyərli müxtəlif fəaliyyət növləri üzrə (bilgili, bədii-estetik, oyun, kommunikativ və s.) laylanması.





Təbəqəvari formanı «Yenidən məktəbə» mövzusunu öyrənərkən tətbiq etmək olar, məsələn, ilin fəsli kimi yay obrazı təsviri incəsənətdə, onun mümkün janrlarında (peyzaj) əks olunur, rəng kompozisiyaları, rəng çalarları vasitəsilə açılır. «Azərbaycan dili» dərslərində ifadəli oxu, ayrı-ayrı fraqmentlərin dinlənilməsi danışıq və səsləndirmə vasitəsilə, musiqidə quşların, dənizin, yay yağışının, yay haqqında melodiyanın və s. köməyi ilə ötürülür.

Nümunə 2. Təzadlı forma. Təzadlı forma əks təzahürlərin açılması, dialoq zamanı təzadlı məzmunun göstərilməsi ilə qurulur, sadədən mürəkkəbin, hissədən tamın dərk edilməsində əks olunur. Bu forma müəllim və şagirdlər arasında dialoqu, məlumat mübadiləsini təmin edir və tolerantlığın, millət və xalqların mədəniyyətinin ifadə edilməsi, incəsənətin dərk edilməsi üçün əvəzedilməzdir.

Məsələn, «Uşaq hüquqları» mövzusunun öyrənilməsi zamanı kontrast məzmunu göstərmək olar. Müxtəlif nağıllardan hissələrin oxunması və müzakirəsi şagirdlərə «Uşaqların hüquqları haqqında konvensiya» nöqteyi-nəzərindən məlumatı uyğunlaşdırmağa kömək edəcək. Ş.Peronun «Zoluşka» nağılında şagirdlər qarşısında böyük bacılarla Zoluşka arasında hüquq və öhdəliklərin ədalətsiz bölüşdürülməsi, paxıllıqla müqayisədə xeyirxahlığın dəyəri, düşmənçiliklə müqayisədə dostluğun əhəmiyyəti açılır.

Riyaziyyata inteqrasiya («Ehtimal və nəticə» mövzusu) hadisələrin ehtimallığını hesablamağa imkan verəcək. Müqayisəli xarakteristika göstərmək olar: «Zoluşka» nağılında uşağın hüququ pozulur. («Uşaq hüquqları haqqında Konvensiya»nın 32-ci maddəsi.) Hər bir uşaq əmək və iqtisadi istismardan müdafiə hüququna malikdir. Təşkilatın bu cür forması motivasiyanı açmağa imkan verir, şagirdlərə ətrafdakıların uşaqların hüquqlarını pozan və ya pozmayan hərəkətlərini dərk etməyə, düzənləməyə kömək edir. Müəllimin vəzifəsi dialoqu elə təşkil etməkdir ki, şagirdlər bu cür dəyərlərin üstünlüklərini və həyatda əhəmiyyətini açа bilsinlər.

Nümunə 3. Fərdi-diferensiasiyalı (yaradıcı) forma – inteqrasiya dərslərinin təşkilinin ən mürəkkəb formasıdır. Onun hazırlanması və həyata keçirilməsi müəllimin yüksək peşəkarlığını tələb edir. Şagirdlər öz fəaliyyətlərini sərbəst seçirlər, həm qruplar, həm də cütlüklərlə öz ətraflarında obyektiv məkan və ünsiyyət qururlar.



Ekologiya mövzusunu öyrənərkən bu inteqrasiya modelini tətbiq edə bilərsiniz. Hər komanda hərəkətlər ardıcıllığını qurur, müəyyən bilik və bacarıqlarını nümayiş etdirir: «Ədəbi yaradıcılıq»

komandası məcazi anlayışları, müqayisələri, aforizmləri, metaforaları; «Təsviri incəsənət» komandası kompozisiyanı, ölçünü, formanı; «Əmək təlimi» komandası proporsiyaların həcmini, əşyaların ümumi kompozisiyada mütənasibliyini (aplikasiya, yapma) nümayiş etdirəcək.

TƏDRİS FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI

Hər bir şagird üçün müəllimin tərifi müsbət emosiyalar yaradır və sonrakı nailiyyətlərin həyata keçirilməsinə təşviq edir. İbtidai məktəbdə şagirdləri stimullaşdırmaq çox vacibdir. Nümunə qismində şərəf lövhəsi ola bilər. Şərəf lövhəsində ən böyük müvəffəqiyyətə imza atan şagird və ya şagirdlərin fotoşəkli yerləşdirilir. Məsələn, dövlətimiz, hüquqlarımız, vəzifələrimiz bölməsinin öyrənilməsi zamanı «Təhsil üzrə ən yaxşı mütəxəssis» və ya «Sağlam və təhlükəsiz həyat» bölməsinin öyrənilməsi zamanı «Sağlamlıq üzrə ən yaxşı mütəxəssis» başlığı yerləşdirmək lazımdır. Bunu etmək üçün müəllim jeton və ya fiqurlar hazırlamalıdır. Bu jeton və ya fiqurlar hər bir düzgün cavab və ya tapşırıq üçün şagirdlərə veriləcək. Bölmənin sonunda hər bir şagird topladığı jetonları sayacaq və ən çox xal yığmış şagird qalib hesab ediləcək. Hər bölmədən sonra jetonlar geri qaytarılır və növbəti hissəni öyrənərkən verilir. Hazırlanmış jetonlar müəllim tərəfindən imzalanır. Bu texnikanın istifadəsi zəif oxuyan şagirdlərə təsir etməməlidir. Müəllim zəif oxuyan şagirdlərə fəaliyyət göstərməsinə kömək etməlidir və ya onlara nailiyyətlərini hiss etməyə imkan verən digər nominasiyalar hazırlamalıdır.

ŞAGİRDLƏRİN FƏRDİ, CÜTLÜK ŞƏKLİNDƏ VƏ QRUPLARDA İŞİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Şagird fəaliyyətinin qiymətləndirilməsinin müasir texnologiyaları bir çox metodiki vəsaitlərdə kifayət qədər dəqiq təsvir edilmişdir. Dərslərdə intizam nisbidir və müəllimin onu qoruyub saxlamaq bacarığından asılıdır. Heç də hər bir dərsdə qrup şəklində işin yerinə yetirilməsi məqsədəuyğun deyil. Cütlük şəklində və mütləq özünüqiymətləndirmə ilə fərdi iş daha çox yayılmaqdadır. Qiymətləndirmənin spesifikasını cütlük şəklində işin xüsusiyyətlərindən biri hesab etmək olar. Cütlük şəklində işin qiymətləndirilməsinin məqsədəuyğunluğu şagirdlərin qiymətləndirilməsi vəziyyətindən asılıdır. İlk növbədə, qiymətləndirmənin məqsədəuyğunluğunu dəyərləndirmək lazımdır. Qiymətləndirməni dərsin istənilən mərhələsində aparmaq olar, lakin cütlük şəklində iş zamanı möhkəmləndirmə və təkrar mərhələsində qiymətləndirmənin həyata keçirilməsi sadəcə zəruridir.

Tədqiqat aparıldığı zaman cütlük şəklində işin qiymətləndirilməsi aşağıdakı hallarda tətbiq edilə bilər:

– iştirakçılardan birinin yeni materialla tanış olduğu və sonradan onu digər iştirakçıya söylədiyi halda;
– iştirakçılar bir-birinə qulaq asır və dinlədikləri mətnin suallarına cavab verirlər;
– müəyyən meyarlar üzrə cütlük şəklində iş.

Ümumiləşdirmə və nəticələrin çıxarıldığı zaman aşağıdakıları tətbiq etmək mümkündür:

– nümunə üzrə qiymətləndirmə;
– cütlük şəklində işin müəllim tərəfindən müəyyən meyarlar üzrə qiymətləndirilməsi;
– qeyri-standart meyarlar üzrə qarşılıqlı qiymətləndirmə (müvəffəqiyyət şkalası).

Cütlük və qrup şəklində işin qiymətləndirilməsinin çətinlikləri

Qiymətləndirmənin əsas çətinliyi qrup və cütlük şəklində işdə ya passiv iştirak edən, ya da ümumiyyətlə, iştirak etməyən zəif oxuyan şagirdlərin qiymətləndirilməsindən ibarətdir. Çox vaxt müəllimlər güclü şagirdlərin zəif sinif yoldaşlarını «gizlətdikləri» ilə qarşılaşırlar. Özünüqiymət-

ləndirmə və ya qarşılıqlı qiymətləndirmə zamanı bu prosesin əhəmiyyətini şagirdlərə izah etmək və onları obyektiv qiymətləndirməyə yönəltmək lazımdır. Bu problemləri hər bir müəllim uğurlu fəaliyyət istiqamətində həll etməlidir. Qarşılıqlı qiymətləndirmə zamanı qiymətləndirmə meyarlarını bala çevirmək, ulduzlar və ya üstəgəllə işarə etmək və yekunlaşdırma zamanı qiymətləndirmə şkalasına dəqiq əməl etmək lazımdır. Dərshesabı planlaşdırma zamanı dərsin hansı mərhələsini qiymətləndirdiyinizi mütləq seçin – son nəticə və ya tədqiqatın gedişi.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, müəllim qiymətləndirmə meyarlarını müstəqil şəkildə müəyyən edir. Bu vəsait müəllimlərə dərsin məqsədlərindən və təlimin nəticələrindən asılı olaraq şagirdləri tam şəkildə qiymətləndirməyə kömək edəcəkdir. Aşağıda qiymətləndirmənin variantları təqdim edilir.

Qruplarda işin qiymətləndirilməsi üçün meyarlar (müəllim üçün nümunəvi cədvəl)

Qruplarda işin qiymətləndirilməsi

Qrupun №-si	**Tədqiqatın düzgün gedişi**	**Materialın ifadə edilməsinə məntiqi yanaşma**	**Nitq mədəniyyəti**	**Digər qrupların iştirakçılarının əlavə məlumatları**	**Qrupda davranış, qarşılıqlı yardım**
I					
II					
III					
IV					

Qrup iştirakçılarının çıxışlarının qiymətləndirilməsi üçün meyarlar:

1. İfadənin anlaşıqlılığı
2. Məntiqi yanaşma
3. Nitq mədəniyyəti
4. Həssaslıq, impulsivlik

Qrupda şagirdin işinin qiymətləndirilməsi

Şagird tapşırığın məqsədləri üzərində diqqətini cəmləşdirir.	
Qrupun digər üzvləri ilə qarşılıqlı əlaqədə çalışır.	
Başqalarına mane olmadan işləyir.	
Şagird tapşırığın yerinə yetirilməsinə nə kimi töhfə verir?	
Qrupun bütün üzvləri ilə nəzakətlə rəftar edir.	
Qrup halında işin yaxşılaşdırılması yollarını tapmağa kömək edir.	

Cütlük şəklində işin özünüqiymətləndirmə vərəqi

Variant 1

Müddəalar	Razıyam	Bəzi müddəalarla razıyam	Razı deyiləm	Çətinliklər yaranmışdır
Mən bütün tapşırıqların yerinə yetirilməsində əvvəldən axıra kimi iştirak edirəm.				
Fikir ayrılıqlarının olduğu zaman mən fərqli qərar qəbul edirəm.				
Bir çox problemlərin həll üsulları mənim tərəfimdən təklif edilmişdir.				
Razılığın əldə edilə bilmədiyi təqdirdə qrupun digər üzvlərinin fikirlərini dinləyirəm.				
Tək işləmək cütlükdə işləməkdən daha asandır.				
Cütlükdə işləmək tək işləməkdən daha maraqlıdır.				

Qrupda özünüqiymətləndirmə vərəqi

Variant 2

Qiymətləndirmə meyarları	Qiymət		
	İş müvəffəqiyyətlə yerinə yetirilmişdir	İşdə çətinliklərlə qarşılaşdım	İş alınmadı
Problemin həllini müstəqil şəkildə tapmaq			
Əsas fikri seçmək			
İşin nəticələrini lazımi şəklə salmaq			
Qrupda özünün fəaliyyətini qiymətləndirmək			
Qrupun işinə şəxsi töhfəni qeyd etmək			
İştirak səviyyəsini yüksələn ox üzrə seçin.	Alınmadı. / Mənim iştirakım çox azdır. / Mən öz töhfəmi verdim. / Mənsiz öhdəsindən gələ bilməzdilər.		

Cütlükdə özünüqiymətləndirmənin marşrut vərəqi

Variant 3

Tapşırıqlar	Göstərici	Özünüqiymətləndirmə
Stres haqqında bir neçə fakt	Birlikdə işlədik, bir-birimizi dinlədik.	
	Növbə ilə öz alternativ fikrimizi söylədik.	
	Razılığa gəlmək çətin idi.	
Hansı fikirlə razısan?	Birlikdə işlədik, bir-birimizi dinlədik.	
	Növbə ilə öz fikrimizi söylədik.	
	Razılığa gəlmək çətin idi.	
Klaster təşkil edirik.	Birlikdə işlədik, bir-birimizi dinlədik.	
	Növbə ilə öz fikrimizi söylədik.	
	Razılığa gəlmək çətin idi.	
Stresə necə müqavimət göstərməli?	Birlikdə işlədik, bir-birimizi dinlədik.	
	Növbə ilə öz fikrimizi söylədik.	
	Razılığa gəlmək çətin idi.	
Cütlüyün işinin nəticələri	Dərs üçün	

Cütlük şəklində işi qiymətləndirin.
Cütlərlə işin nəticələri:
«İş alındı! Afərin!» –
«Yaxşı işdir!» –
«Çətinliklər var idi.» –

Meyarlar layihəsi üzərində işdə özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə vərəqi (hər bir meyar üzrə – 0 baldan 5 bala qədər).

Qiymətləndirmə meyarları (0 baldan 5 bala qədər)	**Özünüqiymət-ləndirmə**	**Cütlüyün iştirak-çısının qiyməti**	**Müəllimin qiyməti**
Mən qrupda işin daha çox hissəsini yerinə yetirmişəm.			
Mən öz tərəfdaşımın fikrinə qulaq asıram, digər nəzər nöqtəsini qəbul edə bilərəm.			
Mən inandırmağı və öz baxış nöqtəmi sübut etməyi bacarıram.			
Mən, tərəfdaşımın nəzər nöqtəsi hətta mənim fikrimlə üst-üstə düşmədiyi təqdirdə, onunla razılaşmağı bacarıram.			

Özünüqiymətləndirmə vərəqi
«Uğurlu iş» oxu



DƏRSLƏRDƏ TƏLİM NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Komplektdə təqdim olunan mövzuların sonunda səviyyələr üzrə qiymətləndirmə üsulları verilmişdir, lakin mövzuların əksəriyyəti 2 saat nəzərdə tutulub. Bu dərslər müxtəlif, bəzi hallarda isə eyni bir standartın reallaşdırılmasına xidmət edir. Hər iki halda hər dərsin öz təlim məqsədləri vardır və bu məqsədlər, onlardan irəli gələn təlim nəticələri müəllim tərəfindən izlənməlidir. Sizə təqdim etdiyimiz aşağıdakı cədvəl bu baxımdan işinizə yaraya bilər. Mövzunun birinci dərsində müəllim bu cədvəl vasitəsilə səviyyələr üzrə qiymətləndirmələr aparır. Mövzunun tədrisi başa çatanda siz vəsaitdə hazır verilmiş qiymətləndirməni tətbiq edə bilərsiniz.

Qiymətləndirmə
Meyarlar: təhlil, sintez, təsvir, informasiyanın bir növdən digər növə keçirilməsi, ümumiləşdirmə

Ən yüksək səviyyə	Yüksək səviyyə	Orta səviyyə	Aşağı səviyyə
İnformasiyanı tam qəbul edir və eyni zamanda ayrı-ayrı anlayışları qarşılıqlı əlaqədə başa düşür. Öz fikrini əsaslandırmaq üçün mətnə istinad edir. Mürəkkəb informasiyanı müəyyən edir, faktlar şəklində ardıcıllıq qurur. Təklif olunmuş anlayışların tərkib komponentlərini təsvir edir, onların əhəmiyyətini əsaslandırır.	Mühüm məlumatları başa düşür, müəllim tərəfindən yönəltmələrə əsaslanaraq şəxsi mövqelərini qurur, istər tədqiqat sualının məzmunu, istərsə də işin gedişatını qiymətləndirir, müəllimin mümkün əlavələrinə diqqət yetirir. Öz fikrini əsaslandırmaq üçün məlumatlar tapır və müəllimin köməyi ilə mətndən götürülən informasiyanı interpretasiya edir, verbal və vizual informasiyanı əlaqələndirir.	Əvvəlki biliklərinə əsaslanaraq aşkar faktları interpretasiya edir, ayrı-ayrı hadisə və faktları qiymətləndirir. Müzakirələr zamanı iştirakçıların nümunələri ilə bağlı tək-tək əlavələr səsləndirir.	Mətndən aşkar şəkildə ifadə olunan və asanlıqla lokallaşdırılan informasiyanı oxuyur, hazır informasiyanı tapır və götürür.

«Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası»nın tətbiqinə dair tövsiyələr (Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 28.12.2018-ci il tarixli 8/1 nömrəli qərarı ilə təsdiq edilmişdir).

ÇIXARIŞ

«Qayda»da nəzərdə tutulan diaqnostik, formativ və summativ qiymətləndirmə növlərinin hər biri mahiyyət etibarilə fərqli məqsədlərə xidmət edir. Bununla belə, qiymətləndirmə sistemində onların hər biri əhəmiyyətli rola malikdir və bu qiymətləndirmə növləri ardıcıl, bir-birini tamamlamaqla tətbiq olunduqda qiymətləndirmə prosesinə kompleks yanaşma təmin edilir.

Diaqnostik qiymətləndirmə

Təcrübə göstərir ki, diaqnostik qiymətləndirmə nəticələrinin sinif jurnalında və digər aidiyyəti sənədlərdə qeyd edilməməsi bu qiymətləndirmə növünə laqeyd münasibət bəslənilməsinə gətirib çıxarır. Bu problemi aradan qaldırmaq üçün diaqnostik qiymətləndirmə ilə bağlı aşağıdakı təşkilati işlərin həyata keçirilməsi tövsiyə edilir.

1. Sinif rəhbəri tərəfindən hər bir şagird üçün məktəbdə saxlanılmaq şərtilə portfolio (qovluq) yaradılır və hər şagirdin portfoliosuna fənlərin sayı qədər fayllar qoyulur, hər faylın üstünə bir fənnin adı yazılır. Əlavə olaraq bir fayl da şagirdin sosial və digər ümumi fəaliyyətləri ilə bağlı nəzərdə tutulur. Hər fayla şagirdin həmin fənlə bağlı yazılı materialları qoyulur. Hər hansı fənlə bağlı fayl dolduqda bu fənn uzrə daha bir yeni fayl əlavə edilir.
2. Hər bir müəllim şagirdlə bağlı müşahidələrini, irəliləyişləri barədə məlumatları, meyil-maraq dairəsi haqda rəyini, həmçinin şagirdin yazılı qeydlərini fənnə aid fayla əlavə edir.
3. Sinif rəhbəri portfolionun təşkilini, saxlanılmasını və burada olan məlumatların araşdırılıb təhlil edilməsini, rəhbərliyə və valideynlərə müvafiq məlumatlar verilməsini həyata keçirir.

Hər bir müəllim formativ qiymətləndirmə dəftəri tərtib etməlidir. Bu dəftərin formasına və aparılmasına xüsusi bir tələb qoyulmasa da, dəftərdə müəllimin dərs dediyi hər sinif uçün bir neçə səhifə ayırması, hər səhifədə sinifdəki şagirdlərin adlarının yazılması və hər şagirdin adının qarşısındakı müvafiq qrafada tarix göstərilməklə lazımi qeydlərin aparılması məqsədəmüvafiqdir.

Bir dərs müddətində digər müxtəlif fəaliyyətlərin də olduğunu nəzərə alsaq, əlbəttə, bütün şagirdlərin formativ qiymətləndirilməsinin aparılması, «Məktəbli kitabçası»nda və müəllimin formativ qiymətləndirmə dəftərində qeyd olunması fiziki olaraq mümkün deyil. Bu səbəbdən də sinif

üzrə formativ qiymətləndirmə aparılsa da, müvafiq planlaşdırmaya əsasən, hər dərs üzrə 5–8 şagirdin formativ qiymətləndirilməsinin nəticəsinin «Məktəbli kitabçası»nda və müəllimin formativ qiymətləndirmə dəftərində qeyd olunması tövsiyə olunur.

Summativ qiymətləndirmə

Yeni «Qayda»da kiçik və böyük summativ qiymətləndirmələrdə nəticələrin maksimum 100 bal ilə ifadə olunması konkret göstərilmişdir. Formal sənədləşmədə istifadə edilmək və valideynlərə aydın olmaq üçün bu ballar aşağıda verilmiş cədvələ uyğun olaraq, «2», «3», «4», «5» qiymətlərinə uyğunlaşdırılır. Bütün hallarda hər dəfə əvvəlcə ballar hesablanır, sonda isə qiymətə («2», «3», «4», «5») çevrilərək sinif jurnalına və «Məktəbli kitabçası»na yazılır. Məsələn, şagirdin nəticələri birinci yarımildə «59 bal» və «3», ikinci yarımildə «65 bal» və 4 -dürsə, onun illik nəticəsini tapmaq üçün əvvəlcə balların ədədi ortası tapılır, sonra qiymətə çevrilir. Yəni illik nəticə «62 bal» ((59+65):2=62) və «4» qiymət müəyyən edilir.

Bal aralığı	Qiymət
[0–30]	2 (qeyri-kafı)
(30–60]	3 (kafi)
(60–80]	4 (yaxşı)
(80–100]	5 (əla)

Balların qiymətlərə çevrilməsi bu cədvələ uyğun aparılır:

Balların qiymətlərə uyğunlaşdırılmasında anlaşılmazlıqlar, əsasən, 30; 60; 80 balla əlaqədar ola bilər. Belə olan hallarda 30 bal – «2»; 60 bal – «3»; 80 bal – «4» kımı nəzərə alınır. Tam hissəsi 30; 60; 80 olan balların vergüldən sonrakı rəqəmlərindən hər hansı biri sıfırdan fərqli olarsa, onda növbəti qiymət hesab edilir.

Məsələn:

– 30,1; 30,00254 və s. kimi ballar – «3»;

– 60,001; 60,03 və s. kimi ballar – «4»;

– 80,2; 80,006 və s. kimi ballar – «5» qiymətinə uyğundur.

Digər bir anlaşılmazlıq yarada biləcək məqam KSQ və BSQ nəticələrinin sinif jurnalına yazılması qaydası ilə bağlıdır. Nəzərinizə çatdırırıq ki, kiçik və böyük summatıv qiymətləndirmələr, həmçinin yarımillik və illik nəticələr sinif jurnalında iki sütunda yazılır: soldan birinci sütunda ballar (məsələn, 19; 35; 62; 95 və s.), ikinci sütunda isə qiymətlər («2»; «3»; «4»; «5»).

KSQ-nin keçirildiyi gün üzrlü səbəbdən iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı nəticələr yazılan 2 xana diaqonalla iki hissəyə ayrılır. Xanaların hər ikisinin surətində *«q»* (qaib) yazılır, məxrəcləri isə boş saxlanılır. Müəllim növbəti KSQ-nin keçiriləcəyi tarixədək həmin şagirdlə KSQ aparır. Təkrar KSQ-də iştirak etməyən şagirdin jurnalda adının qarşısında yarıya bölünmüş və surətlərində *«q»* yazılmış xanaların hər ikisinin məxrəcində də «q» yazılır və bu, yarımillik balların hesablanmasında nəzərə alınmır.

KSQ-də üzrsüz səbəbdən iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısında «0» bal, qiymət yazılan xanada «q» yazılır və yarımillik balların hesablanmasında nəzərə alınır.

BSQ-nin keçirildiyi gün üzrsüz səbəbdən iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısında «0» bal və qiymət yazılan xanada «q» yazılır, yarımillik balların hesablanmasında nəzərə alınır. 1-ci və 2-ci yarımildə BSQ-də üzrlü səbəbdən (xəstəlik, bədbəxt və fövqəladə hadisə və s.) iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı nəticələr yazılan 2 xana diaqonalla iki hissəyə ayrılır. Xanaların hər ikisinin surətində «q» (qaib) yazılır, məxrəcləri isə boş saxlanılır. Müvafiq summatıv qiymətləndirmə günündən sonra növbəti 2 (iki) həftə müddətində onun üçün böyük summatıv qiymətləndirmə təşkil edilir. Qeyd olunan müddətdə şagird təkrar BSQ-də hər hansı səbəbdən iştirak etmədikdə böyük summativ qiymətləndirmə üzrə balı «0» qəbul olunur və sinif

jurnalında adının qarşısında boş saxlanılmış iki xananın məxrəclərində bal yazılan xanada «0» bal, qiymət yazılan xanada isə «q» yazılır və yarımillik balların hesablanmasında nəzərə alınır.

«Qayda»da xüsusi diqqət yetirilən məqamlardan biri də qiymətləndirmədə şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması və onların psixoloji durumlarının kənar təsirlərdən qorunmasıdır. Bu baxımdan «Qayda»da I siniflərdə summativ qiymətləndirmələrin aparılması nəzərdə tutulmamışdır. Eyni zamanda II və III siniflərdə BSQ-lərin keçirilməməsi və onların sayının xeyli azalması da həmin məqsədə xidmət edir.

Siniflər	Kiçik summativ qiymətləndirmə keçirilən fənlər	Böyük summativ qiymətləndirmə keçirilən fənlər	Qeyd
I	0	0	
II	Bütün fənlər üzrə keçirilir.	0	
III	Bütün fənlər üzrə keçirilir.	0	
IV	Bütün fənlər üzrə keçirilir.	Bütün fənlər üzrə	

«Qayda»da hər fənn üzrə KSQ-nin yarımildə ən azı 3, ən çoxu 6 dəfə olmaqla, dərs vaxtında, bir dərs saatında (45 dəqiqə) keçirilməsi nəzərdə tutulur. KSQ-nin sayı və tarixi hər bir fənn müəllimi tərəfindən təqvim planı hazırlanarkən müəyyənləşdirilir və yarımilin birinci həftəsi ərzində dərsdə şagirdlərə şifahi olaraq elan edilir.

Ümumilikdə, BSQ-nin sayı xeyli azaldılmışdır. Hər sinifdə fənlər üzrə keçiriləcək summativ qiymətləndirmələri ümumiləşdirmək olar. KSQ qiymətləndirmə materiallarının hazırlanması, qiymətləndirmənin keçirilməsi və yoxlanılması, materialların saxlanılması, qiymətləndirmənin nəticələrinin, yarımillik, illik nəticələrin hesablanaraq vaxtında sinif jurnalına və məktəbli kitabçasına yazılması fənn müəllimi tərəfindən həyata keçirilir.

QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNİN HAZIRLANMASI

Qiymətləndirmə vasitələri 4 çətinlik dərəcəsi üzrə hazırlanır və iki əsas sualı əhatə edir.

1-ci səviyyə çətinlik dərəcəsi ən aşağı, 4-cü səviyyə çətinlik dərəcəsi isə ən yüksəkdir. 1-ci səviyyə çətinlik dərəcəsi və 2-ci səviyyə çətinlik dərəcəsi əksər şagirdlər, səviyyə çətinlik dərəcəsi və xüsusilə 4-cü səviyyə çətinlik dərəcəsi isə daha istedadlı şagirdlər üçün nəzərdə tutulur. Summativ qiymətləndirmə üzrə materiallar hazırlanarkən səviyyələr üzrə tapşırıqların çəkisi aşağıdakı kimi müəyyənləşdirilir:

– 1-ci səviyyə üzrə tapşırıqlar bütün tapşırıqların 20%-ni (20 bal);
– 2-ci səviyyə üzrə tapşırıqlar bütün tapşırıqların 30%-ni (30 bal);
– 3-cü səviyyə üzrə tapşırıqlar bütün tapşırıqların 30%-ni (30 bal);
– 4-cü səviyyə üzrə tapşırıqlar bütün tapşırıqların 20%-ni (20 bal).

KSQ-lərin qiymətləndirmə vasitələri fənn müəllimi tərəfindən hazırlanır.

BSQ-lər fənn müəllimləri tərəfindən deyil, ümumi təhsil müəssisəsinin rəhbərliyi tərəfindən keçirilir.

Summativ qiymətləndirmə zamanı müəllim məqsədəuyğun olaraq müxtəlif üsullardan istifadə edə bilər. Summativ qiymətləndirmədə müxtəlif metod və texnikalardan istifadə oluna bilər: test, inşa, esse, imla, referat, təqdimat, layihə və s.

Summativ qiymətləndirmə vasitələri hazırlanarkən həm açıq, həm də qapalı suallardan istifadə olunması məqsədəmüvafiqdir. Burada vacib suallardan biri açıq sualın qapalı sualdan fərqləndirilməsidir. Qapalı sualda yalnız bir cavabın, açıq sualda isə müəyyən şərhlərin, əlavə məlumatların olması nəzərdə tutulur. Həm qapalı, həm də açıq sualların çətinlik dərəcəsi fərqli ola bilər.

Sualların mürəkkəblik dərəcəsi aşağıdakı diferensiallaşmış meyarlar uzrə müəyyənləşdirilə bilər:

A) 1-ci çətinlik dərəcəsinə asan tapşırıqlar aiddir. Burada tədris müddətində alınmış məlumatın yada salınmasını tələb edən faktiki materialı əks etdirən suallar, terminlərlə bağlı biliklərin üzə çıxarılması ilə əlaqədar suallar, hazır nümunələr və alqoritmlər əsasında məsələlərin həlli nəzərdə tutulur.

Bu səviyyə üçün neçə tapşırıq nəzərdə tutulmasından asılı olmayaraq, onların hər birinə verilən maksimal balların cəmi 20 olmalıdır.

B) 2-ci çətinlik dərəcəsinə asana yaxın, orta səviyyəli sual və tapşırıqlar aiddir. Burada çoxlu sayda terminlərdən istifadəni tələb edən suallar, mənimsənilmiş material əsasında aparılan ümumiləşdirməni əks etdirən suallar, müəyyən hadisə və qanunauyğunluqların qəbulu və onlar arasında səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi (izahatvermə bacarığı) ilə bağlı suallar, təhlil, məntiqi düşünmə, məntiqi nəticəçıxarma qabiliyyəti, əsas ideya və əlamətlərin üzə çıxarılması qabiliyyəti ilə bağlı suallar, dəyişilmiş situasiyalarda məsələlərin həll-edilmə qabiliyyəti ilə bağlı suallar nəzərdə tutulur.

Bu səviyyə üçün neçə tapşırıq nəzərdə tutulmasından asılı olmayaraq, onların hər birinə verilən maksimal balların cəmi 30 olmalıdır.

C) 3-cü çətinlik dərəcəsinə çətinə yaxın, orta səviyyəli sual və tapşırıqlar aiddir. Burada çoxlu sayda terminlərdən istifadəni tələb edən suallar, mənimsənilmiş material əsasında aparılan ümumiləşdirməni əks etdirən suallar, müəyyən hadisə və qanunauyğunluqların qəbulu, onlar arasında səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi (izahatvermə bacarığı) ilə bağlı suallar, təhlil, məntiqi düşünmə, məntiqi nəticə çıxarma qabiliyyəti, əsas ideya və əlamətlərin üzə çıxarılması qabiliyyəti ilə bağlı suallar, dəyişilmiş situasiyalarda məsələlərin həll edilmə qabiliyyəti ilə bağlı suallar nəzərdə tutulur.

Bu səviyyə üçün neçə tapşırıq nəzərdə tutulmasından asılı olmayaraq, onların hər birinə verilən maksimal balların cəmi 30 olmalıdır.

D) 4-cü çətinlik dərəcəsinə çətin sual və tapşırıqlar aiddir. Burada çətin terminlərdən istifadə, müəyyən hadisə və qanunauyğunluqlara izahatvermə qabiliyyəti, bir-biri ilə bilavasitə əlaqəsi olmayan cisim və hadisələr arasındakı səbəb-nəticə əlaqəsini başa düşmək, proqnozlaşdırma qabiliyyəti, yaradıcı təfəkkürə əsaslanaraq biliklərin yeni kontekstdə istifadəsi, müxtəlif vəziyyətlərdə əldə edilmiş biliklərin yaradıcı şəkildə tətbiqi və yeni, orijinal üsullarla məsələ həlli, təqdim olunmuş problem xarakterli məlumata əsasən sual və problemi ifadəetmə bacarığı, yeni situasiyada hesablamaları aparma qabiliyyəti tələb edən tapşırıqlar nəzərdə tutulur.

Bu səviyyə üçün neçə tapşırıq nəzərdə tutulmasından asılı olmayaraq, onların hər birinə verilən maksimal balların cəmi 20 olmalıdır.

Tapşırıqların sayı və onlara verilən maksimal ballarla bağlı bir neçə nümunəyə baxaq.

Nümunə. Tapşırıqların ümumi sayı 20-dir və onlar səviyyələr üzrə aşağıdakı kimi paylanmışdır:

– 1-ci səviyyənin tapşırıqlarının sayı – 8;
– 2-ci səviyyənin tapşırıqlarının sayı – 6;
– 3-cü səviyyənin tapşırıqlarının sayı – 4;
– 4-cü səviyyənin tapşırıqlarının sayı – 2.

Bu halda səviyyələr üzrə hər tapşırığa verilən balları aşağıdakı kimi müəyyənləşdirmək olar:

– 1-ci səviyyənin hər tapşırığına verilən bal – 2 bal + 2 bal + 2 bal + 2 bal + 3 bal + 3 bal + 3 bal + 3 bal = 20 bal;

– 2-ci səviyyənin hər tapşırığına verilən bal – 5 bal + 5 bal + 5 bal + 5 bal + 5 bal +5 bal = 30 bal;

– 3-cü səviyyənin hər tapşırığına verilən bal – 7 bal + 7 bal + 8 bal + 8 bal = 30 bal;
– 4-cü səviyyənin hər tapşırığına verilən bal – 10 bal + 10 bal = 20 bal.

Nümunə. Tapşırıqların ümumi sayı 10-dur və onların sayı səviyyələr üzrə aşağıdakı kimi paylanmışdır:
– 1-ci səviyyənin tapşırıqlarının sayı – 4;
– 2-ci səviyyənin tapşırıqlarının sayı – 3;
– 3-cü səviyyənin tapşırıqlarının sayı – 2;
– 4-cü səviyyənin tapşırıqlarının sayı – 1.

O zaman səviyyələr üzrə hər tapşırığa verilən balları aşağıdakı kimi müəyyənləşdirmək olar:
– 1-ci səviyyənin hər tapşırığına verilən bal – 5 bal + 5 bal +5 bal + 5 bal = 20 bal;
– 2-ci səviyyənin hər tapşırığına verilən bal – 10 bal+ 10 bal +10 bal = 30 bal;
– 3-cü səviyyənin hər tapşırığına verilən bal – 15 bal + 15 bal = 30 bal;
4-cü səviyyənin hər tapşırığına verilən bal – 20 bal.

Bu nümunələrdə hər tapşırığa verilən bal bir yanaşmanın nəticəsidir. Hər çətin səviyyəyə keçdikcə tapşırıqların sayının azalması və hər tapşırığa verilən balın artması məntiqə uyğun haldır. Burada bir məqam da qeyd olunmalıdır ki, summativ qiymətləndirmədə qiymətləndirmə vasitəsi kimi bir tapşırıq (inşa, məsələ və s.) da ola bilər.

Qiymətləndirmələrdə qarşıya qoyulan məqsədə nail olunması baxımından qiymətləndirmə vasitələrinin keyfiyyətli tərtib edilməsi vacib şərtlərdəndir. Bu baxımdan ümumi təhsil müəssisəsinin rəhbərliyi qiymətləndirmə vasitələrinin hazırlanmasına ciddi əhəmiyyət verməli, onu qiymətləndirmənin təməli kimi qəbul etməlidir.

STANDARTLARIN REALLAŞDIRILMASI VƏ PLANLAŞMA

I yarımil				
№	**Standart**	**Mövzular**	**Saatlar**	**Elektron resurslar**
1.	Diaqnostik qiymətləndirmə		1	
I. DÖVLƏTİMİZ, HÜQUQLARIMIZ, VƏZİFƏLƏRİMİZ				
2.	1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri izah edir. 2.1.3. Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır. 4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.	Yenidən məktəbdə	3 (2 saat dərs, 1 saat təqdimat)	

3.	2.4.2. Öz hüquqlarını uşaq hüquqları haqqında müvafiq sənədlər baxımından şərh edir.	Uşaq hüquqları	3
			(2 saat dərs, 1 saat layihə)
				https://www.youtube.com/watch?v=hesd5aITJMI;
				https://www.youtube.com/watch?v=hFQg14wgQT0;
				https://www.youtube.com/watch?v=hFQg14wgQT0

4.	2.3.1. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını izah edir.	Dövlət orqanları	2 (2 saat dərs)	https://www.youtube.com/watch?v=-on-NFKGxQfY
5.	2.2.2. «Vergi», «Dövlət büdcəsi» və «Sığorta» anlayışlarını sadə şəkildə izah edir.	Dövlət büdcəsi. Vergi	2 (2 saat dərs)	
6.	KSQ		1	
7.	2.2.2. «Vergi», «Dövlət büdcəsi» və «Sığorta» anlayışlarını sadə şəkildə izah edir.	Sığorta	1 (1 saat dərs)	https://www.youtube.com/watch?v=YSvfcHjwB4s
8.	2.2.3. Milli pul nişanları ilə digər dövlətlərin pul nişanlarını fərqləndirir.	Milli pul	2 (2 saat dərs)	https://www.youtube.com/watch?v=lxoWCNJq8WM

№	Standart	Mövzular	Saatlar	Elektron resurslar
9.	2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır. 3.4.1. Ailə və Vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir.	Vətəndaşlıq	2 (1 saat dərs, 1 təqdimat)	
II. MƏNƏVİ DÜNYAMIZ				
10.	2.2.1. «Qənaət» və «israf» anlayışlarını müqayisə edir. 3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir.	İsraf və qənaət	2 (2 saat dərs)	https://www.youtube.com/watch?v=ElkNBVH5CwU
11.	2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır.	Doğma və ögey münasibət	2 (1 saat dərs, 1 saat təqdimat)	
12.	2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır.	Məsuliyyət hissi	1 (1 saat dərs)	
13.	KSQ		1	
14.	3.1.1. Tənqidi münasibətdə nəzakət qaydalarına (şəxsiyyətə toxunmamaq, kobud ifadələr işlətməmək, sərt formada etiraz etməmək, qəbuledilməz təkliflərə «yox» demək) riayət edir. 3.2.2. Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir.	Ədəb qaydaları	3 (1 saat dərs, 1 saat təqdimat, 1 saat layihə)	
15.	3.3.2. Məhəmməd peyğəmbərin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir.	İslam dininin yaranması	2 (2 saat dərs)	
16.	3.1.2. Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir.	Azərbaycanda din	2 (1 saat dərs, 1 saat təqdimat)	
17.	3.3.3. Dini dəyərlərlə xurafatı fərqləndirir.	Mövhumatçılıq	2 (2 saat dərs)	
18.	KSQ		1	
19.	BSQ		1	
II yarımil				
III. SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT				
20.	1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir. 4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.	Onurğa sütunu	2 (2 saat dərs)	http://portal.edu.az/lessons/az/biology/Insan_skeleti/index.html; https://www.youtube.com/watch?v=5yin60FyIQI
21.	1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir.	İnsanın daxili orqanları	2 (2 saat dərs)	https://www.youtube.com/watch?v=Il4F1BJpgwE; https://www.youtube.com/watch?v=67SZv-Zgh3s
22.	4.1.1. Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir. 4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.	Orqanizmi necə qorumalı	3 (2 saat dərs, 1 saat təqdimat)	https://www.pinterest.com/search/pins/?rs=ac&len=2&q=activities%20for%20kids&eq=activiti&etslf=10454&term_meta[]=activities%20for%20kids%7Cautocomplete%7 C1

№	Standart	Mövzular	Saatlar	Elektron resurslar
23.	4.3.2. Qəza zamanı ilkin tibbi yardım barədə biliklərini şərh edir.	İlk tibbi yardım	3 (2 saat dərs, 1 saat təqdimat)	https://www.pinterest.com/pin/330873903868187932/
24.	KSQ		1	
25.	4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən təhlükəsiz istifadə qaydalarını izah edir.	Məişət qəzaları	2 (1 saat dərs, 1 saat təqdimat)	https://www.youtube.com/watch?v=LZmZWCcezss
26.	2.4.1. Müvafiq situasiyalarda qanun və qaydalara əməl edir. 4.2.3. Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir. 4.2.4. Nəqliyyat vasitələrindən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət edir.	Yol hərəkəti qaydaları	2 (1 saat dərs, 1 saat təqdimat)	https://www.youtube.com/watch?v=gWaXFt8QKU0
27.	4.2.2. Müvafiq nişanlara (yüksək gərginlik, minalanmış sahə, yanğın təhlükəsi, radioaktivlik, zəhərli maddə, torpaq sürüşməsi, uçqun, daşqın və çimərlik nişanları) görə həyat üçün təhlükə mənbələrini fərqləndirir. 4.3.1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir. 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir.	Fövqəladə hal	3 (2 saat dərs, 1 saat layihə)	
28.	KSQ		1	
	IV. TƏBİƏT VƏ CƏMİYYƏT			
29.	1.2.1. Coğrafi obyektləri xəritədə göstərir. 1.2.2. Yerin təbii zonalarını sadə şəkildə təsvir edir.	Yer təbiətinin müxtəlifliyi	2 (2 saat dərs)	https://www.nationalgeographic.com/environment/habitats/tundra-biome/#/312.jpg; https://study.com/academy/lesson/biomes-tundra-taiga-temperate-grassland-and-coastlines.html
30.	1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri izah edir. 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir.	Təbiətdəki əlaqələr	2 (2 saat dərs)	http://portal.edu.az/lessons/az/biology/Orqanizmlerin_etraf_muhite_uyqunlashmalari/lo/uc_b4t_l092.html; http://portal.edu.az/lessons/az/biology/Etyeyen_bitkiler/lo/uc_b4_l058.html
31.	1.2.3. Yaşadığı ərazinin, məhəllənin planını çəkir. 1.4.1. Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir. 1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir.	Ekologiya	4 (2 saat dərs, 2 saat layihə)	http://portal.edu.az/lessons/az/ biology/Etraf_muhitin_cirklenmesi/scorm-emt.html?sco=content%2Flearningunit4%2Fscript_00010.emt.xml&title=%C6%8Ftraf+m%C3%BChitin+%C3%A7irkl%C9%99nm%C9%99si&api=13
32.	1.1.3. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar edir.	Yurdumuzun işıqları	2 (1 saat dərs, 1 saat təqdimat)	https://www.youtube.com/watch?v=Acg6F0AWuvo; https://www.youtube.com/watch?v=ABv631t1OKI

№	Standart	Mövzular	Saatlar	Elektron resurslar
33.	1.1.2. Təbii resurslardan, təbiət hadisələrindən («işıq», «səs» və «enerji») istifadədə elmin rolunu izah edir. 1.1.3. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar edir.	Enerji mənbələri	3 (2 saat dərs, 1 saat layihə)	https://www.youtube.com/watch?v=j71ale1_rhI https://www.youtube.com/watch? v=5hn-b3RqkNw https://www.youtube.com/watch? v=I5fjGgDmlW8
34.	KSQ		1	
35.	BSQ		1	
36.	CƏMİ		68	

DƏRSLƏRİN GÜNDƏLİK PLANLAŞDIRILMASI

I. DÖVLƏTİMİZ, HÜQUQLARIMIZ, VƏZİFƏLƏRİMİZ

Mövzu 1	Yenidən məktəbdə (1-ci dərs)
Standart	1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri izah edir. 4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.
Təlim məqsədi	Günəşin canlı orqanizmlər üçün əhəmiyyətini izah edir. Yay mövsümündə sağlamlığın qorunması ilə bağlı fikirləri izah edir.
İnteqrasiya	İnf. 2.2.1.
Təlim forması	Kollektiv iş
Təlim üsulu	Klaster, «Beyin həmləsi», müzakirə
Resurslar	Dərslik

Dərsin gedişi

Motivasiya. Şagirdlərdən məktəblə bağlı şeir soruşulur.

Dərsliklə tanışlıq. Müəllim:

– Dərsliyinizi nəzərdən keçirin, məzmunu ilə tanış olun. Hansı mövzular sizin çox xoşunuza gəldi? (Şagirdlər istədikləri mövzuları adlandırırlar).

– Necə düşünürsünüz, bu mövzuda nədən bəhs edilir? (Şagirdlər mövzu haqqında fikir söyləyirlər).

– Yeni tədris ilində biz dünya turuna çıxacağıq. Əvvəlcə dövlətimizi tanıyacaq, Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarını, vəzifələrini öyrənəcəyik. İnsan orqanizminin fəaliyyəti, bitki və heyvan aləminin necə fərqli olduğu, təbiətin rəngarəngliyi barədə məlumatlanacağıq.

– Dərs kitabının şərti işarələrinə diqqət yetirin: «Oxumağı tövsiyə edirik»; «Baxmağı tövsiyə edirik». Burada çox maraqlı filmlər, hekayələr və şeirlər tapa bilərsiniz.

Dərslikdə 1-ci mövzunuz «Yenidən məktəbdə» adlanır. Bu, o deməkdir ki, siz tətil günlərini başa vurub yenidən məktəbə gəlmisiniz. Artıq 4-cü sinifdə oxuyursunuz. 3-cü sinifdə öyrəndiklərinizi yeni dərs ilində davam etdirəcək və yeni biliklər əldə edəcəksiniz. Dərsliyin giriş mövzusunu

oxuyaq. Giriş mövzusu «fasiləli oxu» üsulu ilə oxunur. Diqqət biliklərin gündəlik həyatda tətbiq olunması istifadəsinə yönəldilir.

Tədqiqat sualı. Yay tətilindən necə faydalandın?

Tədqiqatın aparılması. Müəllim obyektin (əşyanın) təsviri olan şəkli göstərir, uşaqlar onu adlandırır.

– Şəklə baxın. Nə görürsünüz? (Günəş, dəniz, qum). Günəş altında qaralmaq yaxşıdırmı? Bu, həmişə faydalıdırmı?

– Şəkillərə baxın və uşaqların harada doğru seçim etdiyini söyləyin. Niyə? (Uşaqlar fikirlərini ifadə edirlər, müzakirə prosesi davam edir).

– Uzun müddət günəş altında baş geyimi olmadan qalsanız, nə baş verə bilər? (Gün vurması, istilik vurması baş verə bilər. Uşaqlar günəş vurmasının mümkün əlamətlərini sadalayırlar.)

– Şəkli nəzərdən keçirin. Orqanizmimiz üçün Günəşin iştirakı ilə yaranan faydalı bir maddə var. Onu almaq üçün vitamin sözünün yanında hansı hərfi yazmaq lazımdır? (D hərfi. Günəş şüaları altında orqanizmdə yaranan D vitamini).

– Qışda günəş şüalarının az olduğu zaman nə etmək lazımdır? (Tərkibində D vitamini zəngin olan məhsullar – qaraciyər, ət, yumurta, balıq yemək).

Nəticələrin çıxarılması və ümumiləşdirmə. Dərslik üzrə 9-cu səhifədəki 1-ci tapşırıq yerinə yetirilir. Müəllim əvvəlcədən hazırlanmış kartlardan (yaşıl və qırmızı, ya da daltonizmdən əziyyət çəkən uşaqlar üçün sarı və göy) istifadə edir. Kartlar fərdi istifadə üçün hər bir şagirddə olmalıdır.

Qeyd. *1. Müəllim şagirdlərə yaşıl kartın razılıq, qırmızının isə razı olmamaq ifadə etdiyini bildirir.*

2. 1-ci tapşırıqda müxtəlif mülahizələr gətirilir. Şagird bu mülahizə ilə razı olduğu halda yaşıl, razı olmadığı halda isə qırmızı kartı qaldırır.

3. Şagird düzgün cavab vermədiyi halda müəllim ondan öz fikrini bildirməyi və bu mülahizəsini əsaslandırmağı xahiş edir.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. İnformasiyanı tam qəbul edir və eyni zamanda ayrı-ayrı anlayışları qarşılıqlı əlaqədə başa düşür; öz fikrini əsaslandırmaq üçün mətnə istinad edir. Sağlam həyat tərzinin detalları və onunla bağlı hərəkətləri əlaqələndirir, hər bir mülahizəni əsaslandırır. Günəş şüalarının insan orqanizminə müsbət və mənfi təsirini fərqləndirir. Sağlam qidanın əhəmiyyətini xarakterizə edir, vitaminlərin rolunu qeyd edir. Mürəkkəb informasiyanı müəyyən edir, faktlar şəklində ardıcıllıq qurur. Təklif olunmuş anlayışların tərkib komponentlərini təsvir edir (qrupda iş), onların əhəmiyyətini əsaslandırır.

Yüksək səviyyə. Mühüm məlumatları başa düşür, müəllim tərəfindən yönəltmələrə əsaslanaraq şəxsi mövqelərini qurur, istər tədqiqat sualının məzmunu, istərsə də işin gedişatını qiymətləndirir, müəllimin mümkün əlavələrinə diqqət yetirir, sağlam həyat tərzinin əhəmiyyətindən xəbər verən hadisə və faktlar arasında əlaqə qurur. Öz fikrini əsaslandırmaq üçün düzgün qidalanma haqqında məlumatlar tapır və müəllimin köməyi ilə mətndən götürülən informasiyanı interpretasiya edir, verbal və vizual informasiyanı əlaqələndirir.

Orta səviyyə. Sağlam həyat tərzinin bəzi xüsusiyyətlərini qeyd edir. Əvvəllər təqdim edilmiş cavablara əsaslanaraq aşkar faktları interpretasiya edir, ayrı-ayrı hadisə və faktları qiymətləndirir, düzgün qidalanmanın tək-tək xüsusiyyətlərini qeyd edir, hər bir uşağın həyatında vitaminlərin rolu haqqında informasiyaya müraciət etməklə sadə izahlar verir. Qrupda iş zamanı iştirakçıların nümunələri ilə bağlı tək-tək əlavələr səsləndirir.

Aşağı səviyyə. Mətndən sağlam həyat tərzi, düzgün və balanslaşdırılmış qidanın əhəmiyyəti haqqında aşkar şəkildə ifadə olunan, asanlıqla lokallaşdırılan informasiyanı oxuyur, hazır informasiyanı tapır və götürür.

Qeyd. *Dərsin sonunda müəllim şagirdlərə növbəti dərsdə «Mən yay tətilini necə keçirdim?» mövzusunda təqdimatın hazırlanmasına dair informasiya verir. Müəllim iş vərəqləri səhifə 9-dakı 3-cü tapşırığa müvafiq olaraq hazırlayır. Öz fikirlərini təsvir etdiyi hazır iş vərəqini nümunə göstərir. Simvollar (smayliklər), leybl, şəkil, fotoşəkillərin olması alqışlanır. «Mən yay tətilini necə keçirdim?» mövzusunda iş vərəqinin təqdimatının nümunəsi. Təqdimat «Yardım lövhəsi» stendindən asılır.*

Yay ərzində yerinə yetirilmiş iş		**Oxuduğum kitablar**	**Ziyarət etdiyim yerlər. Mənim təəssüratlarım**
Yerinə yetirilmiş iş Yay ərzində mən yeni tədris metodları haqqında çoxlu ədəbiyyat oxumuşam. İşimin məqsədi: 1. Səriştəmi artırmaq 2. Sizin tədrisinizi maraqlı etmək	**İşin nəticələri** 1. «Yardım lövhəsi» stendi (müəllim şagirdlərin müstəqil iş üçün bütün zəruri informasiyanı tapa biləcəkləri yeni «Yardım lövhəsi» stendi haqqında danışır).	1. İbtidai məktəbdə tədris metodları (müəllim uşaqlara «Yardım lövhəsi» tablosunu nümayiş etdirir). 	Quba rayonunda yerləşən Xınalıq kəndi. Mən özümü orta əsrlərdə hiss etdim.

Yay ərzində yerinə yetirilmiş iş		**Oxuduğum kitablar**	**Ziyarət etdiyim yerlər. Mənim təəssüratlarım**
Jül Vernin «Kapitan Qrantın uşaqları» romanını təkrar oxudum. Qızıma yayda bu əsəri oxumaq və oxunulmuş kitabla bağlı fikirlərini ifadə etmək tapşırığı verilmişdi. Məqsəd: Qızımla daha çox ünsiyyətdə olmaq.	Bu stend haqqında biz növbəti dərsdə danışacağıq. 	2. Jül Vernin «Kapitan Qrantın uşaqları» romanı. Əsəri oxuduqdan sonra biz uzun müddət müzakirə etmiş və fikir mübadiləsi aparmışıq (müəllim şagirdlərə oxunmuş kitabları öz valideynləri, qardaş və bacıları, sinif yoldaşları ilə müzakirə etməyi təklif edir).	Təbii Göygöl qoruğu. Gölün gözəlliyi məndə güclü təəssürat yaratdı və bu cür möcüzənin mənim ölkəmdə olmasından sonsuz qürur duydum! 

Mövzu 2	**Yenidən məktəbdə (2-ci dərs)**
Standart	2.1.3. Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır.
Təlim məqsədi	Uşağın əsas vəzifələri haqqında biliklərini təqdim edir.
İnteqrasiya	İnf. 2.2.2.
Təlim forması	Fərdi iş, kollektiv iş
Təlim üsulu	Klaster, «Beyin həmləsi», müzakirə
Resurslar	Dərslik, slaydlar: «Bizim vəzifələrimiz»

Dərsin gedişi

Motivasiya. Dərs zamanı yetişdi! Biz dərsə getməliyikmi? Yoxsa seçim edə bilərik: oxuyaq, yoxsa oxumayaq?! (Oxumaq vacibdir). Uşaqlar hansı məsuliyyətləri daşıyır? (Uşaqlar istənilən nümunələr göstərə bilərlər. Onları dayandırmaq və ya səhvlərini düzəltmək tövsiyə edilmir).

Tədqiqat sualı. Uşağın üzərinə hansı vəzifələr düşür?

Tədqiqatın aparılması. Uşaqların vəzifələri haqqında dərslikdəki məlumatlar oxunur.

Müəllim «Uşaqların hüquqları və vəzifələri» mövzusunda əvvəlcədən hazırlanan bir təqdimat edir. Uşaqlar dərslikdəki mətndən istifadə edərək təqdimat suallarını cavablandırırlar.

Nəticələrin çıxarılması və ümumiləşdirmə. Müəllim uşaqlarla birlikdə tədqiqat sualını təkrarlayır. Dərsin bu mərhələsində klaster tətbiq etmək olar.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 2	**Uşaq hüquqları (1-ci dərs)**
Standart	2.4.2. Öz hüquqlarını uşaq hüquqları haqqında müvafiq sənədlər baxımından şərh edir.
Təlim məqsədi	1. Özünün ailədəki hüquqlarını şərh edir. 2. Hüquqlarının təmin edilməsində ailənin rolunu şərh edir.
İnteqrasiya	İnf. 2.2.2.; F.t. 4.1.3.
Təlim forması	Fərdi iş, cütlərlə iş, kollektiv iş
Təlim üsulu	«Beyin həmləsi», müzakirə, «Nağılı dəyiş» oyunu
Resurslar	Dərslik, uşaq hüquqlarının təsvir olunduğu kartlar, dərsliyin tapşırıqları ilə iş üçün rəngli kartlar

Dərsin gedişi

Dərsdən bir həftə öncə müəllim uşaqlara H.K.Andersenin «Kibritsatan qız» nağılını oxumağı təklif edir. (Siz uşaq hüquqlarının pozulmasını əks etdirən istədiyiniz hekayəni, yaxud filmi təklif edə bilərsiniz.)

Motivasiya. Nağılı oxumuş uşaqlara personajlar haqqında nə düşündüklərini qeyd etməyi təklif edin. Hər bir cavabdan sonra uşaqları «Bu nağılda düzgün olmayan nə isə varmı?» sualını vermək üçün saxlayın. Bütün uşaqlar söhbətin insan hüquqlarından getdiyini başa düşən kimi müəllim informasiyanın toplanmasına keçir.

Tədqiqat sualı. Ailədə uşaqların hansı hüquqları vardır?

Tədqiqatın aparılması. Müəllim işi uşaq hüquqları və vəzifələri haqqında mövcud biliklərə dair «beyin həmləsi» aparılmasından, şagirdlərin «hüquq» anlayışı ilə nə dərəcədə tanış olmasından başlayır və ya əvvəllər öyrəndiklərini xatırladaraq, bu anlayışla bağlı sorğu keçirir. Uşaqların emosional vəziyyətinə diqqət yetirilir.

Aşağıdakı suallar verilir:

1. Hekayə nə dərəcədə sizin xoşunuza gəldi?
2. «Nağılı dəyiş» oyununu təklif edin. Şagirdlər nağılda dəyişikliklər edəcəklər. Bu dəyişikliklərin mahiyyəti, əsasən, qızın hüquqlarının bərpasına yönəlmiş olacaqdır.
3. Özünü cəmiyyətin tam dəyərli üzvü hiss etməsi üçün insana nə lazımdır?
4. Qızın hüquqlarının pozulduğunu başa düşdükdə nə hiss etdiniz?

Şagirdlərdən nümunə gətirmək xahiş edilir. Müəllim öz hissləri haqqında danışaraq, bununla parlaq mərhəmət nümunəsi göstərə bilər.

Müəllim şagirdlərə uşaq hüquqlarını təsvir edən şəkilləri paylayır və şagirdlərlə birlikdə müzakirə aparır.

1. Qızın hekayəsində hansı insan hüquqlarına toxunulur?
2. Qızın hüquqlarının pozulmasına müvafiq olan şəkilləri qaldırın.

Müəllim uşaqlara qızın hüquqlarının pozulmasını xarakterizə etməyi təklif edir. Daha sonra şəkillərə baxmağı və uşaq hüquqlarını sadalamağı təklif edir:

– Uşağın təhsil hüquqlarının pozulduğu kartları qaldırın.

Biz işləmək yox, öyrənmək istəyirik.

Şagirdlər müvafiq kartları göstərirlər. Ayrı-ayrı kartlar üzrə sorğu keçirilir:

– Bu kartdakı təsvirin bizə hansı hüquqlardan xəbər verdiyini qeyd etməniz xahiş olunur. (Tibbi yardım hüququ.)

Nəticələrin çıxarılması və ümumiləşdirmə. Dərsliyin 14-cü səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir. Müəllim hazır paylanan materialı – cızılmış zəncir üzərində A5 formatında vərəqləri paylayır.

Qeyd 1. *Hazır material hazırlanma vaxtını azaldaraq tapşırığın yerinə yetirilməsi vaxtını artırır. Şagirdlər tapşırığı vərəqlərdə yerinə yetirirlər.*

Qeyd 2. *Müəllim «Yardım lövhəsi»nə paylama materialı (Uşaq Hüquqları haqqında Konvensiyanın müddəalarını əks etdirən kartlar), çətinlik olduqda şagirdlərin istifadə edə bilməsi üçün uşaq hüquqlarının təsvir edildiyi şəkillərin əks olunduğu kartları bərkidir. Şagirdlərə xatırlatmaq lazımdır ki, onlar danışmadan sakitcə yerlərindən qalxa və kömək üçün yaxınlaşa bilərlər.*

Məsələn:



Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 2	**Uşaq hüquqları (2-ci dərs)**
Standart	2.4.2. Öz hüquqlarını uşaq hüquqları haqqında müvafiq sənədlər baxımından şərh edir.
Təlim məqsədi	Öz hüquqlarını Uşaq Hüquqları haqqında Konvensiya, «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu baxımından şərh edir.
İnteqrasiya	İnf. 2.2.2.; F.t. 4.1.3.
Təlim forması	Fərdi iş, qruplarla iş
Təlim üsulu	«Kaskad modeli»
Resurslar	Paylama materialı: Uşaq Hüquqları haqqında Konvensiyanın müddəalarını əks etdirən kartlar (əlavə olunur).

Dərsin gedişi

Motivasiya. Elektron resurslar olduğu halda müəllim «Dostluq himni» (*https://www.youtube.com/watch?v=hFQg14wgQT0*) mahnısını qoyur, olmadığı halda mahnının yazısını daşınan maqnitofonda qoymaq olar. Yuxarıda sadalanan resursları olmadığı halda müəllim mahnının sözlərini (1-ci bənd və nəqərat) şagirdlərə paylayır və onlarla birlikdə oxuyur. Şagirdlər «Dostluq himni»ni dinləyirlər. Müəllim:

– Xoşunuza gəldi?

– Dostluğu qoruyub saxlamaq, sülh və dinclik şəraitində yaşamaq üçün bizə bu kartlar lazımdır.

Müəllim paylama materialını (Uşaq Hüquqları haqqında Konvensiyanın maddələri) və ya «Ümumdünya insan hüquqları bəyannaməsi»nin müddəalarının surətlərini şagirdlərə paylayır.

Qeyd. *Hər bir müəllim öz sinfinin səviyyəsinə uyğun paylama materialında verilmiş maddələri şagirdlərə sadələşdirilmiş formada verə bilər.*

Tədqiqat sualı. Cəmiyyətdə uşaqların hansı hüquqları var?

Tədqiqatın aparılması. Müəllim:

– Uşaq hüquqlarını bir daha xatırlayaq.

Şagirdlər şəkildə gördükləri uşaq hüquqlarının adını çəkirlər.

Müəllim cavabları beynəlxalq sənədə yönəltməklə uşaqlara kömək edir və valideynlərin uşağın qayğısına qalmadığını göstərən kartları göstərir.

– Valideynlər bu və ya digər səbəbdən uşağın qayğısına qala bilmədikləri halda bu məsuliyyəti öz üzərinə kim götürür? İnsan hüquqlarını hansı təşkilatlar müdafiə edir?

Suallar əsasında müzakirələr təşkil edilir. Müəllim uşaqları dövlətin insan hüquqlarının müdafiəsində rolu haqqında düzgün cavaba yönəldir. Vurğulamaq lazımdır ki, 3-cü sinifdə şagirdlər həmçinin insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq təşkilatlar haqqında informasiya alıblar.

Şagirdlər insan hüquqlarının müdafiəsi ilə bağlı onlara məlum olan təşkilatları sadalayırlar.

Şagirdlərin mümkün cavabları: Birləşmiş Millətlər Təşkilatı (BMT), UNESCO, UNICEF, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və sair.

Nəticələrin çıxarılması və ümumiləşdirmə. 4 qrup formalaşdırılır. Hər bir qrup vatman, A3 formatlı vərəqlər, yaxud albom vərəqləri alır.

«Kaskad modeli»ni təklif etmək olar.



Aşağıdakı əsas uşaq hüquqlarını lövhədə yazın və ya elektron lövhənin ekranına çıxarın:
I qrup – İnkişaf və təhsil hüququ
II qrup – Müdafiə hüququ
III qrup – İctimai fəaliyyət hüququ
IV qrup – Həyat və qayğı hüququ

5 dəqiqə ərzində hər bir qrup təklif olunmuş anlayışı açıqlayır. Qrup tərəfindən seçilmiş nümayəndə cavab verir. Öz çıxışında o, bu və ya digər cavabları təklif edən qrup iştirakçılarının adlarını çəkir.

Qeyd. *Müəllim uşaqları əvvəlcədən qrup şəklində iş zamanı hər bir növbəti çıxışda şagirdlərin yeni qrup nümayəndəsi seçməsi haqqında xəbərdar edir.*

Modeldə uşaqların digər cavabları təqdim edilə bilər, lakin müəllim şagirdləri əsas müddəalara istiqamətləndirir. Elektron resurslardan istifadə etmək imkan olduğu halda bu istinaddan istifadə edilir: *https://www.youtube.com/watch?v=hesd5aITJMI*.

Dərsliyin 14-cü səhifəsindəki 1, 2 və 4-cü tapşırıqlardan istifadə edilir. Müəllim uşaqlara suallar və cavabları oxumağı təklif edir. Yaşıl (və ya sarı) düzgün, qırmızı (və ya göy) səhv cavabı bildirir. Tanışlıqdan sonra sual verilir: «a» cavabı, «b» cavabı və ya «c» cavabını kim düzgün hesab edir? Səhv cavab vermiş şagirdlər əlavə tapşırıqlar alırlar.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. İnformasiyanı tam qəbul edir və eyni zamanda ayrı-ayrı anlayışları qarşılıqlı əlaqədə başa düşür; öz fikrini əsaslandırmaq üçün mətnə istinad edir. İnsan hüquqları haqqında sənədin, xüsusi olaraq, insan hüquqları haqqında konvensiyanın ümumi müddəalarının başa düşülməsi üçün hər bir hüququn detallarını əlaqələndirir. Uşaqların hüquq və vəzifələrini fərqləndirir. Qəhrəmanların hissləri, motivləri, məqsədləri və xarakterinin xüsusiyyətlərinin başa düşülməsi üçün hadisələr və onların hərəkətlərini xarakterizə edir. Kartları nəzərdən keçirir, mürəkkəb informasiyanı müəyyən edir, faktlar şəklində ardıcıllıq qurur. Təklif olunmuş anlayışların tərkib komponentlərini təsvir edir (qrupda iş), onların əhəmiyyətini əsaslandırır.

Yüksək səviyyə. Mühüm məlumatları başa düşür, müəllim tərəfindən yönəltmələrə əsaslanaraq şəxsi mövqelərini qurur, istər tədqiqat sualının məzmunu, istərsə də işin gedişatını qiymətləndirir, müəllimin mümkün əlavələrinə diqqət yetirir, beynəlxalq təşkilatlara dair bəzi faktlar və uşaq hüquqlarından xəbər verən sənədlərin detallarını əlaqələndirir. Uşaqların hüquq və vəzifələrini fərqləndirir. Öz fikrini əsaslandırmaq üçün mətndən informasiyanı tapır və interpretasiya edir, müəllimin köməyi ilə verbal və vizual informasiyanı əlaqələndirir.

Orta səviyyə. Bəzi insan hüquqları və vəzifələrini qeyd edir. Əvvəllər təqdim edilmiş cavablara əsaslanaraq aşkar faktları interpretasiya edir, ayrı-ayrı hadisə və faktları qiymətləndirir, insan hüquqlarının müdafiəsi üzrə tək-tək təşkilatların adını çəkir, cəmiyyətin həyatında dövlətin rolu haqqında informasiyaya müraciət etməklə sadə izahlar verir. Qrupda iş zamanı iştirakçıların nümunələri ilə bağlı tək-tək əlavələr səsləndirir.

Aşağı səviyyə. Mətndən uşaqların hüquqları və dövlətin müdafiəsi haqqında aşkar şəkildə ifadə olunan və asanlıqla lokallaşdırılan informasiyanı oxuyur, qruplarda iş zamanı hazır informasiyanı tapır və götürür, uşaqların hüquq və vəzifələri haqqında tək-tək nümunələr gətirir.

Müəllimin portfoliosu. Müəllimin portfoliosuna bu paylama materialı əlavə edilir: uşaq hüquqlarının təsvir olunduğu kartlar, dərslikdəki tapşırıqlarla iş üçün rəngli kartlar, insan hüquqları haqqında konvensiyanın müddəalarını əks etdirən vərəqlərin kserosurətləri.

Paylama materialları

Uşaq Hüquqları haqqında Konvensiya (maddələr)			
Maddə 3 İştirakçı dövlətlər uşağın valideynlərinin hüquq və vəzifələrini nəzərə alaraq, uşağı onun rifahı üçün zəruri olan müdafiə və qayğı ilə təmin etməyi öhdələrinə götürür və bu məqsədlə bütün qanunvericilik tədbirlərini, inzibati tədbirləri görürlər.	**Maddə 6** Hər bir uşağın yaşamaq üçün ayrılmaz hüququ vardır.	**Maddə 7** Uşaq doğulduqdan sonra dərhal qeydə alınır və doğulduğu andan ad və vətəndaşlıq əldə etmək hüququna, habelə mümkün olduğu dərəcədə öz valideynlərini tanımaq və onlardan qayğı görmək hüququna malikdir.	**Maddə 9** İştirakçı dövlətlər təmin edirlər ki, uşaq və valideynləri onların arzusuna zidd olaraq ayrı düşməsinlər.
Maddə 12 İştirakçı dövlətlər öz baxışlarını formalaşdırmağa qadir olan uşağı özünə aid bütün məsələlər barəsində həmin baxışları sərbəst ifadə etmək hüququ ilə təmin edirlər, həm də uşağın baxışlarına onun yaşına və yetkinliyinə uyğun lazımi diqqət yetirilir.	**Maddə 13** Uşağın öz fikrini sərbəst ifadə etmək hüququ vardır, bu hüquqa sərhədlərdən asılı olmayaraq, hər cür informasiyanı və ideyaları şifahi, yazılı və ya çap edilmiş formada, istədiyi digər vasitələrin köməyi ilə almaq və ötürmək azadlığı daxildir.	**Maddə 14** İştirakçı dövlətlər uşağın fikir, vicdan və din azadlığına, valideynlərin və müvafiq hallarda qanuni qəyyumların uşağın hüququnun həyata keçirilməsində uşağa onun inkişaf etməkdə olan qabiliyyəti ilə uzlaşan metodlarla rəhbərlik etmək hüquqlarına və vəzifələrinə hörmət bəsləyirlər.	**Maddə 15** İştirakçı dövlətlər uşağın birləşmək azadlığını və dinc toplaşmaq azadlığını tanıyırlar.
Maddə 16 Heç bir uşaq onun şəxsi həyat, ailə həyatı, mənzil toxunulmazlığı və ya yazışma sirri hüququnun həyata keçirilməsinə özbaşına, yaxud qanunsuz müdaxilə və ya şərəf və nüfuzuna qanunsuz qəsd obyekti ola bilməz.	**Maddə 18** İştirakçı dövlətlər uşağın tərbiyəsi və inkişafı üçün hər iki valideynin ümumi və eyni məsuliyyət daşıması prinsipinin tanınmasını təmin etməkdən ötrü mümkün olan bütün səyləri göstərirlər. Uşağın tərbiyəsi və inkişafı üçün əsas məsuliyyəti valideynlər daşıyırlar. Uşağın ən yaxşı mənafeyi onların əsas qayğı obyektidir.	**Maddə 21** Övladlığa götürmə sistemini qəbul edən və/və ya onun mövcudluğuna icazə verən iştirakçı dövlətlər uşağın ən yaxşı mənafeyinin ilk növbədə nəzərə alınmasını təmin edirlər.	**Maddə 24** İştirakçı dövlətlər uşağın ən mükəmməl səhiyyə sistemi xidmətlərindən, xəstəliklərin müalicəsi və sağlamlığın bərpası vasitələrindən istifadə etmək hüququnu təsdiq edirlər. İştirakçı dövlətlər təmin etməyə çalışırlar ki, heç bir uşaq səhiyyə sisteminin belə xidmətlərindən istifadə etmək hüququndan məhrum olmasın.
Maddə 27 1. İştirakçı dövlətlər hər bir uşağın fiziki, əqli, ruhi, mənəvi və sosial inkişafı üçün lazım olan həyat səviyyəsinə malik olmaq hüququnu təsdiq edirlər. 2. Valideyn(lər) və ya uşağı tərbiyə edən digər şəxslər uşağın inkişafı üçün lazım olan həyat şəraitini öz qabiliyyətləri və maliyyə imkanları daxilində təmin etməyə görə əsas məsuliyyəti daşıyırlar.	**Maddə 28** İştirakçı dövlətlər uşağın pulsuz və icbari ibtidai təhsilini tətbiq edir, orta təhsilin bütün uşaqlar üçün mümkün olmasını təmin edir, pulsuz təhsilin tətbiqi və lazım gəldikdə maliyyə yardımı göstərilməsi kimi zəruri tədbirlər görür, bütün lazımi vasitələrin köməyi ilə ali təhsilin hər kəsin bacarığı əsasında hamı üçün mümkün olmasını təmin edirlər.	**Maddə 30** Etnik, dini və ya dil azlıqlarının və ya yerli əhali sırasından olan şəxslərin yaşadıqları dövlətlərdə belə azlıqlara və ya yerli əhaliyə mənsub olan uşaq öz qrupunun digər üzvləri ilə birlikdə öz mədəniyyətindən, öz dininə etiqad etmək və onun ayinlərini yerinə yetirmək, habelə ana dilindən istifadə etmək hüququndan məhrum edilə bilməz.	**Maddə 40** İştirakçı dövlətlər cinayət qanunvericiliyini pozmuş hesab edilən, onu pozmaqda təqsirləndirilən və ya təqsirli sayılan hər bir uşağın onunla elə bir rəftar hüququnu tanıyırlar ki, belə rəftar uşaqda ləyaqət və mənlik hisslərinin inkişafına kömək edir, insan hüquqlarına və başqalarının əsas azadlıqlarına hörmət hissini möhkəmləndirir.

MÜƏLLİM ÜÇÜN İNFORMASİYA

Birləşmiş Millətlər Təşkilatı (BMT) – beynəlxalq sülhü və təhlükəsizliyi qoruyur və möhkəmləndirir, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirir.

UNESCO – irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, təhsil, elm və mədəniyyət dövlətlər və xalqların təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirilmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə yardım edir.

UNICEF – planetin bütün uşaqları üçün dinc həyatı təmin edir.

Beynəlxalq Əmək Təşkilatı (BƏT) – əmək və həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğun stimullaşdırılması, işçi qüvvəsinin potensialının açılması, sosial institutların inkişaf etdirilməsini təmin edir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) – dövlətlərin səhiyyə təşkilatlarının beynəlxalq əlaqələrini təmin edir, dünya əhalisinin sağlamlığı ilə əlaqədar problemlərin həllinə çalışır.

Avropa İnsan Hüquqları Məhkəməsi – Avropa cəmiyyətinin əsas hüquqi institutudur. Cəmiyyət üzvləri və xüsusi şəxslərin tərəf kimi çıxış edə biləcəyi mübahisələrə baxır.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) – silahlanmaya nəzarət, münaqişələrin dinc yolla tənzimlənməsini, insan hüquqlarının müdafiəsini, seçkilərin keçirilməsinə nəzarəti, iqtisadi və ekoloji təhlükəsizliyi təmin edir.

Sərhədsiz həkimlər – silahlı münaqışələr və təbii fəlakətlər nəticəsində zərər görmüş şəxslərə tibbi yardım göstərilməsi məqsədi daşıyır.

Mövzu 3	**Dövlət orqanları (1-ci dərs)**
Standart	2.3.1 Dövlət orqanlarının funksiyalarını izah edir.
Təlim məqsədi	Dövlət orqanlarının funksiyalarını izah edir.
İnteqrasiya	İnf. 4.1.3.; X.d. 2.2.2.
Təlim forması	Fərdi iş, cütlərlə iş və ya qrup şəklində iş
Təlim üsulu	İzahedici-illüstrativ, problem-axtarış, konkret hadisənin araşdırılması (situativ praktikum)
Resurslar	Təqdimat üçün kağız və qələm, paylama materialı – vəziyyətləri göstərən kartlar, dövlət orqanlarının simvollarının təsviri ilə kartlar, «Azərbaycan dövlət orqanlarının simvolları» elektron təqdimatı.

Dərsin gedişi

Motivasiya. Müəllim bir neçə vəziyyəti təqdim edir.

Vəziyyət 1. Bütün uşaqlara seçim imkanı verilir: məktəbə gəlmək və ya gəlməmək. Uşaqlar təhsil ala, inkişaf edə, peşəyə yiyələnə və ya təhsil almaya, sərbəst vaxt keçirə bilərlər. Bu prosesi heç kəs tənzimləmir.

Vəziyyət 2. Bütün tibb müəssisələri ödənişli olub. Xəstəxanalar iş və istirahət vaxtını özləri müəyyən edir, hansı saatda uşaqları və hansı saatda böyükləri qəbul etməklə bağlı özləri qərar verirlər.

Vəziyyət 3. Məhdud imkanlı uşaqların cəmiyyətin həyatında iştirakını mümkün qədər çox dəstəkləmək qərara alınmışdır. Onların iştirakı üçün maneələri aradan qaldırmaq və uşaqlara tələb oluna biləcək istənilən yardımı, məsələn, əlil arabaları, eşitmə aparatları, korlar üçün kitablar təqdim etmək lazımdır. Lakin bütün ölkə boyu uşaqların hamısının zəruri yardım almasını necə təmin etməyi heç kəs bilmir.

Vəziyyət 4. Sürücülər yollarda hərəkətlə bağlı özləri qərar verirlər. Maşınlar nizamsız hərəkət edir. Piyadaların hərəkət prosesini heç kəs tənzimləmir. Yol hərəkəti qaydalarına riayət edilmir.

Qeyd. *Müəllim özü vəziyyət yarada və ya təklif olunan vəziyyətlərdən birini seçə bilər. Ən əsası vəziyyətin dövlət orqanları tərəfindən tənzimlənməsinə yönəldilməsidir.*

Tədqiqat sualı. Bu vəziyyətləri kim və necə tənzimləyir?

Tədqiqatın aparılması. Suallar əsasında müzakirələr təşkil edilir.

– Bir neçə ay, ildən sonra nə baş verərdi?

– Bütün tibb, təhsil və digər dövlət müəssisələrinin vahid qayda və tələblər üzrə işləməsi üçün nə lazımdır?

– Məhdud imkanlı uşaqların digər uşaqlarla təhsil alması nə dərəcədə mümkündür? Bu uşaqları zəruri olan hər bir şeylə necə təmin etmək olar?

Müəllim uşaqları 4 nəfər olmaqla qruplara və ya cütlərə bölür.

Qeyd. *Müəllim qruplara bölürsə, qrup iştirakçılarını dəyişmək olmaz, çünki əvvəlki dərslərdə növbəti çıxışda qrupu müxtəlif iştirakçıların təmsil edəcəyi qərara alınmışdır. Bu metod hər bir şagirdin bərabər iştirakını təmin edir.*

Tədqiqat işinin gedişi.

1. Cütlər və ya qruplara vəziyyəti əks etdirən kartlar paylanır. 3–5 dəqiqə ərzində vəziyyətlərdən hər biri üzrə nəticələr kaskadı düşünüb tapmaq təklif olunur.
2. Tədqiqat sualları lövhədə yazılır və ya elektron resurslar olduğu halda multimedia təminatının köməyi ilə lövhədə işıqlandırılır.
3. Qrup iştirakçıları və ya cüt nümayəndələrinin çıxışları reqlamentləşdirilir. Bütün iştirakçılara cavab üçün minimal vaxt ayrılır.
4. Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və lövhədə cədvəli vəziyyətlərin sayına bölərək lövhəyə yazır.
5. Hər bir ümumiləşdirmə nəzarətin həyata keçirilməsi üçün qanunlar, fərmanlar və sərəncamların yerinə yetirilməsini təmin edəcək vahid strukturun zəruri olmasına dair nəticəyə gətirilib çıxarılır.

Dövlət orqanlarının simvolları

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

asan xidmət

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

DÖVLƏT İMTAHAN MƏRKƏZİ

Şagirdlər müxtəlif təşkilatların adlarını çəkə bilərlər, müəllim isə öz növbəsində onları anlayışlar üzrə istiqamətləndirir: Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, hüquq-mühafizə orqanları, Dövlət Sosial Müdafiə Fondu.

Mətnlə iş. Müəllim dərsliyin mətnini oxumağı və dövlət orqanlarının adlarını qeyd etməyi təklif edir.

Nəticələrin çıxarılması və ümumiləşdirmə. Fərdi sorğu. Müəllim üzərində dövlət orqanlarının təsviri olan simvolları göstərir və şagirdlərdən onların əsas funksiyalarını səsləndirməyi xahiş edir. Sual qrup nümayəndəsi kimi çıxış etməyən şagirdlərə verilir. Materialın möhkəmləndirilməsi üçün 18-ci səhifədəki 4-cü tapşırıq yerinə yetirilir.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 3	Dövlət orqanları (2-ci dərs)
Standart	2.3.1 Dövlət orqanlarının funksiyalarını izah edir.
Təlim məqsədi	1. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını izah edir.
İnteqrasiya	İnf. 4.1.3.; X.d. 2.2.2.
Təlim forması	Fərdi iş, cütlərlə iş və ya qrup şəklində iş
Təlim üsulu	Problem-axtarış, konkret hadisənin araşdırılması (situativ praktikum)
Resurslar	Dərslik, «dondurma çubuqları», dövlət orqanlarının təsvirləri, «Dövlət orqanları» elektron təqdimatı (elektron resurslar olduğu halda)

Dərsin gedişi

Motivasiya. Müəllim:

– Bu gün Orxanın anası çox həyəcanlı idi. O, ev işlərini görməli, pasport almalı, şəkil çəkdirməli, sənədləri ingilis dilinə tərcümə etdirməli və onları notariusda təsdiq etdirməli idi. Bundan başqa, kommunal xərcləri ödəmək lazım idi və hələ kiçik qızı da sirkə bilet almağı xahiş etmişdi. Orxanın anası çaşıb qalmışdı ki, bütün bunları bir gün ərzində necə edəcək. Bu zaman ata köməyə gəldi. O dedi: «Tələsmə. Rahat ev işlərini gör. İndi biz səninlə bütün bu problemləri dərhal həll edəcək bir təşkilata gedəcəyik».

Tədqiqat sualı. Dövlət orqanları hansı funksiyaları yerinə yetirir?

Tədqiqatın aparılması. Üzərində uşaqların adları olan çubuqların köməyi ilə fərdi sorğu keçirilir. Sorğudan sonra hər bir cütə üzərində dövlət təşkilatının təsviri olan şəkil verilir. Hər bir cüt dialoq tərtib edir. Cüt iştirakçılarından biri həmin təşkilatın işçisinə xahiş, şikayət, təkliflə müraciət edir, digər iştirakçı – təşkilat işçisi isə ona kömək etməyə cəhd edir. Fərdi sorğuda iştirak etməyən cütlər çıxış edir.

Qeyd. *Müəllim hər bir şagirdin diqqətini dövlət orqanlarının adlarına cəmləməlidir. Tapşırıq 2-də, fərdi sorğuda olduğu kimi, əvvəllər şagirdlərə tanış olmayan simvollar təqdim edilir. Bu şərt dövlət orqanlarının funksiyalarının onların adından çıxış edərək müstəqil şəkildə müəyyən edilməsi üçün zəruridir.*

Dialoqun nümunəsi.

– Salam. Mənə şəxsiyyət vəsiqəsi almaq lazımdır.

– Salam. Şəxsiyyət vəsiqəsi almazdan öncə siz fotoşəkil çəkdirməli və zəruri blankları doldurmalısınız.

– Fotoşəkli harada çəkdirmək olar? Fotoşəkil necə olmalıdır?

– Siz istənilən müəssisədə fotoşəkil çəkdirə bilərsiniz, amma mən sizə fotoşəkli bizdə çəkdirməyi təklif edirəm, çünki bizim xidmət «asan xidmət» adlanır və biz vətəndaşların rahatlığı üçün hər cür şərait yaradırıq.

– Bu cür rahat xidmətin yaradılmasına görə cənab Prezidentə təşəkkür edirik.

Nəticələrin çıxarılması və ümumiləşdirmə. 18-ci səhifədəki 4-cü tapşırığın yerinə yetirilməsinin davam etdirilməsi təklif olunur.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. İnformasiyanı tam qəbul edir və eyni zamanda ayrı-ayrı anlayışları qarşılıqlı əlaqədə başa düşür; öz fikrini əsaslandırmaq üçün mətnə istinad edir. Hər bir simvolun detallarını

əlaqələndirir və istər dərsliyin mətnində, istərsə də kartlarla iş zamanı sadalanmış dövlət orqanlarının funksiyalarını əsaslandırır. Təqdim edilmiş vəziyyətdən düzgün çıxışı müəyyən edir, hadisələr və hərəkətləri xarakterizə edir, motivləri, məqsədləri qeyd edir. Kartları nəzərdən keçirir, mürəkkəb informasiyanı müəyyən edir, faktlar şəklində ardıcıllıq qurur. Təklif olunmuş anlayışların tərkib komponentlərini təsvir edir (qrupda iş), onların əhəmiyyətini əsaslandırır.

Yüksək səviyyə. Mühüm məlumatları başa düşür, müəllim tərəfindən yönəltmələrə əsaslanaraq şəxsi mövqelərini qurur, istər tədqiqat sualının məzmunu, istərsə də işin gedişatını qiymətləndirir, müəllimin mümkün əlavələrinə diqqət yetirir, hadisə və faktlar arasında əlaqəni müəyyən edir, dövlət orqanları və onların funksiyalarına dair bəzi faktların detallarını əlaqələndirir. Dövlət orqanlarının simvollarını fərqləndirir. Öz fikrini əsaslandırmaq üçün mətndən informasiyanı tapır və interpretasiya edir, müəllimin köməyi ilə mətndə adı çəkilməyən dövlət orqanlarının funksiyalarını göstərir (möhkəmləndirmə üçün tapşırıq), verbal və vizual informasiyanı əlaqələndirir.

Orta səviyyə. Bəzi dövlət hakimiyyəti orqanlarının adlarını qeyd edir. Əvvəllər təqdim edilmiş cavablara əsaslanaraq aşkar faktları interpretasiya edir, ayrı-ayrı hadisə və faktları qiymətləndirir, dövlət təşkilatlarının tək-tək funksiyalarını göstərir, cəmiyyətin həyatında dövlətin rolu haqqında informasiyaya müraciət etməklə sadə izahlar verir. Qrupda iş zamanı iştirakçıların nümunələri ilə bağlı tək-tək əlavələr səsləndirir, verbal və vizual informasiyanı qismən əlaqələndirir.

Aşağı səviyyə. Mətndən dövlət orqanları, onların simvolları haqqında aşkar şəkildə ifadə olunan və asanlıqla lokallaşdırılan informasiyanı oxuyur, qruplarda iş zamanı hazır informasiyanı tapır və götürür, dövlət təşkilatlarının funksiyaları haqqında tək-tək nümunələr gətirir.

Müəllimin portfoliosu. Müəllimin portfoliosuna bu paylama materialı əlavə edilir: vəziyyətlərin təsvir olunduğu kartlar, Azərbaycanın dövlət orqanlarının simvollarının təsvir edildiyi kartlar, «Azərbaycanın dövlət orqanları» elektron təqdimatı.

Mövzu 4	**Dövlət büdcəsi. Vergi (1-ci dərs)**
Standart	2.2.2. «Vergi», «Dövlət büdcəsi» və «Sığorta» anlayışlarını sadə şəkildə izah edir.
Təlim məqsədi	«Dövlət büdcəsi» anlayışını və onun xərclənmə istiqamətlərini sadə şəkildə izah edir.
İnteqrasiya	Riy. 5.1.2.; İnf. 1.2.1.
Təlim forması	Cütlərlə iş, qruplarla iş
Təlim üsulu	Problem-axtarış, keyslər metodu
Resurslar	Vəziyyətləri təsvir edən kartlar, «problemli vəziyyətin mərhələləri» yaddaş kitabçası, ensiklopedik lüğət

Qeyd. *Keyslər metodu – mürəkkəb problemlərin həlli metodlarından biridir və şagirdlər tərəfindən öz yaradıcılıq potensialının tətbiqini nəzərdə tutur. Bu metod üçün aktual problem və ya vəziyyətin, bu vəziyyətə cəlb olunmuş müəyyən şəxslərin olması xarakterikdir. Vəziyyətlə tanışlıq zamanı şagirdlər seçim etmək zərurəti qarşısında qalırlar. Şagirdlərin özlərini bu vəziyyətin mümkün iştirakçısı kimi hiss etmələri üçün gündəlik vəziyyətlərdən nümunə gətirmək arzuolunandır.*

Bu metodun istifadəsi zamanı müəllim bəzi mənbələri müəyyən edir: sosial həyat; tədris məqsəd və metodlarını müəyyən edən təhsil; səhiyyə və tibbi xidmət; mədəniyyət və incəsənət; hüquq-müdafiə strukturu; bədən tərbiyəsi və idman. Mənbələr dərs mövzusundan və təhsil fəaliyyətinin istiqamətinin seçimindən asılı olaraq dəyişə bilər.

Hazırlıq mərhələsi. Bir qayda olaraq, keyslər metodu hazırlıq mərhələsini ehtiva edir. Bu dərsdə hazırlıq mərhələsi şagirdlərə alınmış informasiyanı oxumağın təklif olunacağı motivasiyaya daxil ediləcək. Hazırlıq mərhələsində şagirdlər müəllim tərəfindən təqdim edilmiş vəziyyətin (keysin) mətnini tədqiq edir və ona aid olan zəruri tapşırıqları oxuyurlar.

Keysin gerçəkləşdirilməsi. Keysin konteksti (emosional, işgüzar) heç də həmişə mətnin birinci oxunuşundan problemli vəziyyəti aşkar etmir və şagirdləri başqa xarakterli problemin həllinə yönəldə bilər. Buna görə də keysin tərtib edilməsi zamanı müəllim yayındıran və ya yanlış problemləri istisna etməlidir.

Vəziyyətin diaqnostikası: Birinci hissədə müəllim şagirdlərə hadisənin real vəziyyətini təsvir etməyi təklif edir. İkinci hissədə yaranmış vəziyyətdən çıxış tapmaq üçün necə hərəkət edilməli olduğunu müəyyən edir. Üçüncü hissədə problemin real vəziyyəti və problemli vəziyyətdən çıxış üsulları müqayisə edilir. Şagirdlərə xatırlatmaq lazımdır ki, onların alternativ seçim imkanı var. Bu metoddan istifadə etməklə müəllim bir sıra vəzifələri həll edə bilər: şagirdlərdə motivasiya yaratmaq; şagirdlərdə öz mövqeyini müdafiə etmək bacarıqlarının formalaşdırılmasına yardım etmək; əqli qabiliyyətlər və məntiqi təfəkkürü stimullaşdırmaq; analiz aparmaq və mənimsənilmiş materialı təcrübədə yoxlamaq; deduktiv qabiliyyətlər formalaşdırmaq.

Nəticələrin müzakirəsi. Bu mərhələ sonuncudur. Qrup və ya cüt nümayəndələri öz mövqelərini ifadə edirlər. Bu mərhələdə müəllim passiv dinləyiciləri aktivləşdirir və aktiv nümayəndələri korreksiya edir. İştirakçıların istənilən çıxışında müəllim faktların əsaslandırılması zərurətini xatırladır.

Dərsin gedişi

Motivasiya. Müəllim bir neçə vəziyyəti təqdim edir.

Vəziyyət 1. Axşam bütün ailə üzvləri bir yerə toplaşıb. Ata ilə söhbət zamanı oğul ondan 3 yeni oyuncaq almağı xahiş edir. Qız anası ilə söhbət edir və qış tətilində, payız tətilində olduğu kimi, səyahətə getməyi təklif edir. Ata deyir, qış yaxınlaşır və avtomobilin şinlərini dəyişmək lazımdır, ana isə elan edir ki, 10 gündən sonra qohumları onlara gələcək. Nənə hamıya qulaq asır və deyir ki, bütün istəkləri yerinə yetirmək mümkün deyil.

Vəziyyətlə bağlı suallar:

1. Niyə görə nənə bütün istəklərin yerinə yetirilməsinin mümkün olmaması qərarına gəlir?
2. Sizin fikrinizcə, ilk növbədə nə etmək lazımdır?
3. Qalan istəkləri necə və nə vaxt yerinə yetirmək olar?
4. Ailə üzvləri ehtiyaclarını ödəmək üçün vəsaiti haradan götürməlidir?

Vəziyyət 2. Rayonlardan birində sakinlərin sayı artır. Tibbi yardım üçün müraciət edən insanların statistik göstəricisi artmağa başlayır. Tibbi personal hamıya zəruri yardım göstərmək üçün ikiqat qüvvə ilə işləyir. Hər bir palatada xəstələrin sayı artır. Xəstəxananın baş həkimi növbəti yoxlamanı həyata keçirərkən öz bloknotunda qeydlər edir.

Vəziyyətlə bağlı suallar:

1. Xəstəxananın baş həkimi hansı problemləri aşkar edib?
2. Niyə görə tibbi personal ikiqat qüvvə ilə işləyirdi?
3. Bu problemləri həll etmək üçün baş həkim nəyi bilməlidir?
4. Tibb müəssisəsi bütün xəstələrin ehtiyaclarını ödəmək üçün vəsaiti haradan götürəcək?

5. Bütün xəstələrin yerləşdirilməsi problemini həll etmək üçün baş həkim hara müraciət edə bilər? Bunun üçün nə lazımdır?

Vəziyyət 3. Müvafiq dövlət təşkilatlarına müxtəlif müəssisələrin müraciətləri daxil olur. Bəzi müraciətlərin nümunəsini gətirək.

1. Kənd məktəbinin binasında təmir aparmaq və yeni mebel almaq lazımdır.
2. Kəndlərdən birində çay daşqını nəticəsində bir neçə yaşayış evi yararsız vəziyyətə düşüb. Zədələri bərpa etmək lazımdır.
3. Torpaq sürüşməsi nəticəsində prospektlərdən birində yol zədələnib və nəqliyyat vasitələrinin hərəkəti qeyri-mümkündür.
4. 18 oktyabr tarixində bütün Azərbaycan vətəndaşları Azərbaycanın Müstəqillik Gününü qeyd edəcəklər. Bu tarixi təntənə ilə qeyd etmək lazımdır.

Vəziyyətlə bağlı suallar:

1. Bütün sadalanan vəziyyətlər vaxtında öz həllini tapmalıdırmı?
2. Bu problemləri həll etmək üçün hansı tədbirlər görülməlidir?
3. Müvafiq tədbirlərin görülməsi üçün dövlət orqanları nə etməlidirlər?
4. Bütün əhali və ölkənin ehtiyaclarını təmin etmək üçün vəsait haradan alınır və hara daxil olur?

Tədqiqat sualı. Dövlət orqanları funksiyalarını yerinə yetirmək üçün vəsaiti haradan əldə edirlər?

Tədqiqatın aparılması. Keyslər metodundan istifadə edilir. Şagirdlər cütlərə və ya qruplara bölünürlər. Təklif edilən vəziyyətlər artan nömrə üzrə çətinləşdirilir.

Şagirdlər üç səviyyə üzrə qruplaşdırılmalıdır: 1-ci vəziyyət – orta səviyyə, 2-ci vəziyyət – yüksək səviyyə və 3-cü vəziyyət – ali səviyyə.

Vatman, A3, yaxud A2 formatlı vərəqlərdə təsvir olunmuş problemli vəziyyətlər təklif olunur. İş cüt şəkildə aparıldığı halda A4 formatlı kağız vermək kifayətdir. Verilmiş resurslara «Problemli vəziyyətin mərhələləri» yaddaş kitabçası yapışdırılır. Müəllim tədris metoduna əsasən prosesi yönləndirir və tənzimləyir. Şagirdləri hər bir nəticənin əsaslandırılması zərurəti haqqında xəbərdar edir.

Yekunlar aşağıdakı kimi ola bilər:

– nəticələrə əsaslanan problemli vəziyyətdən çıxışı təsəvvür etmək;

– problemin tam açılmadığı halda şagirdlərə əlavə suallar verməyi təklif etmək;

– şagirdlərə vəziyyətin tədqiqini növbəti dərsdə davam etdirməyi təklif etmək (bu mövzuda 2 saat ayrıldığı halda).

Keyslər metodu tədris prosesinin nəticəsini əhəmiyyətli dərəcədə yüksəldir, müstəqil fəaliyyəti modelləşdirməyə və gerçəkləşdirməyə imkan verir, gələcəkdə yeni informasiyanın öyrənilməsinə müsbət motivasiyanı formalaşdırır.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 4	**Dövlət büdcəsi. Vergi (2-ci dərs)**
Standart	2.2.2. «Vergi», «dövlət büdcəsi» və «sığorta» anlayışlarını sadə şəkildə izah edir.
Təlim məqsədi	Dövlət büdcəsinin necə formalaşdığını, «vergi» anlayışını sadə şəkildə izah edir
İnteqrasiya	Riy. 5.1.2.
Təlim forması	Cütlərlə iş, qruplarla iş
Təlim üsulu	Problem-axtarış, keyslər metodu
Resurslar	Vəziyyətləri təsvir edən kartlar, «problemli vəziyyətin mərhələləri» yaddaş kitabçası, ensiklopedik lüğət

Dərsin gedişi

Motivasiya. Birinci dərsdə artıq şagirdlər vəziyyətlə tanış olub və son suallardan başqa, hər bir vəziyyətin suallarını cavablandırıblar.

Vəziyyət 1. Sual 4.

Vəziyyət 2. Sual 4, 5.

Vəziyyət 3. Sual 4.

Tədqiqat sualı. Dövlət büdcəsi necə formalaşır?

İkinci dərsdə «Dövlət büdcəsi və vergi» mövzusu davam etdirilir və vergilər, maliyyə anlayışları, anlayışlarla bağlı gəlir, xərc terminləri əlavə edilir. Müəllim şagirdlərə ensiklopedik lüğətdən gəlir, xərc, büdcə anlayışlarını dəftərə köçürməyi təklif edir.

Nəticələrin çıxarılması və ümumiləşdirmə. Möhkəmləndirmə üçün müəllim 22, 24-cü səhifədəki tapşırıqları yerinə yetirməyi təklif edir.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. İnformasiyanı tam qəbul edir və eyni zamanda ayrı-ayrı anlayışları qarşılıqlı əlaqədə başa düşür; öz fikrini əsaslandırmaq üçün mətnə istinad edir. Dövlətin ehtiyaclarına uyğun olaraq büdcənin düzgün tərtib edilməsinin əhəmiyyətinin detallarını əlaqələndirir, vəziyyətləri açıqlayır, nümunələr gətirir. Gəlir və xərc, büdcə və vergilər anlayışlarını fərqləndirir, faktların ardıcıllığını müəyyən edir. Hadisələr və halları xarakterizə edir, mülahizələr qurur. Vəziyyətləri nəzərdən keçirərək mürəkkəb informasiyanı müəyyən edir, faktlar şəklində ardıcıllıq qurur. Təklif olunmuş anlayışların tərkib komponentlərini təsvir edir (qrupda iş), onların əhəmiyyətini əsaslandırır.

Yüksək səviyyə. Mühüm məlumatları başa düşür, müəllim tərəfindən yönəltmələrə əsaslanaraq şəxsi mülahizələrini qurur. İstər büdcə və vergilərin qarşılıqlı əlaqəsinə dair tədqiqat sualının məzmununu, istərsə də işin gedişatını qiymətləndirir, müəllimin mümkün əlavələrinə diqqət yetirir, hadisə və faktlar arasında əlaqəni müəyyən edir, gəlir, xərc və büdcə anlayışlarını əlaqələndirir, vergitutmanın səbəbləri və zəruriliyini qeyd edir. Öz fikrini əsaslandırmaq üçün mətndən informasiyanı tapır və interpretasiya edir, müəllimin köməyi ilə verbal və vizual informasiyanı əlaqələndirir.

Orta səviyyə. Müxtəlif sosial qruplar və ümumilikdə dövlət üçün büdcənin tərtib olunması zərurətinin bəzi xüsusiyyətlərinin adlarını qeyd edir. Əvvəllər təqdim edilmiş cavablara əsaslanaraq aşkar faktları interpretasiya edir, ayrı-ayrı hadisə və faktları qiymətləndirir, vergilərin ödənilməsi zərurəti ilə bağlı tək-tək halları göstərir, vergitutmanın cəmiyyətin həyatında rolu haqqında informasiyaya müraciət etməklə sadə izahlar verir. Qrupda iş zamanı iştirakçıların nümunələri ilə bağlı tək-tək əlavələr səsləndirir.

Aşağı səviyyə. Mətndən büdcə və vergilərin əlaqəsi haqqında informasiyanı oxuyur. Lüğətdən gəlir, xərc anlayışlarını köçürür və mətndə informasiyanı tapır. Aşkar şəkildə ifadə olunan və asanlıqla lokallaşdırılan informasiyanı müəyyən edir, qruplarda iş zamanı hazır informasiyanı tapır və götürür, müəllimin nümunələrinə əsaslanaraq, xərclər və gəlirlərin tək-tək nümunələrini gətirir.

Mövzu 5	**Sığorta**
Standart	2.2.2. «Vergi», «dövlət büdcəsi» və «sığorta» anlayışlarını sadə şəkildə izah edir.
Təlim məqsədi	«Sığorta» anlayışını sadə şəkildə izah edir.
İnteqrasiya	Tex. 1.3.3.; İnf. 4.1.3.; X.d. 2.2.2.
Təlim forması	Fərdi iş, cütlərlə iş
Təlim üsulu	Rollu oyunlar, problem-axtarış, «Beyin həmləsi»
Resurslar	Dərslik, «dondurma çubuqları», çubuqlar üçün stəkan, üzərində «Hava limanı» yazısı olan çəkilmiş lövhə, yol çantaları (mümkün olduqda)

Qeyd. *Şagirdlər arasında sorğu zamanı müəllim şagirdlərin seçilməsi problemi ilə qarşılaşır. Bir qayda olaraq, xüsusilə də uşaq sayı çox olan siniflərdə çox sayda şagird öz fikrini bildirmək və ya suala cavab vermək istəyini ifadə edir. Bu vəziyyətdə «dondurma çubuqları» resursunu tətbiq etmək olar. Taxta çubuqlarda uşaqların adları yazılır və yazılı tərəfi stəkana yerləşdirilir. Seçim zamanı müəllim çubuğu çıxarır və sözü çubuqda adı yazılan şagirdə verir. Təkrar seçimin qarşısını almaq üçün müəllim istifadə olunmuş çubuqları boş stəkana yığır.*

Dərsin gedişi

Motivasiya. Müəllim şagirdlərdən nağıllar və əhvalatların ədalətsiz davranılan, əmlakı əlindən alınan, hər hansı bir səbəblərdən evini itirmiş personajları haqqında düşünməyi təklif edir. Həmçinin real həyatdan vəziyyətlər, KİV, uşaq televiziya verilişi və ya bədii filmdən epizodları xatırlamağı təklif edir.

Tədqiqat sualı. Sığortanın cəmiyyət və insanlar üçün əhəmiyyəti nədir?

Tədqiqatın aparılması. Beyin həmləsi aparılır. Müəllim növbə ilə «dondurma çubuqlarının» köməyi ilə uşaqların cavablarını dinləyir və yazır.

Qeyd. *Beyin hücumunda kollektiv (şagirdlər) və aparıcı (müəllim) iştirak edir. Beyin həmləsini başlamazdan öncə aparıcı həll edilməli olan vəzifəni dəqiq müəyyən edir. Beyin hücumu zamanı şagirdlər qoyulmuş vəzifənin həllinə yönəldilmiş, istər məntiqli, istərsə də absurd ideyalarını ifadə edirlər.*

Şagirdlər öz ehtimallarını ifadə etdikdən sonra müəllim onları cütlərə bölür və 23-cü səhifədəki şəkilləri seçməyi təklif edir. Və yaxud elektron resurslar olduğu halda şəkilləri lövhəyə çıxarır. Hər bir cütdə bir iştirakçı sığortanın adını çəkir, ikinci isə sığortaçının bu və ya digər vəziyyətdə necə hərəkət etdiyini təsvir edir. Müəllim tədqiqat sualını bir daha oxuyur: Bu cür vəziyyətə düşənlərə yardım üçün vəsait haradan götürülür? Vergilərin ödənilməsi, xərclərin ödənilməsi üçün məbləğlərin ödənilməsi ilə bağlı cavablar qəbul edilir. Müəllim şagirdlərdən dərsliyin 25-ci səhifəsindəki mətndən epizodu müstəqil şəkildə oxumağı təklif edir.

– Sığorta nədir?

Nəticələrin çıxarılması və ümumiləşdirmə. 1. 26-cı səhifədəki 2-ci tapşırıq yerinə yetirilir. 2. Səhnəcik: *«Sığorta vacibdir».*

Çubuqların köməyi ilə səhnəciyin qurulması üçün iki nəfər çağırılır. Onlara ləvazimat verilir. Lövhəyə «Hava limanı» yazısı asılır. Lövhədə bu sözlər yazılır: sığorta, sığortaçı, istirahət, dəniz, sığorta müqaviləsi, hava limanı, çamadanların itirilməsi, itkinin kompensasiyası, biz sığorta olunmuşuq. İştirakçılar kənara çəkilir, rolları bölüşdürür. Şagirdlər bu sözlərdən istifadə etməklə dialoq qururlar (səhnəcik üçün günəşdən müdafiə məqsədilə kepka, iri kənarları olan şlyapa, gün eynəkləri, hava limanı lövhəciyindən istifadə edilir).

Elektron resurslar olduğu halda lövhəyə hava limanı təsviri çıxarılır və enən, havaya qalxan təyyarələrin səsi verilir. Səhnəciyin sonunda alqışlar səsləndirilir və şagirdlərdən alqışlayanlara təşəkkür etmək xahiş edilir.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. İnformasiyanı tam qəbul edir və eyni zamanda ayrı-ayrı anlayışları qarşılıqlı əlaqədə başa düşür; sığorta haqqında şəxsi fikrini bildirir, sığortaçı, müqavilə, sığorta anlayışlarını əsaslandırır. Sığorta müqaviləsinin imzalanmasının ümumi müddəalarının başa düşülməsi üçün sığortanın detallarını əlaqələndirir. Sığortanı həyata keçirən təşkilatların vəzifələrini qeyd edir. Tədqiqatın aparılması zamanı təsvir olunmuş hadisələr və hərəkətləri xarakterizə edir, motivlər və məqsədləri müəyyən edir. Müzakirədə iştirak edir, mürəkkəb informasiyanı müəyyən edir, faktlar şəklində ardıcıllıq qurur. Təklif olunmuş anlayışların tərkib komponentlərini təsvir edir (qrupda iş), onların əhəmiyyətini əsaslandırır.

Yüksək səviyyə. Mühüm məlumatları başa düşür, müəllim tərəfindən yönəltmələrə əsaslanaraq şəxsi mövqelərini qurur. İstər tədqiqat sualının məzmunu, istərsə də işin gedişatını qiymətləndirir, müəllimin mümkün əlavələrinə diqqət yetirir, hadisə və faktlar arasında əlaqəni müəyyən edir, sığortaya dair bəzi faktların detallarını əlaqələndirir, sığortanın səbəb və zərurətini qeyd edir. Müəllimin yönləndirməsi əsasında sığortanı təsdiq edən sənədlərin imzalanması zərurətini fərqləndirir. Öz fikrini əsaslandırmaq üçün mətndən informasiyanı tapır və interpretasiya edir, müəllimin köməyi ilə verbal və vizual informasiyanı əlaqələndirir.

Orta səviyyə. Sığortanın və sığorta müqaviləsinin imzalanmasının bəzi xüsusiyyətlərini qeyd edir. Əvvəllər təqdim edilmiş cavablara əsaslanaraq aşkar faktları interpretasiya edir, ayrı-ayrı hadisə və faktları qiymətləndirir, sığortanın zəruriliyinin tək-tək hallarını göstərir, cəmiyyətin həyatında sığortanın rolu haqqında informasiyaya müraciət etməklə sadə izahlar verir. Qrupda iş zamanı iştirakçıların nümunələri ilə bağlı tək-tək əlavələr səsləndirir.

Aşağı səviyyə. Mətndən sığortanın zəruriliyi və sığorta prosesi haqqında hissəni oxuyur. Aşkar şəkildə ifadə olunan və asanlıqla lokallaşdırılan informasiyanı fərqləndirir, qruplarda iş zamanı hazır informasiyanı tapır və götürür, sığorta növləri haqqında tək-tək nümunələr gətirir.

Müəllimin portfoliosu. Müəllimin portfoliosuna «dondurma çubuqları» əlavə edilir.

Mövzu 6	**Milli pul (1-ci dərs)**
Standart	2.2.3. Milli pul nişanları ilə digər dövlətlərin pul nişanlarını fərqləndirir.
Təlim məqsədi	«Milli pul» anlayışını fərqləndirir.
İnteqrasiya	Riy. 2.3.3.; İnf. 1.2.1.; 1.2.3.
Təlim forması	Fərdi iş, cütlərlə iş
Təlim üsulu	Problem, situativ praktikum, BİBÖ
Resurslar	Dərslik, pul vahidlərinin rəngli surətləri – 1, 5, 10, 20 manat, 1 türk lirəsi, 1 dollar, 1 avro.

Dərsin gedişi

Motivasiya. Müəllim lövhədə sxem çəkir:



– Düzdür, bu gün biz puldan danışacağıq. «Moneta» sözü ilahə Yunona Monetanın adından yaranıb (qəpiklərin üzərində onu indiyədək təsvir edirlər). E.ə. 269-cu ildə Yunonanın məbədində Romanın ilk sikkəxanası yaradılıb. Burada üzərində ilahənin təsviri və adı olan gümüş denari buraxılırdı. Sonradan sikkə hazırlanan bütün yerlər «moneta» adlandırılmağa başladı. Bu sözün ingilis variantı «mint», fransız variantı «mone» kimi səslənir; ingilis sözü «money» bu sözdən yaranıb.

Şagirdlərə üç sütundan ibarət cədvəl təqdim olunur.

«Bilirəm – Bilmək istəyirəm – Öyrəndim» cədvəlindən istifadə edilir.

Bilirəm	Bilmək istəyirəm	Öyrəndim

Müəllim cədvəli lövhədə, şagirdlər dəftərlərdə çəkirlər.

1-ci mərhələ. «Milli pul» mövzusunda əsas mətnlə tanış olanadək şagirdlər cədvəlin birinci və ikinci sütunlarını müstəqil və ya cüt şəkildə doldururlar. Qeydlər aparıldıqdan sonra müəllim şagirdlərin cavablarını yazır. Bir qayda olaraq, bir çox cavablar üst-üstə düşür, buna görə də yalnız üst-üstə düşməyən variantlar yazılır.

Tədqiqat sualı. Milli pul hansı xüsusiyyətlərə malik olur?

Tədqiqatın aparılması. Müəllim hər bir şagird cütünə üzərində «Karandaşı pozana dəyişmək», «Pozanı karandaşa dəyişmək» və ya «Qələmi dəftərə dəyişmək» və «Dəftəri flomasterə dəyişmək» yazısı olan kartlar paylayır. Şagirdlərin kartları mübadilə edə bilməsi üçün nümunələr müxtəlif olmalıdır. Mübadilənin baş tuta biləcəyi halda cütlərin kartları mübadilə etməsinə dair məlumat verilir. 2–3 cüt üst-üstə düşməyən kartlar aldığından onlar mübadilə apara bilməzlər.

Mübadilə apara bilməyən cütlərin əllərini qaldırmasını xahiş edin.

– Niyə mübadilə apara bilmədiniz? (Kartlar üst-üstə düşmür.)

Müəllim qısa informasiya verir:

– Qədim zamanlarda insanların pulu olmayıb və onlar öz aralarında əmək məhsullarını mübadilə edirdilər. Tədricən bütün digər malların tənləşdiyi mal peyda olur. Pul bu cür yaranmağa başladı. Məsələn, pul Qədim Çində – bürünc zınqırovlar, Hindistanda – mirvari, qədim Asiya və Afrika xalqlarında – balıqqulaqları olub. Çox-çox illər ötdükdən sonra bizim dövrümüzdə hər bir dövlətin öz pul nişanı var.

– Heç olmasa bir dəfə səyahətdə olanlar əllərini qaldırsınlar. Hansı ölkələrdə olmusunuz? (Mümkün variantlar: Azərbaycan, Türkiyə, Rusiya, Gürcüstan, İtaliya, İspaniya, digər Avropa ölkələri, ABŞ və sair).

– Valideynlərinizin hesab üzrə necə ödəniş etdiyini görmüsünüz? Onlar hansı pul nişanları təqdim edirdilər? (Mümkün cavablar: Azərbaycan manatı, türk lirəsi, Amerika dolları, avro və sair). Şagirdlərə pul nişanlarının rəngli printerdə çap olunmuş kserosurətləri paylanır.

2-ci mərhələ. Pul nişanları, dərsliyin mətni ilə tanışlıq zamanı şagirdlər cədvəlin 2-ci sütununu doldururlar: «Bildim». Xüsusi diqqət pul nişanlarında təsvirlərin tematikasına yetirilir.

– 1 manatlıq pul vahidində nə görürsünüz? (Şagirdlər Azərbaycan xalq musiqi alətlərinin adlarını (tar, qaval, kamança) çəkirlər.)

– Bu təsvirlər hansı mövzuya həsr olunub? (Azərbaycanın mədəni irsini vurğulayan bütün cavablar qəbul edilir).

– Əks üzündə nə təsvir olunub? (Mümkün cavablar: Azərbaycan Respublikasının xəritəsi, milli naxışlar, xalı məmulatlarının şəkilləri. Milli naxışların adı çəkilən istənilən cavablar qəbul edilir).

– 5 manatlıq pul vahidinə baxın. Biz sizinlə mütləq bu müəssisəyə ekskursiyaya gedəcəyik. Bu hansı müəssisədir? (Mümkün cavablar: muzey, kitabxana. Şagirdlər Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə dair informasiyaya malik olmaya bilərlər).

– Əks üzündə qayaüstü şəkillər təsvir olunub. Bu şəkillərə hansı qoruqda rast gəlmisiniz? (Qobustan qoruğu).

Dərsliklə iş. 10 və 20 manatlıq pul vahidlərindəki təsvirlər haqqında oxuyun. Təsvirlərin mənasını müzakirə edin və müzakirəni pullara qənaətli münasibətin əhəmiyyətinin müzakirəsi ilə bitirin.

3-cü mərhələ. Nəticələrin çıxarılması, cədvəl qrafalarının məzmununun tutuşdurulması. Əlavə olaraq 50, 100, 200 manatlıq pul vahidləri üçün cədvəldən istifadə etməklə 29-cu səhifədəki 4-cü tapşırığın yerinə yetirilməsi təklif olunur. Cədvələ «İnformasiya mənbələri», «Öyrənilməli olan» anlayışlarını daxil etmək olar.

Düşünmə mərhələsində iş davam etdirilə bilər: şagirdlər növbəti dərsdə bu cədvəli doldurmaq tapşırığı alırlar.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 6	**Milli pul (2-ci dərs)**
Standart	2.2.3. Milli pul nişanları ilə digər dövlətlərin pul nişanlarını fərqləndirir.
Təlim məqsədi	Milli pul nişanları ilə digər dövlətlərin pul nişanlarını fərqləndirir, milli əsginasların forma, rəng, dəyər fərqlərini şərh edir.
İnteqrasiya	Riy. 3.1.1.; İnf. 1.2.1.; 1.2.3.
Təlim forması	Fərdi iş, cütlərlə iş
Təlim üsulu	BİBÖ, müzakirə, klaster
Resurslar	Dərslik, pul vahidlərinin rəngli kserosurətləri – 1, 5, 10, 20 manat, 1 türk lirəsi, 1 dollar, 1 avro.

Dərsin gedişi

Motivasiya. Dərs başlamazdan öncə şagirdlər aşağıdakı resursları hazırlayırlar:

1. A4 formatlı vərəq və ya albom vərəqi.
2. Üzərində 1 manat, 5 manat, 10 manat, 20 manat, 1 türk lirəsi, 1 Amerika dolları, 1 avro yazılmış əvvəlcədən hazırlanmış və kəsilmiş rəngli fiqurlar.
3. Üzərində «Pul», «Bu əsginasda milli musiqi alətləri təsvir olunub», «Bu əsginasda Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin fasadı təsvir olunub», «Burada tarixi tikililər, Qız qalası təsvir olunub», «Güc nişanları – dəbilqə, qalxan və qılınc «Xarıbülbül» sülh simvolu ilə birlikdə», «Bu valyutadan bir çox Avropa ölkələrində istifadə etmək olar», «Bu əsginasda prezidentlərdən biri təsvir olunub», «Türkiyədə istifadə edirik» ifadələri yazılmış kartondan kəsilmiş fiqurlar.

Tədqiqat sualı. Azərbaycan Respublikasının əsginaslarında nələr təsvir olunub?

Tədqiqatın aparılması. Cədvəlin yarımçıq qalmış hissələri doldurulur: «Öyrənilməli olan» və «İnformasiya mənbələri».

Bilirəm	**Bilmək istəyirəm**	**Öyrəndim**
1	1	1
2	2	2
		Öyrənilməli olan 1 2
İnformasiya mənbələri		

Qeyd. *Xüsusi tələb – məlumatlar, anlayışlar və ya faktları dərslik və ya işlədiyiniz digər mətndən sitat gətirməklə deyil, yalnız öz sözlərinizlə yazmalısınız. Üsul tənqidi təfəkkür və sürətli reaksiyanı inkişaf etdirməyə imkan verir. Müəllim hər bir şagirdin işinə nəzarət etmək və hər bir işi qiymətləndirmək imkanı əldə edir. Vaxt imkan verirsə, cədvəl birbaşa dərsdə doldurulur, əks halda onu evdə bitirməyi, bu dərsdə isə hər bir sütunda bir və ya iki müddəa yazmağı təklif etmək olar.*

YARADICI İŞ

1 manat	5 manat	10 manat	20 manat	1 lirə	1 dollar	1 avro

«Bu əsginasda milli musiqi alətləri təsvir olunub».

«Bu əsginasda Azərbaycan Ədəbiyyatı Muzeyinin fasadı təsvir olunub».

«Burada tarixi tikililər, Qız qalası təsvir olunub».

«Bu valyutadan bir çox Avropa ölkələrində istifadə etmək olar».

«Güc nişanları – dəbilqə, qalxan və qılınc «Xarıbülbül» sülh simvolu ilə birlikdə».

«Bu əsginasda prezident-lərdən biri təsvir olunub».

PUL

«Türkiyədə istifadə edirlər».

Nümunəvi işə əsasən yaradıcı iş pazl şəklində yerinə yetirilir.

Nümunəvi iş.



Nəticələrin çıxarılması və ümumiləşdirmə. Dərsliyin 29-cu səhifəsindəki 1-ci və 3-cü tapşırıq yerinə yetirilir. Tapşırıqlar cütlərdə icra olunaraq ümumiləşdirilə bilər.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. İnformasiyanı tam qəbul edir və eyni zamanda ayrı-ayrı anlayışları qarşılıqlı əlaqədə başa düşür; öz fikrini əsaslandırmaq üçün mətnə istinad edir. Hər bir pul vahidinin detalları və təsvirlərin tematikasını əlaqələndirir, təsvirlərin adını çəkir, nümunələr gətirir. Pul nişanlarını fərqləndirir, tədqiqat sualından çıxış edərək tədqiqatın ardıcıllığını müəyyən edir. Hadisələr və halları xarakterizə edir, mübadilə vasitəsi kimi pulların yaranmasına istinad edərək mülahizələr qurur. Kartları nəzərdən keçirir, mürəkkəb informasiyanı müəyyən edir, faktlar şəklində ardıcıllıq qurur. Təklif olunmuş anlayışların tərkib komponentlərini təsvir edir (qrupda iş), onların əhəmiyyətini əsaslandırır.

Yüksək səviyyə. Mühüm məlumatları başa düşür, müəllim tərəfindən yönəltmələrə əsaslanaraq, pul vahidlərindəki təsvirlərin mənası haqqında şəxsi mülahizələrini qurur, işin gedişatı boyu hadisələrin ardıcıllığını qurur, müəllimin mümkün əlavələrinə diqqət yetirir, hadisə və faktlar arasında əlaqəni müəyyən edir, pul vəsaitinin əhəmiyyətinə dair bəzi faktların detallarını əlaqələndirir. Pul nişanlarının növlərini fərqləndirir. Öz fikrini əsaslandırmaq üçün mətndən informasiyanı tapır və interpretasiya edir, müəllimin köməyi ilə verbal və vizual informasiyanı əlaqələndirir.

Orta səviyyə. Pul vahidlərində olan təsvirlərin bəzi xüsusiyyətlərinin adlarını qeyd edir. Əvvəllər təqdim edilmiş cavablara əsaslanaraq aşkar faktları interpretasiya edir, ayrı-ayrı hadisə və faktları qiymətləndirir, milli pulun tək-tək xüsusiyyətlərini göstərir, pul vahidlərinin yaranması və onların əhəmiyyəti haqqında informasiyaya müraciət etməklə sadə izahlar verir. Qrupda iş zamanı iştirakçıların nümunələri ilə bağlı tək-tək əlavələr səsləndirir, pul nişanlarının adını çəkir.

Aşağı səviyyə. Mətndən pul vahidləri haqqında informasiyanı oxuyur, dərslikdəki şəkillərə müraciət etməklə pul nişanlarının adını çəkir, aşkar şəkildə ifadə olunan və asanlıqla lokallaşdırılan təqdim edilmiş informasiyanın mənasını təsvir edir, qruplarda iş zamanı hazır informasiyanı tapır və götürür, pul nişanlarının müxtəlifliyi haqqında tək-tək nümunələr gətirir.

Müəllimin portfoliosu. Müəllimin portfoliosuna bunlar əlavə edilir: pul vahidlərinin rəngli kserosurətləri – 1, 5, 10, 20 manat, 1 türk lirəsi, 1 dollar, 1 avro; xırda pul vahidi – qəpiyin təsviri; üzərində 1, 5, 10, 20 manat, 1 türk lirəsi, 1 dollar, 1 avro yazıları olan rəngli kartondan kəsilmiş fiqurlar, pul vahidlərində təsvirlər haqqında yazılarla kəsilmiş fiqurlar.

Mövzu 7	**Vətəndaşlıq**
Standart	2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır. 3.4.1. Ailə və Vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir.
Təlim məqsədi	1. Vətəndaşı səciyyələndirən cəhətlər barədə kiçik təqdimatlar edir. 2. Vətəndaşın Vətən qarşısında mənəvi borcu ilə bağlı kiçik təqdimatlar edir.
İnteqrasiya	A.d. 2.2.4.; 4.1.4.
Təlim forması	Cütlərlə iş
Təlim üsulu	Süjet cədvəli, Sinkveyn «Azərbaycan»
Resurslar	Dərslik, paylama materialı: «Sinkveynin tərtib edilməsi qaydası», süjet cədvəli

***Qeyd:* 1.** *1-ci üsul – sinkveyn. Sinkveyn – müəyyən bir məlumatı və ya hətta bir mövzunu bir neçə sözlə ifadə etməyə imkan verən tənqidi düşüncənin inkişaf etdirilməsinin metodik texnikası. Sinkveyn – təqdim edilmiş mövzu haqqında ümumiləşdirilmiş məlumatların təqdim edildiyi beş misradan ibarət olan şeir. Dərslərin istənilən bir mərhələsində, eləcə də fənlərarası inteqrasiya üçün istifadə edilə bilər. Qısa cavablar və motivasiya mərhələsində və ya tədqiqatın başlanğıcında tədqiq edilən faktların, qanunların, anlayışların sadə bir şəkildə göstərilməsini əks etdirən sinkveynin tətbiqi şagirdlərin daha yüksək səviyyəli bilik fəaliyyətini tələb edən tapşırıqların yerinə yetirilməsinə səmərəli keçid yaradır.*

Didaktik sinkveyn 5 sətirdən ibarətdir.

1-ci sətir – sinkveynin mövzusu şagirdin təsvir etmək istədiyi obyekti və ya əşyanı göstərən bir sözdən ibarətdir (isim və ya daha nadir hallarda əvəzlik).

2-ci sətir – iki söz (sifət). Burada şagirdlər adıçəkilən sinkveyndə obyektin və ya əşyanın əlamətlərini və xüsusiyyətlərini təsvir edirlər.

3-cü sətir – üç feildən ibarətdir. Bu sətirdə şagirdlər obyektin və ya əşyanın hərəkətlərini təsvir edirlər.

4-cü sətir – dörd sözdən ibarət cümlə. Şagirdlər təsvir edilən mövzuya və ya məlumata dair aforizm deyə, öz fikirlərini söyləyə bilərlər.

5-ci sətir – seçilmiş sinkveyn mövzusunun mahiyyətini xarakterizə edən bir yekun kəlmə. Nümunə qismində «Azərbaycan» mövzusunda sinkveyni göstərmək olar.

2. Üsul – süjet cədvəli. Cədvəllə işləmək aşağıdakı bacarığı formalaşdırır:

1. Oxunan məlumatların yaradılması.
2. Mətndən süjetin yaradılması.
3. Müxtəlif təzahürlərin və anlayışların müqayisəli təhlilinin aparılması.
4. Müzakirələrin aparılması üçün əsas olur.

Süjet cədvəli.

Kim?	Nə?	Harada?	Nə vaxt?	Nə üçün?

Dərsin gedişi

Motivasiya. Elektron resurslar olduğu təqdirdə Azərbaycan haqqında çarx göstərilir: *https://www.youtube.com/watch?v=VkCHLRg9-k0*. Şagirdlərə Azərbaycanın Milli Qəhrəmanının şəkli göstərilir (məsələn, Mübariz İbrahimov). Müəllim şagirdlərə tanış olan istənilən qəhrəmanı seçir və Azərbaycan xalqının böyük lideri olan Heydər Əliyevdən sitat gətirir: «Xalqın, Vətənin taleyi hər bir insanın taleyi olmalıdır!»

Tədqiqat sualı. Azərbaycan xalqının böyük lideri Heydər Əliyevin «Xalqın, Vətənin taleyi hər bir insanın taleyi olmalıdır!» ifadəsi nə məna kəsb edir?

Tədqiqatın aparılması.

Qeyd. *«Köməkçi lövhədə» müəllim A4 formatlı kağız üzərində hazırlanmış sinkveyn nümunəsini yerləşdirir. Əgər şagirdlər sinkveyn texnologiyası ilə tanış deyillərsə, müəllim onlara istifadə texnologiyasını izah edir və ya sinkveynin tərtib edilməsi qaydaları ilə paylanma materialı təklif edir. Sinkveyn-üsul tətbiq edən müəllimin vəzifəsi məntiqi cəhətdən bir-biri ilə bağlı olan dəqiq ardıcıllığı fikirləşməkdən ibarətdir. Onların həyata keçirilməsi şagirdə məlumatları qavramağa, yadda saxlamağa və təkrarlamağa kömək edəcək. Müəllim sinkveynləri tərtib etmək üçün əvvəlcədən bir sıra suallar fikirləşməlidir.*

Sinkveynin gedişi.

1. Müəllim uşaqları cütlərə bölür və onlara «Azərbaycan» mövzusunda sinkveyn tətrtib etməyi təklif edir.
2. Hər cütlüyə məlumatları müzakirə etmək üçün vaxt verilir. Müəllim hər cütlüyə müzakirə etmək üçün 2 dəqiqəlik vaxt verilməsini elan edir.
3. 2 dəqiqədən sonra müəllim sağ əlini qaldırır. Sağ əlin qaldırılması müzakirələrin dayandırılması deməkdir. Müəllimin əlinin qaldırılmasını görən şagirdlər də cavab olaraq əllərini qaldırırlar ki, bu da müzakirənin sona çatması deməkdir. Əllərini qaldıran şagirdlər müəllimin işarəsini görməyən şagirdlərin diqqətini cəlb edə bilər.
4. Sinkveynin yaradılması. Sinkveynin yaradılmasına 5 dəqiqədən çox vaxt verilmir.
5. Sinkveynin təqdimatı. Hər cütlüyün şagirdləri növbə ilə hər bir sətri oxuyurlar.
6. Bütün variantları oxuduqdan sonra müəllim bütün şagirdlərdən işi alqışlarla başa çatdırmasını xahiş edir (Əgər bəzi şagirdlər sinkveyni yekunlaşdıra bilməyiblərsə, onları gördüyü işə görə tərifləyin və evdə məşq etmələrini təklif edin).

Azərbaycan mövzusunda nümunəvi sinkveyn.

1. Azərbaycan.
2. Nə cür ölkədir? Azərbaycanın əhalisini təsvir edin (çoxmillətli, qonaqpərvər, qeyri-adi, mədəni, gənc, etnik və s.).
3. Necə inkişaf edir? (Çiçəklənir, müdafiə edir, təhsil verir, qayğı çəkir, təmin edir, öyrədir, hasil edir, istehsal edir və s.).
4. Azərbaycan barəsində aforizm, ifadə, atalar sözü və ya məsəl. «Mən fəxr edirəm ki, Azərbaycanlıyam (Heydər Əliyev). «Vətənpərvərlik hissi insanın içindən gəlir» (Heydər Əliyev). İnsanın nəbzi vətən nəbzi ilə sinxron olmalıdır (Heydər Əliyev). Güclü dövlətin güclü ordusu olmalıdır (Heydər Əliyev). Azərbaycan – qüdrətli ölkədir.
5. Azərbaycan başqa cür necə adlandırmaq olar? (Vətən, Odlar yurdu, doğma Vətən, yurd, respublika, Ana Vətən, doğulduğumuz yer).

Nəticələrin çıxarılması və ümumiləşdirmə. Müəllim:

– Biz şəhərdə (rayonda) gəzərkən qarşımıza müxtəlif insanlar çıxır. Onlar söhbətləşir, ünsiyyət qurur, ölkəmizin mənzərəli yerlərini seyr edirlər. İnsana baxarkən ölkəmizin vətəndaşı olub-olmadığını müəyyən edə bilmirik.

– Bu şəxsin Azərbaycanın vətəndaşı olub-olmadığını necə müəyyən etmək olar? (Uşaqların mümkün cavabları: başqa bir dildə danışır, başqa geyimdədir, vətəndaşlığı təsdiq edən sənədi var, sənədlərdə hansı ölkənin vətəndaşı olması yazılıb və s.). Müəllim şəxsiyyət sənədləri ilə bağlı cavablarda dayanır.

– Beləliklə, hər bir vətəndaşın şəxsiyyətini təsdiq edən «şəxsiyyət vəsiqəsi» və onun hansı ölkənin vətəndaşı olması barədə sənədi var.

Dərsliklə iş. Dərsliyin mətnində, 30–31-ci səhifələrdə «Şəxsiyyət vəsiqəsi» haqqında məlumatı oxuyun.

– Əgər biz dünyanın digər ölkələrinə səfər etmək istəsək, bunun üçün bizə nə lazım olacaq?

– Nə olmadan səfərə gedə bilmərik? (Mümkün cavablar: çamadan, çantalar, əşyalar, təyyarə biletləri, pasport.)

– Düzdür, pasport. Mətndə pasportun əhəmiyyəti barədə məlumatı tapıb oxuyun.

– Hər bir ölkə vətəndaşının öz vəzifəsi var. Onları müzakirə edək.

Xülasə və yekunlaşdırma. Süjet cədvəli üzərində iş.

Açar sözlər: hərbi qulluqçu, vergi ödəmək, dövlət atributları, ətraf mühitin qorunması.

Müəllim «Hekayə cədvəli»nin nümunəsini göstərir, onu «Köməkçi lövhə»də asır.

Kim?	Nə?	Harada?	Nə vaxt?	Nə üçün?
İşləyən vətəndaşlar	Vergi ödəyir	İşlədiyi təşkilatda	Əməkhaqqı alan zaman	Ölkənin büdcəsi üçün
Hərbi xidmətçi	Vətəni qoruyur	Xidmət etdiyi hərbi hissədə	Hərbi xidmət müddətində	Bu, 18 yaşına çatmış hər bir gəncin borcudur.

Yekunlaşmış cədvəlləri bütün şagirdlərin tanış olması üçün «Köməkçi lövhə»də asırlar.

Materialı yadda saxlamaq üçün dərsliyin 32-ci səhifəsində tapşırıqları yerinə yetirmək tövsiyə olunur.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. Vətən haqqında məlumatları bütünlüklə qəbul edir. Sənədlərin mənası ilə bağlı təfərrüatları, vəziyyətə əsaslanan tədbirlərin ardıcıllığını ayırır. Kompleks məlumatları tanıyır, faktlar şəklində ardıcıllıq yaradır. Təklif olunan anlayışların komponentlərini təsvir edir (qrup işi), onların mənasını əsaslandırır.

Yüksək səviyyə. Əsas məlumatları anlayır, şəxsiyyəti təsdiq edən sənədlərin mənası ilə bağlı öz nəticələrini qurur, işin gedişatı üzrə ardıcıllıq qurur, müəllimin mümkün əlavələrinə diqqət yetirir, hadisələr və faktlar arasında əlaqə yaradır, bəzi faktların detallarını əlaqələndirir, müəllimin köməyi ilə verbal və vizual məlumatları birləşdirir.

Orta səviyyə. Bəzi anlayışların adlarını çəkir – vətəndaş, şəxsiyyət vəsiqəsi, vətəndaşların müəyyən vəzifələri arasında fərqləri bilir. Aşkar faktları şərh edir, sadə izahlar verir.

Aşağı səviyyə. Şəxsiyyəti təsdiqləyən sənədlər barədə məlumatları mətndən oxuyur. Dərs kitabının mətninə istinad edərək fərqləri göstərir, açıq-aşkar təqdim olunmuş və asanlıqla mənimsənilən məlumatların mənasını təsvir edir, qrupda işləyərkən hazır məlumatları aşkar edir və çıxarır, tək-tük nümunələr göstərir.

II. MƏNƏVİ DÜNYAMIZ

Mövzu 8	İsraf və qənaət (1-ci dərs)
Standart	2.2.1. «Qənaət» və «israf « anlayışlarını müqayisə edir. 3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir.
Təlim məqsədi	1. «İsraf» və «səxavət» anlayışlarını müqayisə edir. 2. Bədii qəhrəmanların obrazı nümunəsində israfçılığın zərərini izah edir.
İnteqrasiya	A.d. 1.1.1.; 1.1.2.
Təlim forması	Cütlərlə iş, fərdi iş
Təlim üsulu	«Do Now Activity» – «İndi et» texnologiyası
Resurslar	Dərslik, şəkillər, iş vərəqləri

Qeyd. *«İndi et» texnologiyasının uğurla tətbiq edilməsi üçün aşağıdakıları həyata keçirmək lazımdır:*

1. Tempi qoruyub saxlamaq – maksimum 5 dəqiqə.
2. Məsələni sadələşdirmək, izahların həcmini məhdudlaşdırmaq. Sadələşdirilmiş modeli təklif etmək.
3. İnformasiyanı əvvəlki mövzu və ya fəsil ilə birləşdirmək.
4. Tapşırığı çətinləşdirməmək. Müəllimin şagirdləri bu işə cəlb etməsi və onların özlərini daha ağıllı hiss etməyə məcbur etməsi çox vacibdir!
5. Təfəkkürü inkişaf etdirmək üçün sonuncu sualı açıq saxlamaq lazımdır.
6. «İndi et» ifadəsini dərs başlamazdan əvvəl yazı lövhəsinə yazın.

Motivasiya. Müəllim:

– Yazı lövhəsində çox sayda fikir vardır, onlardan bəziləri doğru, bəziləri isə yanlışdır.

İsrafçılıq öz hərəkətlərinin nəticələri haqqında düşünməməyə kömək edən dəyərli keyfiyyətdir.	Qənaətcillik təvazökarlıq və əməksevərliyi öyrədir.	Doymaq üçün yeməyi boşqaba çox qoymaq lazımdır.	Diqqətsiz bağlanmış krandan su damcılayır. Qorxulu heç nə yoxdur, planetimizdə su çoxdur, hamıya çatar.
Xəsis insan –xərclərdən qaçan, tamahkarlığa qədər qənaətcil insandır.	Xərcləri düşünmək nəyə lazımdır? Əgər mən oyuncaq istəyirəmsə, valideynlərim almalıdır.	Mən digər konfeti verə bilmərəm, çünki hər iki konfeti yemək istəyirəm.	İsrafçılıq səxavətli insanın keyfiyyətidir.
Şagird məsələni səhv yerinə yetirmişdir, səhvləri qaralamışdır, səhifə çirklənmişdir! O, yeni dəftər götürmüş, qaraladığı və vərəqlərinin yarısı təmiz olan dəftəri isə tullamışdır.	Səid çox sayda pirojna almış, lakin onların hamısını yeyə bilməmişdir. Qalan pirojnaları isə atmışdır, çünki onların yararlılıq müddəti artıq bitmişdir. Afərin Səid!	Mənim dayım çox məşğul insandır, ona görə də o, vaxtını ailəsi ilə şam yeməyinə sərf etməməlidir.	Televizor və kompüter qarşısında uzun müddət ərzində oturmaq vaxt itkisidir.

Tədqiqat sualı. «İsraf» nədir və nəyi israf etmək olmaz?

Tədqiqatın aparılması. *Cütlərlə iş.*

– Doğrudur, yoxsa səhvdir?

– Hər bir fikri müzakirə edin. Səhv fikirləri tapın və onları doğru şəkildə yenidən yazın.

Şagirdlər səhv fikirləri tapır və onları doğru şəkildə yenidən yazırlar. Tapşırığın yerinə yetirilməsinə 5 dəqiqə ayrılır. Hər bir cütlük doğru və ya düzəliş edilmiş fikirləri oxuyur.

Dərsliklə iş: Dərslikdəki mətn oxunur, şəkillər üzərində iş aparılır.

– Nə yanlışdır və nə üçün?

– Bu uşaq eyni vaxtda iki pis hərəkət edir. Sizcə, bunlar hansı hərəkətlərdir?

Əvvəlki sorğuda iştirak etməyən cütlüklər cavab verir.

Dərsliyin 35-ci səhifəsində səxavət haqqında mətn oxunur.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim:

– Cədvəli doldurun. Açar sözləri bölüşdürün və Azərbaycanın görkəmli xadiminin xeyriyyəçilik fəaliyyətinin əhəmiyyətini əks etdirən bir və ya iki cümlə tərtib edin.

Xeyriyyəçilik fəaliyyəti	**Açar sözlər**	**Xeyriyyəçilik fəaliyyətinin əhəmiyyəti**
Yoxsul insanlara əl tuturdu.	Rifah, xalq, yoxsulluq, həyat səviyyəsi, səxavət	
Bakıda ilk qızlar məktəbini Hacı Zeynalabdin Tağıyev açdırıb.	Təhsil, diplom, millət, qayğı, hüquq bərabərliyi	
Paytaxtımıza ilk su kəməri də Hacı Zeynalabdinin vəsaiti hesabına çəkilib.	Su ilə təmin edilmə, xəstəliklərdən qoruma, hər bir ev, təmiz su, su kəməri	

– Dərsliyin 35-ci səhifəsindəki 1-ci və 3-cü tapşırıqları yerinə yetirin.

Ev tapşırığı 1. İvan Krılov. «Cırcırama və qarışqa» təmsili. Tərcümə edən Abdulla Şaiq. *https://www.youtube.com/watch?v=s0ekdB5aecM*

Təmsili oxuyun və mövqelərdən birini seçin:

1. Qarışqa haqlıdır. Bunu üç, dörd cümlə ilə sübut edin. Öz sübutlarınızı kağız vərəq üzərində formalaşdırın.
2. Qarışqa haqlı deyil, cırcıramaya isə haqq qazandırmaq olar. Öz sübutlarınızı kağız vərəq üzərində yazın.

Yerinə yetirilmiş işləri səhəri gün tanış olmaq üçün yardımçı lövhəyə asın. Növbəti sinif saatında hər bir şagirdin mövqeyini müzakirə etmək və «Qənaətcillik və israfçılıq» mövzusunda diskussiya aparmaq olar.

2. Ailənizlə birlikdə «İtirilmiş vaxtın nağılı» bədii filminə (Mosfilm, 1964), «Əfsanə – Hacı Zeynalabdin Tağıyev» sənədli filminə tamaşa edin.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 8	İsraf və qənaət (2-ci dərs)
Standart	2.2.1. «Qənaət» və «israf» anlayışını müqayisə edir. 3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir.
Təlim məqsədi	«Qənaət» və «xəsislik» anlayışlarını müqayisə edir. Bədii əsər qəhrəmanlarının nümunəsində qənaətin faydalarını izah edir.
İnteqrasiya	A.d. 1.1.1.; 1.1.2.
Təlim forması	Cütlərlə iş, kollektiv iş, fərdi iş
Təlim üsulu	Problem-axtarış, cütlüklər üzrə rollu oyun, diskussiya
Resurslar	Dərslik, iş vərəqləri, şəkillər

Dərsin gedişi

Motivasiya. Oxunulmuş əsər, baxılmış film və tamaşalarda müsbət halları qeyd edir. Mənəviyyata zidd xüsusiyyətlərin mənfi təsirini izah edir və mənəvi keyfiyyətləri (əməkdaşlıq, başqasının fikrinə hörmət, dözümlülük) inkişaf etdirir.

Mətn şagirdlər tərəfindən oxunur:

– Qənaət israfın əksidir. Bu sözlə siz artıq tanışsınız. Qənaət əlində olan hər şeyin qədrini bilmək, qorumaq və ondan tam qədərində istifadə etməkdir. Xatırlayırsınızsa, 2-ci sinifdə «Cibxərcliyi» adlı mövzuda kicik qardaş atasının verdiyi cib xərcliyini bir gündə xərcləyib pulsuz qalmışdı. Böyük qardaş isə pulunu qənaətlə xərclədiyi üçün ehtiyat pul toplamışdı. O, qənaət hesabına topladığı puldan kiçik qardaşına birhəftəlik cib xərcliyi də vermişdi.

Tədqiqat sualı. Qənaət nədir və nələrə qənaət etmək lazımdır?

Tədqiqatın aparılması. Müəllim:

– Gördüyünüz kimi, böyük qardaş pulları qənaətlə xərcləmişdir, ona görə də kiçik qardaşı ilə bölüşmüşdür. Kiçik qardaş isə bütün pulları dərhal xərcləmişdir.

– Kiçik qardaş nə üçün pulları düşünmədən xərcləmişdir? Sizcə, səbəb nə idi?

Müəllim şagirdlərin cavablarını tamamlaya bilər. (Kiçik qardaş nəticələr haqqında düşünməmişdir. Ata oğlunu xəbərdar etməmişdir ki, əgər o, bütün pulları xərcləyərsə, bu zaman həftənin sonuna qədər artıq pul almayacaqdır. Kiçik qardaş əmin idi ki, böyük qardaş ona kömək edəcəkdir.)

– Siz necə düşünürsünüz, böyük qardaş öz vəsaitlərinin bir hissəsini ona verərək doğrumu davranmışdır? (İstənilən cavablar qəbul edilir.)

– Sübut edin, nə üçün doğru davranmışdır? (O, kiçik qardaşın qayğısına qalmışdır.)

– Sübut edin, nə üçün yanlış davranmışdır? (Kiçik qardaş buna adət edəcək və həmişə bu cür davranacaqdır.)

Mətnlə iş. Müəllim:

– «Süleyman şah və qarışqa» nağılını oxuyun.

Mətnin oxunmasına 2 dəqiqə ayrılır. Elektron resurslar mövcud olduğu zaman müəllim nağılı nümayiş etdirə bilər.

Cütlərlə iş. Müəllim cütlüklər üzrə rolları bölüşdürür (Süleyman şah və qarışqa). Problemin müzakirəsi və həllinə 3 dəqiqə ayrılır.

– Süleyman şah israf edilmiş pullara qənaət edərək dövlət və xalq üçün nə edə bilər?

– Qarışqa mühüm qərarın qəbul edilməsi üçün Süleyman şaha kömək etmək məqsədi ilə hansı keyfiyyətləri göstərmişdir? Qarışqa necə sağ qaldı?

Diskussiya. Müəllim hər bir cütlüyə yaxınlaşır. Şagirdlərdən biri üzərində çıxışın nömrəsinin yazıldığı püşkü çəkir. Cütlüklər nömrələməyə əsasən çıxış edir. Müəllim:

– İnsanlar hərdən həddən artıq qənaətcil olur. Bu zaman onlarda xəsislik kimi bir keyfiyyət özünü büruzə verməyə başlayır.

Mətnlə iş. Müəllim mətni oxuyur və təsviri göstərir:

– Bir kişi ayaqyalın yolla gedəndə ayağına mismar batır. Ayağından qan axır. Kişi mismarı çıxara-çıxara duşunur: «Yaxşı ki, ayaqqabım ayağımda deyildi, yoxsa deşilərdi».

– Daha sonra nə olacaq? Ayaqyalın yola düşən səyyah haqqında hekayəni bitirin.

Müəllim təsviri göstərir, sonra nə baş verəcəyini soruşur və şagirdlərin bütün cavablarını yazı lövhəsində yazır. Şagirdlər müzakirənin yekunlarını dəftərə yazır.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Dərsliyin 37-ci səhifəsindəki 1-ci və 3-cü tapşırıqların yerinə yetirilməsi. Müəllim tapşırıqların yerinə yetirilməsinin gedişində şagirdlərə yaxınlaşır və tapşırıqların yerinə yetirilməsini yoxlayır. Zərurət yarandığı təqdirdə şagirdləri istiqamətləndirir və qeydlər edir.

Ev tapşırığı. Dərsliyin 37-ci səhifəsindəki 2-ci tapşırıq: «Qənaətcil olmağın faydası» adlı esse yazın. Müəllim essenin yazılması alqoritmini şagirdlərə təqdim edir. Essenin yazılması alqoritmi aşağıdakı şəkildə ola bilər:

1. Problemlə tanışlıq.
2. Məzmunun müəyyən edilməsi, bu problemi aydınlaşdıran nümunələrlə tanış olmaq.
3. Essenin yazılmasının planlaşdırılması (struktur).
4. Essenin yazılması.
5. Yoxlamaq və zərurət yarandığı təqdirdə redaktə etmək.
6. Essenin təqdimatı.

Müəllim *https://infourok.ru/rekomendacii-po-napisaniyu-esse-v-nachalnoy-shkole-749422.html* linkinə keçid etməklə daha ətraflı informasiyanı əldə edə bilər.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Problemi müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. İnsanın qüsurları: xəsislik, tamahkarlıq haqqında əsas və ikinci dərəcəli müddəaları ayırır, müsbət şəxsi keyfiyyətləri – səxavət, qənaətcillik anlayışlarını tanıyır. Ailə və cəmiyyətin təsiri altında şəxsiyyətin formalaşmasının uyğunluğuna dair şəxsi nümunələr göstərir. Qayğıkeş münasibət və məntiqə uyğun tələbatlar anlayışlarını ümumiləşdirir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Problemi müstəqil şəkildə müəyyən edir. Öyrənilmiş materialda insanın qüsurları – xəsislik, tamahkarlıq haqqında əsas və ikinci dərəcəli müddəaları ayırır, müsbət şəxsi keyfiyyətlər – səxavət, qənaətcillik anlayışlarını tanıyır. Vəziyyətin və şəxsi keyfiyyətlərin formalaşdırılmasının uyğunluğuna dair nümunələr göstərir. Müsbət şəxsi keyfiyyətlərin formalaşdırılması üçün şərtlərin yaradılmasına yönəldilmiş bir sıra tələb və qaydaları söyləyir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müəyyənləşdirir. Öyrənilmiş materialda müddəaları göstərir, əsas və ikinci dərəcəli hissələrə bölmədən müsbət və mənfi keyfiyyətləri sadalayır, bəzi vəziyyətləri qiymətləndirir. Qənaətcillik, israfçılıq, tamahkarlıq anlayışlarını ayırır, bəzi fərqləri göstərir. Əvvəllər öyrənilmiş bacarıqların göstərilməsi səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Aşağı səviyyə. Tədris fəaliyyətinin daha əvvəl müəyyən edilmiş məqsədini göstərir. Dərsliyin şəkilləri və mətninə əsaslanaraq, şəxsi keyfiyyətləri söyləyir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan məlumatı müəyyən edir, şəxsi müsbət keyfiyyətlərin formalaşdırılmasının əhə-

miyyəti haqqında hazır informasiyanı tapır və götürür. Müəllimin nümunələrinə əsaslanaraq təktək nümunələr haqqında məlumat verir.

Mövzu 9	**Doğma və ögey münasibət**
Standart	2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimatlar edir.
Təlim məqsədi	Ətraf mühitə və ictimai əmlaka münasibət haqqında kiçik təqdimatlar edir.
İnteqrasiya	A.d. 1.1.2.
Təlim forması	Qruplarla iş, fərdi iş
Təlim üsulu	Qrup şəklində səssiz-axtarış təcrübəsi texnologiyası
Resurslar	Dərslik, iş vərəqləri, şəkillər

Dərsin gedişi

Motivasiya. Müəllim mətni oxuyur:

– Yunis hər gün evdəki zibili aparıb atmağı öhdəsinə götürmüşdü. Zibil yeşiyi evdən bir qədər aralıda yerləşirdi. Bir neçə dəfədən sonra Yunis zibil yeşiyinə qədər getməyə tənbəllik etdi və zibili yaxınlıqdakı caya atmağa başladı. O fikirləşirdi ki, əsas odur zibil evdə qalıb iylənməsin.

Bir gün Yunisin anası şikayətləndi ki, milçək yaman çoxalıb. Qonşular da pis qoxudan və milçəklərdən şikayətlənirdilər. Onlar bunun səbəbini araşdırdılar. Məlum oldu ki, pis qoxunun və milçəklərin çoxalmasının səbəbi çayın kənarında yaranmış zibillikdir. Yunis peşman olmuşdu. O, zibili çaya boşaldarkən belə olacağını ağlına gətirmirdi.

– Gördüyünüz kimi, yaranmış vəziyyət valideynlər, qonşular və Yunisin özü tərəfindən qiymətləndirilmişdir. Deməli, Yunisin hərəkətini yalnız onun özü yox, həm də ətrafındakılar qiymətləndirmişdir.

Tədqiqat sualı. Yunisin təbiətə belə münasibəti hansı nəticələrə gətirib çıxara bilər?

Tədqiqatın aparılması. Qrup şəklində səssiz axtarış təcrübəsinin tətbiqi.

Bu texnologiya dörd nəfərdən ibarət qrupda tətbiq edilir. Onların qarşısına dörd seksiyaya bölünmüş A3 formatlı kağız vərəq qoyulur (şəkil 1). Mərkəzdə əsas sual və ya mövzu yazılmışdır. Düşünmə prosesini stimullaşdırmaq üçün bir və ya bir neçə təsvir əlavə etmək olar. Şagirdlər sual və ya mövzu haqqında yada sala bildikləri bütün faktları 30 saniyə ərzində səssiz şəkildə vərəqin üzərinə yazırlar. Təsvirlər şagirdlərin qeydlər üçün istifadə edə biləcəkləri bir ipucu rolunu oynaya bilər. Müəllim bu vaxt ərzində şagirdlərin qeydləri ilə tanış olmaq üçün sinifdə gəzə bilər. Şagirdlərin qeydləri dərsin növbəti mərhələsinin qurulmasının gedişini müəllimin fikirləşməsinə imkan verir.

30 saniyədən sonra vərəq saat əqrəbi istiqamətində 90 dərəcə çevrilir. Şagirdlərin öz yaşıdlarının ideyalarına istinad edərək, növbəti seksiyanı tamamlaması üçün 30 saniyə vaxtı var. Bu proses hər bir şagirdin əvvəlki şagirdin qeydləri ilə tanış olmasına qədər təkrarlanır. Hər bir şagird əldə edilmiş informasiyanı qrupun əlavələri ilə möhkəmləndirmək imkanına malik olacaqdır.

Daha sonra şagirdlər 1 dəqiqə ərzində bütün qeydləri müzakirə edirlər. Şagirdlərin qeydləri ilə tanış olduqdan sonra müəllim əsas nəticələri yazı lövhəsinə qeyd edir. Daha sonra qoyulmuş suallara fərdi cavabları yazmağı şagirdlərə təklif edir. Müəllim sualları əsas nəticələrin qeyd edilməsindən sonra yazır.

Şəkil 1



Şəkil 2



Suallar:

1. «Mənim» və «bizim» anlayışları öz aralarında necə bağlıdır? «Təbiətə qarşı laqeyd münasibət və cəmiyyət» mövzusu üzrə tədqiqatınızın məlumatlarına əsaslanaraq nümunələr göstərin.
2. «Təbiəti məhv edərkən biz özümüzü məhv edirik» ifadəsi nə deməkdir?
3. «Təbiəti qorumaq – sənin ailə, cəmiyyət və Vətən qarşısında borcundur» ifadəsini necə başa düşürsünüz?

Qeyd. *Sualları sinifdə qruplar, sıralar üzrə və ya müəllimin mülahizəsinə əsasən sərbəst şəkildə bölmək olar.*

Fərdi iş 5 dəqiqə üçün nəzərdə tutulmuşdur. Şagirdlər cavabları oxuyur, müəllim cavabları ümumiləşdirir və əsas fikirləri yazı lövhəsinə yazır.

Ümumiləşdirmə və nəticələrin çıxarılması.

1. Şagirdlər mətni oxuyurlar. Bu suala cavab verirlər: Bumeranq nədir?
2. Dəftərdə bumeranq şəkli çəkilməsi.
3. Dərsliyin 39-cu səhifəsindəki 1-ci və 2-ci tapşırıqların yerinə yetirilməsi.

4. Venn diaqramında öyrəndiklərinizin tətbiq edilməsi.



Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, təbiətə qarşı istehlakçı münasibəti müəyyən edir. Ekoloji düşüncənin və insanın təbiətə qarşı istehlakçı münasibətinin səviyyəsinin uyğunluğuna dair özünün nümunələrini göstərir. «Mənim» və «bizim» anlayışlarını formalaşdırır, qarşılıqlı əlaqəni müəyyən edir. Təbiətə qarşı qayğıkeş münasibəti ailə, cəmiyyət və Vətən qarşısında borc kimi xarakterizə edir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Problemi müstəqil şəkildə müəyyən edir. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, təbiətə qarşı istehlakçı münasibəti müəyyən edir. Ekoloji düşüncənin və insanın təbiətə qarşı istehlakçı münasibətinin səviyyəsinin uyğunluğuna dair əvvəllər öyrənilmiş nümunələri göstərir. «Mənim» və «bizim» anlayışlarını formalaşdırır. Təbiətə qarşı qayğıkeş münasibəti ailə, cəmiyyət və Vətən qarşısında borc kimi xarakterizə edir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müəyyənləşdirir. Öyrənilmiş materialda müddəaları göstərir, əsas və ikinci dərəcəli hissələrə bölmədən təbiətə qarşı istehlakçı münasibətin ayrı-ayrı elementlərinin adını çəkir. «Mənim» və «bizim» anlayışlarını fərqləndirir. Əvvəllər öyrənilmiş bacarıqların göstərilməsi səviyyəsində işləmək qabiliyyətini nümayiş etdirir.

Aşağı səviyyə. Tədris fəaliyyətinin daha əvvəl müəyyən edilmiş məqsədini göstərir. Dərsliyin şəkilləri və mətninə əsaslanaraq, təsvir edilmiş vəziyyətlərin meydana gəlməsi səbəblərini söyləyir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan məlumatı müəyyən edir, təbiətə qayğı ilə yanaşmağın əhəmiyyəti haqqında hazır informasiyanı tapır və götürür. Müəllimin nümunələrinə əsaslanaraq tək-tək nümunələr haqqında məlumat verir.

Mövzu 10	**Məsuliyyət hissi**
Standart	2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimatlar hazırlayır.
Təlim məqsədi	Məsuliyyət hissi haqqında kiçik təqdimat edir.
İnteqrasiya	A.d. 1.2.1.; İnf. 1.1.4.
Təlim forması	Cütlərlə iş, qruplarla iş
Təlim üsulu	«Hörümçək diaqramı – əvvəlki biliklərin qiymətləndirilməsi» metodu
Resurslar	Dərslik, rəngli karandaş və flomasterlər, iş vərəqləri

Dərsin gedişi

Motivasiya. Müəllim mənəviyyata zidd xüsusiyyətlərin mənfi təsirini izah edir və mənəvi keyfiyyətlər (əməkdaşlıq, başqasının fikrinə hörmət, dözümlülük) inkişaf etdirilir.

Cütlərlə iş. Müəllim şagirdləri cütlərə bölür, iş vərəqləri paylayır və işin gedişini izah edir:

1. İş vərəqinin ortasında düzbucaqlı çəkin və orada «Məsuliyyət nə deməkdir?» ifadəsini yazın.
2. Bu barədə bildiklərinizi göy zolaqların üzərində yazın.

3. İndi siz hörümçək diaqramınızı tərəfdaşınızla müzakirə edin. Siz onların ideyalarını diaqrama əlavə edə bilərsinizmi? (Şagirdlər qırmızı qələmlə tərəfdaşlarının ideyalarını əlavə edirlər.)

Tədqiqat sualı. Məsuliyyət hissi necə hissdir? Bu hissin hansı növləri var?

Tədqiqatin aparılması. Müəllim lövhədə «Hörümçək diaqramı» çəkir.

Siz diaqrama ideyalar əlavə edə bilərsinizmi? Cütlər öz işlərini təqdim edirlər. Hamı növbə ilə öz ideyalarını söyləyir. Hər cütün tamamladığı «hörümçək» ümumi müəllim tərəfindən «Hörümçək diaqramı»na əlavə olunur. Şagirdlər yaşıl qələm ilə bütün sinfin ideyalarını əlavə edirlər. (Müəllim təklif edilmiş ideyaları yazı lövhəsində yazaraq kömək edə bilər.)

Müəllim diaqramı siniflə birlikdə müzakirə edir. Şagirdlər bir-birinin işləri ilə tanış olur, nəticələri müzakirə edirlər.



Nəticədə sinfin bütün ideyaları yazı lövhəsində əks etdirilir. Beləliklə, müəllim şagirdlərin nə bildikləri və onların hansı informasiyanı əldə etməli olduqları haqqında məlumat əldə edir.

Dərsliklə iş. Müəllim:

– «Məsuliyyət nə deməkdir?» sualına cavabı dərsliyin mətnində tapın.

– Dərsliyin mətnində təsvir edilmiş peşəni tapın. Valideynlər, həkim, müəllim, mühasib, dərzi hansı məsuliyyəti daşıyır?

Ədəbi mətn ilə iş. Müəllim:

– 40-cı səhifədəki hekayəni oxuyun və bu köməkçi sözlərdən istifadə edərək sualları yazın: Kim? Nə üçün? Kimin qarşısında? Niyə? Nə vaxt?

Şagirdlər sualları oxuyurlar.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim şagirdlərə məlumatı ümumiləşdirir və onlarla birlikdə nəticə çıxarır. Müəllim:

– Məsuliyyət üç növə bölünə bilər: şəxsi və ya özünün qarşısında məsuliyyət; digərlərinin qarşısında məsuliyyət; məktəbdə məsuliyyət.

Qruplarla iş. Müəllim tədqiqatı aparmaq üçün şagirdləri 4, 6 və 8 kiçik qrupa bölür. Hər qrup dərslikdəki mətni oxuyur və müvafiq hissəsi üzrə iş aparır. Müəllim mövzu ilə bağlı ayrı mətnlər və şəkillər də hazırlaya bilər. Müəllim qrupların işini aşağıdakı alqoritm üzrə təşkil etməyə kömək edir:

– Qrupun iştirakçılarından biri hər hansı bir işin və ya fəaliyyət növünün adını çəkir.

– Qrupun iştirakçıları onun hansı məsuliyyət növünə aid olduğu haqqında qərar verirlər.

– Seçilmiş iş və ya fəaliyyət növü lazımi sütuna yazılır.

Məsuliyyətin növləri

Özünün qarşısında məsuliyyət	**Digərlərinin qarşısında məsuliyyət**	**Məktəbdə məsuliyyət**

Ev tapşırığı. Səhifə 41-dəki 1-ci və 2-ci tapşırıqları yerinə yetirmək tapşırılır.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. Problemi müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, «məsuliyyət», «seçim» anlayışlarının mənasını fərqləndirir, sinif yoldaşları, dostları, böyüklərlə qarşılıqlı münasibətlərdə davranış formalarını qiymətləndirir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Problemi müstəqil şəkildə müəyyən edir. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, «məsuliyyət» anlayışının mənasını fərqləndirir, nümunələrin əsasında sinif yoldaşları, dostları, böyüklərlə qarşılıqlı münasibətlərdə davranış formalarını fərqləndirir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Problemi müəyyən edir. Öyrənilmiş materialda müddəaları göstərir, əsas və ikinci dərəcəli hissələrə bölmədən məsuliyyətli münasibət nümunələrini fərqləndirir. Dərsliyin mətnindən nümunələrə əsasən «məsuliyyət» və «məsuliyyətsizlik» anlayışlarını fərqləndirir. Əvvəllər öyrənilmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Aşağı səviyyə. Daha əvvəl müəyyən edilmiş problemi müəyyən edir. Dərsliyin şəkilləri və mətninə əsaslanaraq, informasiyanı müəyyən edir, gündəlik həyatda məsuliyyətli münasibətin əhəmiyyəti haqqında hazır informasiyanı tapır və götürür. Müəllimin nümunələrinə əsaslanaraq, tək-tək nümunələr haqqında məlumat verir.

Mövzu 11	Ədəb qaydaları
Standart	3.1.1. Tənqidi münasibətdə nəzakət qaydalarına (şəxsiyyətə toxunmamaq, kobud ifadələr işlətməmək, sərt formada etiraz etməmək, qəbuledilməz təkliflərə «yox» demək) riayət edir. 3.2.2. Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir.
Təlim məqsədi	1. Nəzakət qaydalarına əməl edir. 2. Müzakirə və diskussiyalarda yüksək mənəvi keyfiyyətlər nümayiş etdirir.
İnteqrasiya	A.d. 1.1.1.; F.t. 4.1.3.
Təlim forması	Kollektiv iş, fərdi iş
Təlim üsulu	Klaster, Venn diaqramı, «Fasilələrlə oxu», diskussiya
Resurslar	Dərslik, iş vərəqləri

Dərsin gedişi

Motivasiya. Müəllim şagirdləri əvvəlki paraqraf üzrə «Məsuliyyətli münasibət» haqqında müzakirəyə cəlb edir. Bunun üçün müəllim ətrafdakı insanların məsuliyyətsiz münasibətinin arzuedilməz nəticələrə gətirib çıxarması ilə bağlı şagirdlərə öz şəxsi təcrübələrindən nümunələr göstərir. Dərsliyin 42-ci səhifəsindəki 1-ci abzası şagirdlər tərəfindən oxunur.

Tədqiqat sualı. Ədəb-ərkanla uğur qazanmaq arasında necə əlaqə var?

Tədqiqatın aparılması. Müəllim şagirdlərlə diskussiya aparır. Müəllim şagirdlərin cavablarından açar sözləri götürür və onları yazı lövhəsində yazır. Açar sözlər şagirdlərin təfəkkür qabiliyyətini aktivləşdirir.

Mətnlə iş. Müəllim sinifdəki şagirdlərin sayından və ya iş metodlarından asılı olaraq paraqrafın mətni ilə tanış olmağın variantlarını seçir.

1-ci variant: Müəllim şagirdlərə «Ədəbli insan necə davranır?» və «Ədəb qaydalarına əməl etmək nə üçün vacibdir?» başlıqları olan mətni oxumağı təklif edir. Mətnlə tanış olduqdan sonra şagirdlər 43-cü səhifədəki 4-cü tapşırığı yerinə yetirirlər. Müəllim şagirdlərə mətndən 2–3 nümunə göstərməyi və cədvəli doldurmağı tapşırır. Tapşırıq yerinə yetirildikdən sonra şagirdlərin hərəsi bir nümunə oxuyur.

2-ci variant: «Fasilələrlə oxu». Müəllim şagirdlərə mətni epizodlar və ya abzaslar üzrə oxuyur. Hər bir abzasdan sonra diskussiya keçirir. Diskussiyanın gedişində müəllim aşağıdakı sualları verə bilər:

– Ədəbli insan üçün hansı keyfiyyətlər səciyyəvi xarakter daşıyır? (Həssaslıq, xeyirxahlıq, mehribanlıq, məsuliyyət, əməksevərlik, təvazökarlıq və digər keyfiyyətlər).

– Ədəbli və ədəbsiz insan arasında fərqlər varmı? Bu fərqlər özünü nədə büruzə verir? (Ədəbli insan ətrafdakılara hörmətlə yanaşır, öz maraqlarını digər insanların maraqlarından üstün tutmur, məsuliyyət nümayiş etdirir, çətin dəqiqələrdə kömək göstərir və s.).

3-cü variant: Venn diaqramının tətbiqi. Şagirdlər nəzəri materialla müstəqil şəkildə tanış olduqdan sonra «Ədəbli insan» mövzusunda Venn diaqramını doldururlar. Diaqramda iki anlayış müqayisə edilir: «Ədəbli insana aid olan keyfiyyət» və «Ədəbli insana aid olmayan keyfiyyət». Şagirdlər xüsusiyyətlərin adını çəkir, müəllim isə ifadələri yazı lövhəsində yazır. Şagirdlər növbə ilə yazı lövhəsinə yaxınlaşır və öz fikirlərini yazırlar. Tapşırıq yerinə yetirildikdən sonra müzakirə aparılır.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. 43-cü səhifədəki 3-cü tapşırıq yerinə yetirilir. Tapşırığın yerinə yetirilməsi prosesində müəllim yalnız mətndən əldə edilmiş informasiyadan istifadə etməməyi, eyni zamanda öz şəxsi təcrübələrinə, onları əhatə edən insanların və ya bədii filmlərin, cizgi filmlərinin qəhrəmanlarının, ədəbi qəhrəmanların həyatından nümunələrə əsaslanmalı olduqlarını şagirdlərə xatırladır. Tapşırığın yerinə yetirilməsi həmin mövzu üzrə nəticələrlə başa çatır. Nəticələri klaster şəklində tərtib etmək olar.

Klasterin doldurulmasına ən zəif şagirdlərin və ya diskussiya, ya da müzakirələrdə iştirak edə bilməyən şagirdlərin cəlb edilməsi yaxşı olardı.

Ev tapşırığı. «Qarğa balası və özgə yuvası», «Etiket» cizgi Azərbaycan cizgi filmlərinə baxın.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. Problemi müstəqil şəkildə müəyyənləşdirir. Öyrənilmiş materialda əsas və ya ikinci dərəcəli müddəaları ayırır. İnsanın müsbət və mənfi keyfiyyətlərini fərqləndirir. İnsanın əxlaqi fəaliyyətini tənzimləyən cəmiyyətdə davranış normalarını müəyyən edir. Şəxsi təcrübəyə və ya ədəbi qəhrəmanların nümunələrinə istinad edərək, sosial varlıq kimi, insanın xüsusiyyətlərinə münasibət bildirir. Şəkil dəyişdirmiş sualların dəqiq canlandırılması səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Öyrənilmiş materialda əsas və ya ikinci dərəcəli müddəaları ayırır. İnsanın müsbət və mənfi keyfiyyətlərini göstərir. İnsanın əxlaqi fəaliyyətini tənzimləyən cəmiyyətdə davranış normalarını müəyyən edir. Dərsliyin mətnindən nümunələrə istinad edərək, sosial varlıq kimi, insanın xüsusiyyətlərini fərqləndirir. Əvvəllər öyrənilmiş bacarıqların göstərilməsi səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Tədris fəaliyyətinin ayrı-ayrı komponentlərini göstərir. Müəllimin köməyi ilə əsas və ikinci dərəcəli müddəaları ayırır. İnsanın müsbət və mənfi keyfiyyətlərini göstərir. Cəmiyyətdə davranış normalarını göstərir, dərsliyin mətnindən nümunələrə istinad edərək, sosial varlıq kimi, insanın xüsusiyyətlərini sadalayır. Əvvəllər öyrənilmiş bacarıqların qismən göstərilməsi səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Aşağı səviyyə. Tədris fəaliyyətinin daha əvvəl müəyyən edilmiş məqsədini göstərir. Dərsliyin şəkilləri və mətninə əsaslanaraq, insanın müsbət və mənfi keyfiyyətlərini göstərir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan informasiyanı müəyyən edir, cəmiyyətdə davranış normalarının əhəmiyyəti haqqında hazır informasiyanı tapır və götürür. Müəllimin nümunələrinə əsaslanaraq, tək-tək nümunələr haqqında məlumat verir.

Mövzu 12	**İslam dininin yaranması (1-ci dərs)**
Standart	3.3.2. Məhəmməd peyğəmbərin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir.
Təlim məqsədi	Məhəmməd peyğəmbərin həyatı haqqında kiçik təqdimat edir.
İnteqrasiya	A.d. 1.2.1.; İnf. 4.1.2.
Təlim forması	Fərdi iş, qruplarla iş
Təlim üsulu	Problemli-axtarış, diskussiya
Resurslar	Dərslik, paylama materialı, şəkillər

Dərsin gedişi

Motivasiya. Müəllimin şərhləri: Bəşəriyyətin tarixində çox sayda dahi və xüsusi istedadlı insanlar olmuşdur. Onların hər biri tarixi prosesin inkişafına çox qiymətli, əvəzsiz töhfələr vermişdir. Dahi olmaq üçün böyük işlər görmək lazımdır. Dahilik qəhrəmanlıqla qırılmaz surətdə bağlıdır. Deməli, qəhrəmanlıq dahi ideyaları olan, böyük iradə və parlaq zəkaya malik olan insanlara xas xüsusiyyətdir.

– Bəs siz bəşəriyyətin tarixinə əvəzolunmaz töhfələr verən insanların adını çəkə bilərsinizmi?

Müzakirə aparılır. Şagirdlər öz variantlarını söyləyirlər.

– Bu gün biz bəşəriyyətin tarixində sonuncu dünyəvi dinin banisi olan şəxsiyyətlə tanış olacağıq.

Şagirdlər 44-cü səhifədəki 1-ci abzası oxuyurlar. Mətndən əldə edilmiş informasiya tədqiqat sualını formalaşdırır.

Tədqiqat sualı. Məhəmməd peyğəmbərin həyatı necə olmuşdur?

Tədqiqatın aparılması. Problemin həll edilməsi üçün şagirdlər tədqiqat fəaliyyətinə cəlb edilir.

Şagirdlər mətni abzaslar üzrə oxuyurlar. Hər bir abzasdan sonra müəllim diskussiya aparır, dərsliyin şəkilləri təhlil edilir. Şagirdlər tədqiqat sualına cavabın tapılması üçün yeni faktlar və məlumatlar axtarırlar.

Müəllim şagirdləri 6 qrupa bölür. Birinci 3 qrup Məhəmmədin uşaqlığı və gəncliyi haqqında informasiyanı araşdırır. İkinci 3 qrup Məhəmmədin necə peyğəmbər olması haqqında informasiyanı öyrənir. Hər bir qrup sualların olduğu kartı alır.

1–3-cü qruplar aşağıdakı sualların əsasında araşdırma aparır:

1. Məhəmmədin uşaqlığı necə keçmişdir? Yetim qaldığı zaman onun neçə yaşı var idi?

2. Suriyaya gedərkən Məhəmmədin neçə yaşı var idi?
3. Gənc Məhəmməd həyatını kiminlə bağlamışdı?

2–6-cı qruplar aşağıdakı suallar üzrə araşdırma aparır:
1. Məhəmməd islamı təbliğ etməyə başlayandan sonra hansı hadisələr baş verdi?
2. Məhəmməddən sonra kim islamı qəbul edən ilk şəxslərdən biri olmuşdur?
3. Siz necə düşünürsünüz, nə üçün Məhəmmədin əleyhdarları yaranmışdı?

Qrupun təmsilçiləri suallara cavabları oxuyurlar. Qrupun fəaliyyəti meyarların əsasında qiymətləndirilir (qiymətləndirmə cədvəli 12-ci səhifədə verilmişdir).

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və şagirdlərin variantlarına qayıdır. Şagirdlər müəllimin köməyi ilə belə bir nəticə çıxarırlar ki, Məhəmməd çox sayda çətinlik və məhrumiyyətlər yaşamış, kasıb və məzlum insanlara kömək etmişdir. Məhəmməd ilk olaraq islamı qəbul etmiş və islam dininin təbliğ edilməsi hesabına minlərlə insan onun ardınca həqiqi din yoluna qədəm qoymuşdur.

Ev tapşırığı. Qruplarda tədqiqat suallarından istifadə edərək ailə üzvləri arasında sorğu keçirin. Sizin valideynləriniz, qardaşlarınız və ya bacılarınızın Məhəmməd peyğəmbərin həyatı haqqında hansı biliklərə malik olduqlarını müəyyən edin.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. Məhəmməd peyğəmbərin həyatı haqqında şüurlu şəkildə şifahi formada fikirlər qurur, islam dininin meydana gəlməsi və yayılması ilə bağlı səbəb-nəticə əlaqələrini müəyyən edir. Lazımi nəticənin əldə edilməsi üçün mətndə sərbəst şəkildə istiqamətlənir.

Yüksək səviyyə. Müəllim tərəfindən təklif edilmiş nümunələrə əsaslanaraq, Məhəmməd peyğəmbərin həyatı haqqında şifahi formada fikirlər söyləyir. Təklif edilmiş nümunələrə istinad edərək, islam dininin meydana gəlməsi və yayılması ilə bağlı səbəb-nəticə əlaqələrini müəyyən edir. Mətndə sərbəst şəkildə istiqamətlənir.

Orta səviyyə. Müəllimin köməyi ilə Məhəmməd peyğəmbərin həyatı haqqında şifahi fikirlər söyləyir, islam dininin meydana gəlməsi və yayılması ilə bağlı əvvəllər müəyyən edilmiş səbəb-nəticə əlaqələrini ümumiləşdirir. Mətndə qismən istiqamətlənir.

Aşağı səviyyə. Artıq hazır informasiyanı tapır və götürür. Mətndən nümunələrdən istifadə edərək Məhəmməd peyğəmbərin həyatı haqqında ayrı-ayrı fraqmentləri söyləyir, islam dini haqqında təsəvvürə malikdir.

Mövzu 12	**İslam dininin yaranması (2-ci dərs)**
Standart	3.3.2. Məhəmməd peyğəmbərin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir.
Təlim məqsədi	Məhəmməd peyğəmbərin həyatı haqqında kiçik təqdimat edir.
İnteqrasiya	A.d. 1.2.1.; İnf. 4.1.2.
Təlim forması	Cütlərlə iş
Təlim üsulu	Evristik söhbət, diskussiya, «Nazik və Qalın suallar»
Resurslar	Dərslik, şəkillər, iş vərəqləri

Dərsin gedişi

Motivasiya. Müəllim sinfə müraciət edir:

– Siz artıq Məhəmməd peyğəmbərin həyatı, islam dininin meydana gəlməsi və yayılmasında onun rolu haqqında biliklərə maliksiniz. Daha sonra nə baş verdiyini bilmək istərdinizmi? Peyğəmbərin həyatı necə formalaşmışdır? Onun yaşadığı dövrdə hansı tarixi hadisələr baş vermişdir? Siz başqa nə öyrənmək istərdiniz?

Şagirdlər suallar verirlər. Müəllim sualları yazı lövhəsində yazır. Müəllim təklif edilən suallarda düzəliş edir və tədqiqat sualını seçir.

Tədqiqat sualı. Məhəmməd Peyğəmbərin gətirdiyi din necə möhkəmləndi?

Tədqiqatın aparılması. Tədqiqat «Nazik və Qalın suallar» metodu üzrə aparılır.

Cütlərlə iş. «Nazik və Qalın suallar» metodu.

Qeyd. *Bu metod birmənalı cavabın verilməsinin mümkün olduğu (nazik suallar) və birmənalı cavabın verilməsinin mümkün olmadığı (qalın suallar) sualları fərqləndirmək bacarıqlarını formalaşdırmağa imkan verir. «Qalın» suallar – bu, birmənalı olmayan cavabları nəzərdə tutan problemli suallardır.*

Nəticələrə nail olmaq üçün «Nazik və Qalın suallar»ın cədvəlindən istifadə etmək lazımdır.

«Nazik və Qalın suallar» cədvəli

NAZİK SUALLAR	QALIN SUALLAR
Kim …?	İzah edin, nə üçün …?
Nə …?	Nə üçün siz düşünürsünüz ki, …?
Nə zaman …?	Nə üçün siz hesab edirsiniz ki, …?
Edə bilər …?	Əgər … olarsa, nə baş verəcəyini təxmin edin.
Edəcək …?	Əgər … .
Edə bilərdilər …?	
Adı nə idi …?	
Siz … ilə razısınızmı?	
Doğrudur, ya yox …?	

Cədvəldən dərsin istənilən mərhələsində istifadə oluna bilər. Bu metodikanın şagirdlərə öyrədilməsini aşağıdakı mərhələlərlə aparmaq yaxşı olardı:

1-ci mərhələ. Şagirdlərin özləri «nazik» sualları fikirləşib tapırlar.

2-ci mərhələ. Şagirdlər təklif edilən mətn üzrə əvvəlcə «nazik», daha sonra isə «qalın» suallar tərtib edirlər.

3-cü mərhələ. Cütlüklərdə və ya qruplarda mətnlə sərbəst iş zamanı şagirdlər hər bir abzas üçün suallar yazır və oxudan sonra bir-birinə və ya qrupun iştirakçılarına suallar verirlər.

4-cü mərhələ. Həmin suallara cavabların cədvəli işin başa çatdığını bildirir.

Bu metod mətni dərindən düşünməyə imkan verir, mətnin məzmununu daha dərindən mənimsəməyə kömək edir, müəllimlə əks əlaqəni möhkəmləndirir. Əks əlaqə bütün qrupların və ya cütlüklərin işlərinin sonrakı müzakirəsindən ibarətdir. Müəllim yadda saxlamalıdır ki, şagirdlərin

heç də hamısı «qalın» suallar verə bilmir, ona görə də qruplara və ya cütlüklərə bölərkən hər bir şagirdin imkanlarını nəzərə almaq lazımdır.

«Nazik və Qalın suallar» üsulundan istifadə etməklə dərs keçərkən iş aşağıdakı qaydada icra edilir:

1. Bölünmə sinif otağında sıralar üzrə həyata keçirilir. Müəllim təxmini suallarla iş vərəqlərini paylayır (bax: «Nazik və Qalın suallar» cədvəli):

1-ci və 2-ci sıralar – başlıq üzərində işləyir – Məhəmmədin təqib olunması;

3-cü və 4-cü sıralar – başlıq – Hicrət.

Əgər sinifdə sıralar daha çoxdursa, bu zaman ardıcıllıq davam edir.

2. Cütlüklərdə məlumat mübadiləsindən sonra müəllim sualların və cavabların oxunması üçün hər bir cütlüyü çağırır. Müzakirə gedir.

Ümumiləşdirmə və nəticələrin çıxarılması.

Cədvəlin hər bir sualı üzrə bütün biliklər ümumiləşdirilir, onların arasındakı əlaqə müəyyən edilir, tədqiqat sualı və şagirdlərin ideyaları ilə müqayisə olunur. Nəticələrin möhkəmləndirilməsi üçün 47-ci səhifədəki 1–3-cü tapşırıqlar yerinə yetirilir.

Ev tapşırığı. 47-ci səhifədəki 4-cü tapşırığı yerinə yetirmək.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. İslam dininin təməlində duran ayinlər haqqında şüurlu şəkildə şifahi formada fikirlər qurur, Məhəmmədin təqib edilməsi, Məhəmmədin Mədinəyə hicrəti və ilin müsəlman təqvimi ilə başlanması ilə bağlı səbəb-nəticə əlaqələrini müəyyən edir.

Yüksək səviyyə. Müəllim tərəfindən təklif edilmiş nümunələrə istinad edərək, islam dininin təməlində duran ayinlər haqqında şifahi fikirlər qurur, təklif edilən nümunələrə əsasən Məhəmmədin təqib edilməsi ilə bağlı səbəb-nəticə əlaqələrini müəyyən edir. Mətndə sərbəst şəkildə istiqamətlənir.

Orta səviyyə. Müəllimin köməyi ilə islam dininin təməlində duran ayinlər haqqında şifahi fikirlər qurur, Məhəmmədin təqib edilməsi ilə bağlı əvvəllər müəyyən edilmiş səbəb-nəticə əlaqələrini fərqləndirir. Mətndə qismən istiqamətlənir.

Aşağı səviyyə. Artıq hazır informasiyanı tapır və götürür. Mətndən nümunələrdən istifadə edərək Məhəmmədin təqib edilməsi haqqında ayrı-ayrı fraqmentləri söyləyir.

Mövzu 13	**Azərbaycanda din**
Standart	3.1.2. Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir.
Təlim məqsədi	Multikulturalizm ideyalarına həsr olunmuş kiçik təqdimatlar edir.
İnteqrasiya	A.d. 1.2.1.; İnf. 4.1.2.
Təlim forması	Cütlərlə iş, fərdi iş
Təlim üsulu	Diskussiya
Resurslar	Dərslik, şəkillər, iş vərəqləri

Dərsin gedişi

Dərslikdəki mətn oxunur, şagirdlərə aşağıdakı suallar verilir.

1. Nə üçün hər il Məhərrəm ayında «Məhərrəmlik» deyilən dini mərasim qeyd olunur?
2. Məhərrəm ayının 10-cu günündə baş verən bu hadisə necə adlanır?
3. Azərbaycanda Aşura günü hansı xeyriyyə aksiyası ilə qeyd olunur?
4. Həcc mərasimi dedikdə nə başa düşürsünüz?
5. Azərbaycanda hansı dini bayramlar qeyd olunur? Bu bayramlar nə üçün qeyd olunur?
6. Sizcə, Azərbaycanda yaşayan digər dinlərə etiqad edən insanlar müsəlmanların dini bayramlarını necə qəbul edir?
7. Bəs biz digər xalqların dini bayramlarına necə münasibət bəsləyirik?

Motivasiya. Müəllimin şərhi:

– Planetimizdə müxtəlif millətləri təmsil edən insanlar yaşayır. Biz hamımız fərqliyik. Biz dərimizin rənginə, xarici görünüşümüzə, yaşayış yerimizə görə fərqlənirik, lakin bütün bu fərqlərə baxmayaraq, biz bərabərik. Azərbaycan – ölkənin hər bir vətəndaşının və qonağının şərəf və ləyaqətinə hörmət edilən tolerant respublikadır.

Tədqiqat sualı. Azərbaycanda dinlər və dindar insanlar arasında münasibətlər necədir?

Tədqiqatın aparılması. Müəllim:

– Gəlin yada salaq, Azərbaycanın ərazisində hansı millətlər yaşayır *(türklər, ruslar, tatarlar ləzgilər, gürcülər, tatlar, yəhudilər, talışlar, ukraynalılar və bir çox digərləri)*.

– Bizim dövlətimizdə ölkəmizin bütün vətəndaşları eyni hüquqlara malikdirlərmi? Bu, nədə özünü büruzə verir? *(İş yerləri ilə təmin edilmə, yaşamaq, tibbi yardımın göstərilməsi, təhsil almaq və s.)*.

– Müxtəlif dinləri təbliğ edən insanların arasında fərq mövcuddurmu? *(Fərqlər Azərbaycan Respublikasının qanunları ilə ziddiyyət təşkil etməyən və insan hüquqlarını pozmayan müqəddəs bayramların qeyd olunmasından, ayin və mərasimlərin keçirilməsindən və s. ibarətdir.)*

– Biz hamımız bilirik ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik siyasətinin sayəsində Azərbaycan çiçəklənən ölkəyə çevrilmişdir, burada, ilk növbədə, insan hüquqları qorunmuş və müdafiə edilmişdir. Savadlı və uzaqgörən rəhbərin – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyətdə olması hesabına Azərbaycan dünya arenasında öz mövqelərini gücləndirməyə davam edir.

– Siz tolerantlıq sözünü ilk dəfə eşitmirsiniz. Lüğətdən istifadə edin və «tolerantlıq» sözünün tərifini dəftərinizə yazın. (Tolerantlıq – bu, digər insanın və ya cəmiyyətin tanınması, ya da qəbul edilməsidir, onun baxışlarına, həyat tərzinə, dininə, məzhəbinə, milliyyətinə hörmətlə yanaşmaqdır.)

Müəllim kollektiv şəkildə müzakirə (diskussiya) aparır. Müzakirədən sonra tədqiqat sualına qayıdır və şagirdləri növbəti tapşırıqla tanış edir.

Cütlərlə iş. Şagirdlərə cədvəlin doldurulması ilə bağlı tapşırıq verilir. Hər bir cütlük onlardan hər birinin hansı sütunu dolduracağına qərar verir. Əgər şagirdlər razılığa gələ bilməzlərsə, bu zaman müəllim püşk atmağı təklif edir.

Biz hamımız çox fərqliyik	Biz hamımız çox bənzərik

Hər bir cütlük öz işini təklif edir. Şagirdlər nümunələri oxuyurlar. Zərurət yarandığı təqdirdə müəllim nizamlamanı həyata keçirir və şagirdləri istiqamətləndirir.

Ümumiləşdirmə və nəticələrin çıxarılması.

Mətnlə iş. Şagirdlər mətni oxuyur, 49-cu səhifədəki suallar cavablandırılır. Şagirdlər oxunmuş məlumatları təhlil edir, tolerantlığın Azərbaycan Respublikasının vətəndaşının mühüm keyfiyyətlərindən biri kimi özünü büruzə verməsini təsvir edir, aparılmış tədqiqatın nəticələrini ümumiləşdirirlər. Müəllim dini tolerantlığın dərk edilməsini şərh edir və zərurət yarandığı təqdirdə şagirdləri bu istiqamətə yönəldir.

Ev tapşırığı. 49-cu səhifədəki 5-ci tapşırığı yerinə yetirmək. «Azərbaycan tolerant ölkədir» mövzusunda esse hazırlamaq. Esse aşağıdakı meyarlar üzrə yerinə yetirilir.

Essenin təxmini strukturu:

1. Ad və ya mövzudan asılı olaraq, problemin müəyyən edilməsi – 2–3 cümlə.
2. Həmin problemin vacibliyi və aktuallığı haqqında bir neçə cümlə.
3. Tədqiq edilən mövzuya münasibətdə şəxsi mövqenin təsviri. Həmin təsvir həcminə görə yuxarıda təsvir edilən iki hissəyə bərabərdir.
4. Şagirdin şəxsi fikri, nümunələr, faktlar, ətraflı xarakteristika. Həcm üçüncü hissədən iki dəfə çox olmalıdır.
5. Nəticə, ümumiləşdirmə, təhlil, yekun. Həcm təxminən üçüncü hissəyə bərabərdir.

Essenin tərtib edilməsi və yazılması metodikası ilə daha ətraflı şəkildə bu linkə keçid etməklə tanış olmaq olar: *https://infourok.ru/rekomendacii-po-napisaniyu-esse-v-nachalnoy-shkole-749422.html.*

Digər şagirdlərin tanış olması üçün hazır esseni zaldakı və ya dəhlizdəki yardımçı lövhəyə asmaq olar. Mümkün olarsa, şagirdlərin esselərinin sərgisini təşkil etmək olar. İşlərin yanında gizli səsvermə üçün dəlikli qutu qoyulur. Digər siniflərin şagirdləri 2–3 gün ərzində sinfin işləri ilə tanış olaraq, ən yaxşı iş üçün səs verə bilərlər. Əgər gizli səsvermə nəzərdə tutulmuşdursa, bu zaman şagirdlər işlərin üzərində öz adlarını yazmırlar və səsvermə zamanı hər bir essenin üzərində müəllim tərəfindən qoyulmuş nömrələr vərəqlərin üzərində yazılır. Səsvermədə qalib gəlmiş şagirdi «Ən yaxşı esse üçün» fəxri fərmanı ilə təltif etmək olar.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Tolerantlığın özünü büruzə verməsi haqqında şüurlu şəkildə şifahi formada fikirlər qurur, Azərbaycanın ərazisində bütün dinlərin inkişaf etməsi ilə bağlı səbəb-nəticə əlaqələrini müəyyən edir. Lazımi nəticənin əldə edilməsi üçün mətndə sərbəst şəkildə istiqamətlənir.

Yüksək səviyyə. Müəllim tərəfindən təklif edilmiş nümunələrə istinad edərək, tolerantlığın özünü büruzə verməsi haqqında şüurlu şəkildə şifahi formada fikirlər qurur, təklif edilən nümunələrə əsasən Azərbaycanın ərazisində bütün dinlərin inkişaf etməsi ilə bağlı səbəb-nəticə əlaqələrini müəyyən edir. Mətndə sərbəst şəkildə istiqamətlənir.

Orta səviyyə. Müəllimin köməyi ilə insanın həyatında tolerantlığın əhəmiyyəti haqqında şifahi fikirlər qurur, Azərbaycanın ərazisində dinlərin inkişaf etməsi ilə bağlı əvvəllər müəyyən edilmiş səbəb-nəticə əlaqələrini göstərir. Mətndə qismən istiqamətlənir.

Aşağı səviyyə. Hazır informasiyanı tapır və götürür. Mətndən nümunələrdən istifadə edərək, tolerantlıq anlayışının ayrı-ayrı fraqmentlərini söyləyir, əsas dinlər haqqında təsəvvürə malikdir.

Mövzu 14	Mövhumatçılıq (1-ci dərs)
Standart	3.3.3. Dini dəyərlərlə xurafatı fərqləndirir.
Təlim məqsədi	Dini dəyərləri mövhumatçılıqdan fərqləndirir.
İnteqrasiya	A.d. 1.2.1.; İnf. 4.1.2.
Təlim forması	Kollektivdə iş, fərdi iş
Təlim üsulu	Müzakirə, diskussiya
Resurslar	Dərslik, illüstrasiyalar, şəkillər

Dərsin gedişi

Motivasiya. Şagirdlər mətnin birinci abzasını oxuyurlar. Müəllim:

– Hekayədə nədən bəhs edilir? (Uşaqların cavabları).

– Rəfiqələrdən biri hansı mövhumata (inanclara) inanırdı? (Uşaqların cavabları ...)

– Nə üçün o, alış-verişə getmədi?

Tədqiqat sualı. Mövhumat nədir? Mövhumata inanmaq olarmı? Nə üçün?

Tədqiqatın aparılması. 51-ci səhifədəki 1-ci tapşırıq yerinə yetirilir.

«Mövhumat» sözünün leksik mənası müəyyən edilir. Müəllim:

– İnsanlar əvvəllər müəyyən bir hadisəni müşahidə edir və onları yadda saxlayırdılar. Bu halların və hadisələrin təkrarlandığı təqdirdə insanlar hesab edirdilər ki, bu heç də təsadüfi deyildir və onlara sirli bir məna verilirdi.

– Elmi biliklərin kifayətsizliyi və müşahidə edilən hadisələri düzgün izah etmək qabiliyyətinin olmaması mövhumat və xurafatın yaranmasına gətirib çıxarırdı.

– Mövhumat uzun illər ərzində nəsildən-nəslə ötürülür. Baxın, məsələn, sizlərdən kimisə asqıranda siz nə deyirsiniz? – Sağlam ol. İnsanlar hesab edirdilər ki, insan asqıranda pis ruh onun bədənindən qovulur və onun bədənə təkrar yerləşməməsi üçün müqəddəs ifadəni söyləmək lazımdır: Sağlam ol!

– Daha hansı inancları və mövhumatları nümunə qismində söyləyə bilərsiniz? (Uşaqların cavabları ...)

– Siz necə düşünürsünüz, sadaladığınız mövhumatlar nə üçün meydana gəlmişdir?

Qeyd. *Müəllim şagirdlərin ehtimal edilən suallarına cavab vermək üçün gündəlik həyatımızda rast gəldiyimiz inanc və mövhumatların mümkün izahı ilə əvvəlcədən tanış olmalıdır.*

Məsələn:

1. Duz dağılarsa, mübahisə baş verəcəkdir (qədim zamanlarda duz qızıl kimi qiymətləndirilirdi və bu səbəbdən də onu yalnız varlı insanlar ala bilirdi).
2. İnanclara görə əsnəmək zərərlidir və əsnəyərkən ruhun açıq ağızdan çıxmaması üçün ağzı əllə örtmək lazımdır.

Müəllim izah edə bilər:

– Bizim orqanizmimizdə çox miqdarda karbon qazı toplandığı zaman biz bu qazdan azad olmağa tələsir və əsnəməyə başlayırıq. Bu zaman orqanizmimiz oksigenlə zənginləşir və gümrah oluruq. Ən başlıcası isə əsnəyən zaman ağızın örtülməsi cəmiyyətdə mədəni davranışın əlamətidir.

Mətnlə iş. Müəllim:

– «Mövhumat nədir?» başlığını oxuyun. Kiçik, qara tüklü canlı ilə bağlı yaranmış mövhumatın təsvirini mətndə tapın. Əlbəttə, bu, pişikdir.

Müəllim:

– Belə ki, əgər qara pişik sizin qarşınızdan ötüb keçmişdirsə, gülümsəyin və yolunuza davam edin. Bu yalnız mövhumatdır, yaxşı əhvali-ruhiyyə isə həyatdan zövq almağa kömək edəcəkdir.

Əgər siz dərsin gedişində şagirdlərin yorulduğunu hiss etsəniz, fiziki təmrinlər üçün fasilə vermək və ya onlara oyun oynamaq təklif etmək lazımdır. Hər bir oyun yalnız rahatlaşdırıcı deyil, həm də ibrətamiz xarakter daşımalıdır.

Müəllim:

– Gəlin oynayaq. Mən məktəbin ərazisində qara pişik gizlətmişəm. (Oyuncağı məktəb kitabxanasında gizlətmək daha yaxşı olardı.) Siz onun harada ola biləcəyini tapmalısınız.

– Sizin hər biriniz məktəbdəki otaqların və kabinetlərin yerləşdiyi yeri bilirsiniz. Hər bir cütlük kabinet və ya otağın adını çəkəcəkdir. Əgər adıçəkilən otaq pişiyin gizlədildiyi yerə yaxın olarsa, mən «isti», uzaq olduqda «soyuq», tamamilə yaxın olduqda isə «çox isti» deyəcəyəm.

Cütlüklərin iştirakının ardıcıllığı püşkatma ilə müəyyən edilir. Gizlədilmiş oyuncağın olduğu yeri dəqiq tapan tərəf qalib gəlir. Müəllim tənəffüsdə şagirdlərlə kitabxanaya gedir və gizlədilmiş oyuncağı – qara pişiyi tapır.

Qeyd. *Bu oyun müəllimə şagirdlərin məktəbdə nə qədər yaxşı istiqamətləndiklərini müəyyən etməyə imkan verir.*

İllüstrasiyalarla iş. Verilmiş şəkillərdə təsvir edilmiş inanc və mövhumatları söyləyin. Onlarda hansı hadisələrin əks olunduğunu təsvir edin. Həmin hadisələr hansı mənfi nəticələrə malik ola bilər?

Ümumiləşdirmə və nəticələrin çıxarılması. İnanc və mövhumatların müzakirə edilməsindən sonra müəllim tədqiqat sualına qayıdır və mətndə olan mövhumat nümunələrini, eləcə də şagirdlərin bu və ya digər hallarda qarşılaşdıqları mövhumat nümunələrini müqayisə edir. O, siniflə birlikdə əldə edilmiş məlumatları ümumiləşdirir. Müəllim aşağıdakı sualları verə bilər:

– Siz indi hansı xalq inanclarını və mövhumat nümunələrini bilirsiniz?

– Onlara necə münasibət bəsləmək lazımdır?

– Mövhumat insanların həyatına necə təsir göstərir?

– Mövhumat nədir?

Müəllim yekunlaşdırır:

– Deməli, mövhumat dində, elmi ədəbiyyatda öz əsasını tapmayan əlamətlərə, nişanələrə olan inamdır.

Ev tapşırığı. 51-ci səhifədəki 3-cü tapşırığı yerinə yetirmək təklif edilir, tapşırıqda mövhumat nümunəsi təsvir edilməlidir. Şagirdlər bir həftə ərzində onları əhatə edən insanları, onların davranışlarını müşahidə etməli və tapşırıqda qeyd edilən mövzuda mətn tərtib etməlidirlər. Yerinə yetirilmiş işi sinif saatında müzakirə etmək olar.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 14	Mövhumatçılıq (2-ci dərs)
Standart	3.3.3. Dini dəyərlərlə xurafatı fərqləndirir.
Təlim məqsədi	Mövhumatçılığın zərərli cəhətlərini fərqləndirir.
İnteqrasiya	A.d. 1.2.1.; İnf. 4.1.2.
Təlim forması	Fərdi iş
Təlim üsulu	Müzakirə, «Beyin həmləsi»
Resurslar	Dərslik, illüstrasiyalar, şəkillər

Dərsin gedişi

Motivasiya. Müəllim:

– Dərsliyin 52-ci səhifəsindəki şəklə diqqətlə baxın.

Tədqiqat sualı. Qızların təhsil almaması cəmiyyətin inkişafına necə təsir edərdi?

Tədqiqatın aparılması (*Cütlərlə iş).* Müəllim iş vərəqləri paylayır. Plan üzrə tədqiqat işi aparılır.

Qeyd: *«Beyin həmləsi» üsulu təklif edilən məsələ üzrə birgə axtarışı nəzərdə tutur. Tədricən açıqlanan, tənqid olunmayan və qiymətləndirilməyən istənilən ideyalar qəbul edilir. İstənilən mühakimədən müvafiq nəticə çıxarılır. Müəllim ən məhsuldar ideyaları irəli sürərək şagirdləri sonrakı iş üçün həvəsləndirir. Müəllim bütün ideyaları yazı lövhəsinə və ya flipçarta yazır. Bütün ideyalar müzakirə olunur.*

Mətnlə iş. Müəllim:

– Mətndə qadınların təhsil almaq hüquqlarının məhdudlaşdırılmasından bəhs edən hissəni tapın.

– Azərbaycanda qadının təhsil alması ilə bağlı problemi ilk dəfə kim həll etmişdir? Bu, cəmiyyətin həyatında öz əksini necə tapmışdır?

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim tədqiqat sualına bir daha qayıdaraq, şagirdlərin diqqətini mövhumatın gətirib çıxardığı nəticələrə yönəldir. Müəllim öyrənilən bütün materialları şagirdlərlə birlikdə ümumiləşdirir. Nəticələr müəllim tərəfindən yazı lövhəsində tərtib edilir və ya dəftərdə yazılır.

Ev tapşırığı. 52-ci səhifədəki tapşırıqlar yerinə yetirilir.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. Mövhumatın təzahürünə dair şəkilləri və vəziyyətləri təhlil edir, səciyyəvi xarakter daşıyan xüsusiyyətləri və nəticələri müəyyən edir. Əsas və ikinci dərəcəli göstəriciləri ayırır. Mövhumatın cəmiyyətin həyatındakı rolunu xarakterizə edir.

Yüksək səviyyə. Mövhumatın təzahürünə dair şəkilləri və vəziyyətləri təsvir edir, bəzi nəticələri göstərir. Əsas və ikinci dərəcəli göstəriciləri ayırır. Mövhumatın cəmiyyətin həyatındakı rolunu xarakterizə edir.

Orta səviyyə. Əvvəllər öyrənilmiş məlumatlara istinad edərək mövhumatın təzahürünə dair şəkilləri və vəziyyətləri təsvir edir. Dərslikdən nümunələrin əsasında mövhumatın cəmiyyətin həyatındakı mənfi rolunu müəyyən edir.

Aşağı səviyyə. Mövhumatın təzahürünə dair hazır informasiyanı tapır və götürür, şəkilləri təsvir edir, əvvəllər öyrənilmiş faktları nümunə göstərir.

III. SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT

Mövzu 15	Onurğa sütunu (1-ci dərs)
Standart	1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir.
Təlim məqsədi	İnsanın skeletinin funksiyalarını sadə şəkildə izah edir.
İnteqrasiya	İnf. 2.1.1.; 2.2.2.; Tex. 1.3.2.; F.t. .1.1.1.
Təlim forması	Fərdi iş, cütlərlə iş
Təlim üsulu	Praktiki iş, «Ağıl xəritəsi» texnologiyası
Resurslar	Dərslik, paylama materialı (makaron, yapışqan, karton), iş vərəqləri, «Ağıl xəritəsi»

Dərsin gedişi

«Onurğa sütunu» mövzusunu öyrənməyə bir həftə qalmış şagirdlərə mövzusu üzrə «Ağıl xəritəsi»ni doldurmaq təklif edilir. Nümunə A3 formatlı vərəqdə yerinə yetirilir. Müəllim bu araşdırmanı apararkən şagirdlərin seçilmiş mövzu ilə bağlı əvvəlki bilikləri haqqında məlumat əldə edəcəkdir. Nəzərdə tutulan dərsə bir həftə qalmış dərsdə və bir müddət sonra ümumiləşdirici dərsdə «Ağıl xəritəsi» üç dəfə doldurulur.

Bu texnologiya informasiyanın toplanması və möhkəmləndirilməsi alqoritmini müəyyən edir, eləcə də şagirdlərə öz nailiyyətlərini əyani şəkildə qiymətləndirməyə və nəticənin yaxşılaşdırılması üzərində işləməyə imkan verir.

Motivasiya. Elektron resurslar mövcud olduğu zaman müəllim tikilməkdə olan hazır karkaslı çoxmərtəbəli binanın təsvirini göstərir.

– Bu nədir? (Müəllim karkası göstərir). Uşaqların cavabları yazı lövhəsinə yazılır (armatur, mil, dayaq, karkas, skelet). Karkas anlayışı yaranır (yüklənməyə tab gətirən, möhkəmlik və sabitliyi təmin edən sistem).

Tədqiqat sualı. Bizim orqanizmimizin belə bir sistemə ehtiyacı varmı? (Elektron resurslar mövcud olduğu zaman müəllim həmin istinaddan istifadə edə bilər). https://www.youtube.com/watch?v=n9qGugIHZkY

Tədqiqatın aparılması. Müəllim:

– Özünüzə baxın. Başınıza, əllərinizə, ayaqlarınıza, bədəninizə toxunun.

– Dərinizin altında nə hiss edirsiniz? (Sümüklər, skelet, əzələlər).

– Təsəvvür edin ki, bizim sümüklərimiz, skeletimiz yoxdur. Biz ayaq üstə dura, gəzə, otura bilərikmi? (Yox).

– Deməli, skelet bizə nə üçün lazımdır? (Skelet – dayaqdır. Skelet əzələlərlə birlikdə hərəkəti və bədənin vəziyyətini təmin edir).

Dərsliklə iş. 2 dəqiqə ərzində skeleti və onun hissələrini nəzərdən keçirin. Skeletin hissələrinin yerləşməsini yadda saxlayın. 2 dəqiqə sonra dərslikləri örtün və tapşırığın yerinə yetirilməsinə başlayın.

Cütlərlə iş. Müəllim hər bir cütlüyə skeletin kəsilmiş hissələrini paylayır və kəsilmiş hissələri vərəqə yapışdıraraq skeleti yığmağı xahiş edir.

«Mister Skeleton»a kömək edin!

Uşaqlar, «mister Skeleton» dağılmışdır və onun hissələri qarışmışdır. Onun sizin köməyinizə ehtiyacı var. Skeletin bütün hissələrini yığmaqda «mister Skeleton»a kömək edin.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Yazı lövhəsində qeydlər yazılmışdır: kəllənin skeleti, bədənin skeleti, ətrafların skeleti, onurğa, qabırğalar, yuxarı ətraflar, aşağı ətraflar. Müəllim uşaqlara müxtəlif makaron məmulatlarından (spagetti, balıqqulağı, makaronlar) insanın skeletini yaratmağı təklif edir. Makaronlar müxtəlif formalı olmalıdır. Bərkitmək üçün yapışqan və ya qaynar tapançadan istifadə etmək olar.

Hərəkətlərin ardıcıllığı:

1. Rəngli kartonun üzərinə makaronlardan skeletin hissələrini yerləşdirin.
2. Onları yapışqan və ya qaynar tapançanın köməyi ilə bərkidin.
3. Skeletin hissələrinə oxlar çəkin və qeydləri (kəllənin skeleti, bədənin skeleti, ətrafların skeleti, onurğa, qabırğalar, yuxarı ətraflar, aşağı ətraflar) yazın. Şagirdlər istənilən qeydləri seçə bilər.

Dərsliklə iş. Dərsliyin 55-ci səhifəsindəki 3-cü və 4-cü tapşırıqlar yerinə yetirilir.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 15	Onurğa sütunu (2-ci dərs)
Standart	4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.
Təlim məqsədi	Sağlamlığın vəziyyətinin onurğa sütununun vəziyyətindən asılılığını izah edir. Zərərli vərdişlərin onurğa sütununa (əyri oturmaq, beli bükmək və s.) mənfi təsirini izah edir.
İnteqrasiya	F.t. 1.1.1.; İnf. 2.1.1.
Təlim forması	Fərdi iş, cütlərlə iş
Təlim üsulu	Praktiki iş, «Doğrudur-səhvdir» oyununun texnologiyası
Resurslar	Dərslik, paylama materialı, iş vərəqləri

Dərsin gedişi

Motivasiya. Müəllim «Doğrudur-səhvdir» oyununu oynamağı təklif edir.

– Əgər mən doğru fikir söyləyirəmsə, siz otursunuz, əgər mən səhv fikir söyləyirəmsə, addımlayırsınız: 1. Dərs məşğələsi zamanı əhvali-ruhiyyənizə nəzarət etmək vacib deyil. 2. Müəllimə qulaq asmaq və diqqətli olmaq lazımdır. 3. Dərs məşğələlərində meyvə və tərəvəz yemək olar. 4. Fiziki terminlər yerinə yetirildiyi zaman bir-birini itələmək olar. 5. Dərsdə bərkdən danışmaq və gülmək olar. 6. Portfel və ya bel çantasını hər iki çiyində, beldə daşımaq olar. 7. Partada irəli doğru əyilərək oturmaq lazımdır. 8. Balerinanın qaməti (duruşu) gözəl olmalıdır.

Tədqiqat sualı. Qamət nədir? Gözəl qamətə necə sahib olmaq olar?

Tədqiqatın aparılması. Müəllim masanın arxasında oturaraq donqarlaşmış vəziyyətdə irəli əyilir.

– Baxın, mən necə otururam? Mənim duruşum doğrudurmu? (Xeyr).

– Necə oturmaq lazım olduğunu göstərin. Mən sizdən bir xahiş edirəm. Kiminsə səhv oturduğunu görən kimi sol əlinizi qaldırın. Bu, «düzgün otur» deməkdir.

– Qalxmış əli görən hər kəs diqqət yetirməli və düzgün oturmalıdır.

– Lüğətdən istifadə edin (izahlı lüğət, leksik lüğət, uşaq lüğəti) və «qamət» sözünün mənasını dəftərə yazın.

Dərsliklə iş. Müəllim:

– Dərsliyin şəkillərinə baxın. Hansı şəkillərdə yanlış poza göstərilmişdir? Poza – insan bədəninin qəbul etdiyi vəziyyətdir.

Tapşırıq yerinə yetirilir: «mister Skeleton»un orqanları əks olunmuş şəkillər şagirdlərə paylanır.

Cütlərlə iş. Müəllim uşaqları cütlüklərə bölür və onlara «mister Skeletonun» müvafiq orqanlarını yapışdırmaq tapşırığı verir.



ürək



qaraciyər



böyrək



mədə

ağciyər



bağırsaq

– Doğrudur, kəllə beyini, onurğa və qabırğalar isə ürək ilə ağciyərləri qoruyur.
– İşinizin nəticələrini və dərsliyin şəkillərini müqayisə edin. Bu cür pozada hansı orqan zərər görür?
– Doğrudur, ürək və ağciyərlər. Nəfəs almaq çətinləşəcək və ürəyə düşən yük artacaqdır.
– Deməli, hər zaman doğru pozanı qəbul etmək və duruşa nəzarət etmək lazımdır.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Dərsliyin 55-ci səhifəsindəki 1-ci və 2-ci tapşırıqları yerinə yetirin.

Ev tapşırığı. Dərsliyin 55-ci səhifəsindəki 5-ci tapşırıq. Bu tapşırığın yerinə yetirilməsi üçün müəllim uşaqlara köməkçi sözlər təklif edir. «Söz bankı» (köməkçi sözlər) «Kömək lövhəsi»nə asılır.

SÖZ BANKI

Beli əyməmək, əzələləri möhkəmləndirmək, kürək, çanta, hamar səth, sərt yataq, gimnastika, bədənin vəziyyəti, stulda əyləşmək, idmanla məşğul olmaq

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, skeletin hissələrini tanıyır və fərqləndirir. Dayaq və hərəkət anlayışlarını ümumiləşdirir, doğru duruş və sağlam həyat tərzi arasındakı qanunauyğunluğu müəyyən edir. Sağlamlığın qorunub saxlanmasına yönəldilmiş gigiyenik tələblər və qaydaların yerinə yetirilməsi zərurətini əsaslandırır. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir. Öyrənilmiş materialda əsas və ya ikinci dərəcəli müddəaları ayırır, skeletin hissələrini tanıyır, nümunələrin əsasında insan orqanizminin skeletinin ayrı-ayrı hissələrinin quruluş və funksiyalarını göstərir. Dayaq və hərəkət anlayışlarını müəyyən edir. Sağlamlığın qorunub saxlanmasına yönəldilmiş bir sıra gigiyenik tələbləri göstərir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müəyyən edir. Öyrənilmiş materialda müddəaların adını çəkir, əsas və ikinci dərəcəli hissələrə bölmədən skeletin ayrı-ayrı hissələrinin adlarını sadalayır, bəzi funksiyaları qeyd edir. Dayaq və hərəkət anlayışlarını ümumiləşdirir, sağlamlığın qorunub saxlanmasına yönəldilmiş bəzi qaydaları fərqləndirir, ayrı-ayrı qaydaların yerinə yetirilməsini göstərir. Əvvəllər işlənmiş məsələlərin canlandırılması səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Aşağı səviyyə. Daha əvvəl müəyyən edilmiş problemi, tədris fəaliyyətinin məqsədini göstərir. Dərsliyin şəkilləri və mətninə əsaslanaraq, skeletin bəzi hissələrinin adını çəkir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan məlumatı müəyyən edir, sağlam həyat tərzi üçün doğru duruşun əhəmiyyəti haqqında hazır informasiyanı tapır və götürür. Müəllimin nümunələrinə əsaslanaraq, tək-tək nümunələr haqqında məlumat verir.

Mövzu 16	**İnsanın daxili orqanları (1-ci dərs)**
Standart	1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir.
Təlim məqsədi	İnsanın ürəyinin və ağciyərlərinin funksiyalarını sadə şəkildə izah edir.
İnteqrasiya	İnf. 2.2.1.; F.t. 1.1.2.; Tex. 1.3.4.
Təlim forması	Fərdi iş, cütlərlə iş
Təlim üsulu	İllüstrativ-axtarış, eksperiment
Resurslar	Bədənin hissələrinin və daxili orqanların təsviri ilə şəkillər (2 nəfər üçün bir dəst), alternativ variant – insan orqanlarının adları yazılmış zərf; plastmas şüşələr (şirə üçün borucuqlar, qrup üçün 2 ədəd), hər bir şagird və ya hər bir cütlük üçün süngər, plastilin, yapışdırıcı lent və ya izolyasiyaedici lent; «beyin» pazlı. ***Qeyd:*** *Bu resurslar əvvəlcədən hazırlanmalıdır.*

Dərsin gedişi

Motivasiya. Müəllim insan bədəninin orqanları arasındakı mübahisədən bəhs edən dərsliyin giriş mətnini oxuyur. Oxuma prosesi tədqiqat sualı ilə başa çatır.

Tədqiqat sualı. Hansı orqan daha vacib və əhəmiyyətlidir?

Tədqiqatın aparılması (*Cütlərlə iş).* Müəllim:

– Bir-birinizə baxın. Bədənin hansı hissələrini görürsünüz? (Əllər, ayaqlar, bədən, baş).

– Hər bir cütlüyə üzəri yazılmış təsvirlərlə zərf və ya sözlər-adlarla zərf verilmişdir. Siz bu təsvirləri (sözləri) 2 qrupa ayırmalı və seçimi (bədən, ürək, beyin, baş, mədə, əl, ayaq, ağciyərlər, boyun, böyrəklər) hansı əlamətə görə həyata keçirdiyinizi izah etməlisiniz.

– Gəlin yoxlayaq. Hər bir cütlük cavabları səsləndirir. (I qrup – əllər, ayaqlar, baş, bədən; II qrup – mədə, ağciyərlər, ürək, beyin, böyrəklər.)

– Kim başqa cür düşünür? Cavabların bütün variantları axıra kimi dinlənilir.

– Siz hansı əlamətə görə onları qruplara ayırmısınız? Nə üçün?

– Daxili orqanları bədənin hissələrində necə fərqləndirmək olar? Sübut et. (Biz daxili orqanları görmürük, onlar bədənin daxilində yerləşir, bədənin hissələrini isə görürük.)

Dərsliklə iş. Müəllim:

– Dərslikdəki şəklin köməyi ilə insanın daxili orqanları ilə tanış olun. Onları kartın üzərindəki təsvirlərlə müqayisə edin. Ürək, böyrəklər, mədə, qaraciyərin (sözlər yazı lövhəsində yazılmışdır) harada yerləşməsini yadda saxlayın. Tapşırığın yerinə yetirilməsi üçün 2 dəqiqə ayrılır.

Müəllim daxili orqanların adları (ağciyərlər, ürək, qaraciyər, mədə-bağırsaqlar, damarlar) haqqında suallar verir.

Qruplarla iş. Müəllim:

– Qruplarda iş qaydalarını yada salaq (birlikdə çalışmaq, pıçıltı ilə müzakirə etmək, bir-birinin sözünü kəsməmək, kapitan seçmək, kapitanın bütün sinfə təqdim edilməsi haqqında razılığa gəlmək).

– Siz necə düşünürsünüz, hansı orqan digər orqanların işini idarə edəcəkdir? (Beyin). Beyində çox sayda şöbə vardır. «Beyin» pazlını yığmağa çalışaq.

Hazır pazlı halqa şəklində bükülmüş kağız zolağına yapışdırmaq və rol oyunları üçün baş örtüyü kimi istifadə etmək olar.

– Beyin bütün orqanları, o cümlədən tənəffüs orqanlarını idarə edir. Dərslikdə şəklə baxın. Tənəffüs orqanını tapın. (Doğrudur, ağciyərlər).

Eksperiment. Müəllim:

– Mən əlimi yuxarı qaldıran zaman siz dərindən nəfəs alırsınız və tənəffüsü saxlayırsınız. Mən saymağa başlayıram. Nəfəs vermək istədiyiniz zaman siz mənim söylədiyim rəqəmi yadda saxlayır və nəfəs verirsiniz. Beləliklə, biz nə qədər havasız qala biləcəyimizi müəyyən edirik.

– Yadda saxlayın ki, nəfəsi zorla saxlamaq olmaz.

Qeyd: *Elektron resurslar olduğu zaman elektron saniyəölçəni yazı lövhəsinə qoymaq olar. Müəllim bu halda saymır, şagirdləri müşahidə edir.*

– Bax, gördüyünüz kimi, biz uzun müddət havasız qala bilmərik. Nə üçün? (Çünki yaşamaq üçün bizim orqanizmimizə oksigen lazımdır).

– Bizim ağciyərlərimiz süngərə bənzəyir. Süngəri götürün və diqqətlə nəzərdən keçirin.

– Ağciyərlərimizin necə işlədiyini bilmək istəyirsinizmi? O zaman daha bir eksperiment keçirək.

Qruplarla iş. Eksperiment.

1. 2 borucuq götürün və hər bir borucuğun qatlanmış ucuna hava balonu keçirin.
2. Hər bir balonu skoç və ya izolyasiyaedici lentlə bərkidin.
3. Borucuqları şəkildə göstərildiyi kimi bir-birinə birləşdirin (hərəkətlərin ardıcıllığını müəllim printerdə çap edə və hər bir qrupa paylaya bilər).
4. Yapışdırılmış borucuqları boş şəffaf plastik şüşəyə salın. Borucuqların ucları şüşənin boğazından 2–3 sm yuxarıda qalmalıdır. Şüşənin boğazına plastilin yapışdırın, borucuqları elə bərkidin ki, şüşəyə hava daxil olmasın və borucuqlar yer dəyişdirməsin.

Qrupun bir nümayəndəsi hər iki borucuğa hava üfürür. Müəllim:

– Bax, bizim ağciyərlərimiz bu prinsip üzrə işləyir. Gigiyena qaydalarını unutmayın. Yalnız bir nəfər borucuqlara hava üfürə bilər.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Dərsliyin 60-cı səhifəsindəki 1-ci və 4-cü tapşırıqlar yerinə yetirilir.

Ev tapşırığı. Dərsliyin 60-cı səhifəsindəki 2-ci və 3-cü tapşırıqlar yerinə yetirilir.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 16	**İnsanın daxili orqanları (2-ci dərs)**
Standart	1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir.
Təlim məqsədi	Qan-damar, həzm və ifrazat orqanlarının funksiyalarını sadə şəkildə izah edir.
İnteqrasiya	İnf. 2.2.2.
Təlim forması	Kollektivlə iş, cütlərlə iş, qruplarla iş
Təlim üsulu	İllüstrativ-axtarış, eksperiment
Resurslar	Dərslik, rezin armud, damcıtökən

Dərsin gedişi

Motivasiya. Eksperiment.

Cütlərlə iş. Müəllim uşaqlara nəbzi dinləməyi təklif edir.

– Yoldaşınızın sol əlini götürün və sağ əlinizin barmaqları ilə baş barmaqdan yuxarı sahəyə basın. (Müəllim üsulu göstərir.)

– Nə eşidirsiniz? Bu işləyən sizin ürəyinizdir. Ürəyinizin harada olduğunu göstərin. (Sinədə, döş qəfəsində.)

Tədqiqat sualı. Qan necə hərəkət edir? Qəbul etdiyimiz qida maddələri qana necə keçir?

Tədqiqatın aparılması. Eksperiment:

1. Müəllim rezin armudu və damcıtökəni götürür.

– Təsəvvür edin ki, bu armud sizin ürəyinizdir, damcıtökən isə damarlardır.

2. Rezin armudu damcıtökənə keçirir.
3. Kolbaya rəngli maye tökür (təbii qida boyaq maddəsi ilə su).
4. Armudu sıxır və havasını çıxarır.
5. Damcıtökən ilə armudu suyun olduğu kolbaya sallayır və növbə ilə suyu yığır və boşaldır.

Eksperimentin nəticəsi. Müəllim:

– Siz nə müşahidə etdiniz? (Armud sıxılır və açılır, su damcıtökənə daxil olur və oradan çıxır).

– Bax, bizim ürəyimiz belə işləyir. O, yığılaraq qanı damarlara vurur. Damarlar bizim bütün orqanlarımızı qidalandıran qanı daşıyır.

– Necə düşünürsünüz, qan qidalanmanı paxlava, konfet, dolma və ya emal olunmuş qida şəklində daşıyır?

– Emal olunmuş qida qana haradan daxil olur? (Həzm orqanlarından).

Dərsliklə iş. Müəllim:

– Həzm orqanlarını dərsliyin 59-cu səhifəsində nəzərdən keçirin.

– Həzm sisteminin orqanları haqqında oxuyun. Dərslikdəki şəkilləri diqqətlə nəzərdən keçirin.

– Mədə harada yerləşir? Bəs yoğun və nazik bağırsaq? (Qarında, qarın boşluğunda.)

– Qidalandırıcı maddələr qana necə daxil olur? (Qida parçalanır və nazik bağırsaqdan qana sorulur.)

– Mədədən yuxarıda nə yerləşir? (Qaraciyər.)

– Qaraciyərinizin yerləşdiyi yeri göstərin.

– Siz qaraciyərin toksinləri – zərərli maddələri zərərsizləşdirməsi haqqında oxumusunuzmu? Əgər qaraciyər toksinləri – zərərli maddələri zərərsizləşdirməsə, nə baş verəcəkdir? (Bütün bu maddələr orqanizmimizi zəhərləyəcəkdir.)

– Qaraciyər həmçinin öd hasil edir, öd bağırsaqlara daxil olur və qidanın həzm olunmasına kömək edir. Həzm olunmamış qida orqanizmdən düz bağırsaq vasitəsilə ixrac olunur.

– Bəs artıq maye orqanizmdən necə xaric olunur? Artıq mayenin ixrac olunmasını həyata keçirən orqanlar necə adlandırılacaqdır? (İfrazat orqanları.)

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Dərsliyin 60-cı səhifəsindəki 2-ci və 3-cü tapşırıqlar yerinə yetirilir. İşin yerinə yetirilməsinə 2 dəqiqə ayrılır. Müəllim cavab variantlarını oxuyur və şagirdlərdən müvafiq kartları qaldırmağı xahiş edir. Əgər şagird cavabla razıdırsa, o, yaşıl kartı, razı deyilsə, qırmızı kartı qaldırır. Səhv cavab vermiş şagirdlərə çatışmazlıqların aradan qaldırılması üçün əlavə tapşırıqlar verilir.

Ev tapşırığı. Dərsliyin 60-cı səhifəsindəki 5-ci tapşırıq.

Yaradıcı tapşırıq. Hər hansı bir daxili orqan haqqında nağıl yazın.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, daxili orqanları

və bədənin hissələrini tanıyır və fərqləndirir, faktların və nümunələrin əsasında insanın hər bir orqanının quruluşunu və funksiyalarını göstərir. Orqanlar və orqanlar sistemi anlayışlarını ümumiləşdirir, orqanlar arasındakı qarşılıqlı əlaqəni müəyyən edir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda daxili orqanları və bədənin hissələrini tanıyır və fərqləndirir, insanın hər bir orqanının funksiyalarını göstərir. Orqanlar və orqanlar sistemi anlayışlarını ümumiləşdirir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müəyyən edir. Əsas və ikinci dərəcəlilərə ayırmadan, öyrənilmiş materialda müddəaları göstərir, bədənin ayrı-ayrı hissələrinin adını çəkir, bəzi funksiyaları qeyd edir. Əvvəllər işlənmiş məsələlərin canlandırılması səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Aşağı səviyyə. Daha əvvəl müəyyən edilmiş problemi, tədris fəaliyyətinin məqsədini göstərir. Dərsliyin şəkilləri və mətninə əsaslanaraq, bədənin bəzi hissələrinin adını çəkir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan məlumatı müəyyən edir, sağlam həyat tərzi üçün qidalanma rejiminə əməl olunmasının əhəmiyyəti haqqında hazır informasiyanı tapır və götürür. Müəllimin nümunələrinə əsaslanaraq, tək-tək nümunələr haqqında məlumat verir.

Mövzu 17	**Orqanizmi necə qorumalı? (1-ci dərs)**
Standart	4.1.1. Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir. 4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.
Təlim məqsədi	Əvvəlki siniflərdə sağlamlığın qorunmasına dair əldə etdiyi biliklərə (gün rejimi, düzgün qidalanma, geyim və s.) istinad edərək kiçik təqdimatlar edir. Stress, əsəb və gərginliyin orqanizmin sağlamlığı üçün təhlükəli olmasını izah edir.
İnteqrasiya	A.d. 1.1.1.; T.i. 2.1.4.; İnf. 1.2.3.
Təlim forması	Qruplarla iş, fərdi iş
Təlim üsulu	Qismən araşdırma, müstəqil iş metodları
Resurslar	Dərslik, iş vərəqləri, qlobus

Dərsin gedişi

Motivasiya. Müəllim şagirdləri 3 qrupa bölür. Hər bir qrupa tapşırığın olduğu iş vərəqi təklif edir.

Tədqiqat sualı. Orqanizmin sağlamlığını qoruması üçün hansı amillər əsasdır?

1-ci qrup – Siz düşbərə bişirməli, feyxoadan kompot hazırlamalı, çay dəmləməli və kartof qaynatmalısınız. Bu yeməklərin hamısı üçün hansı tərkiblər ümumi olacaqdır?

2-ci qrup – Siz 2 dəqiqə ərzində fasiləsiz şəkildə rezin halqanı sıxmalısınız.

3-cü qrup – Siz ərzaq məhsullarını 2 qrupa bölməlisiniz. Qida şəkillərini kəsib cədvəlin müvafiq sütunlarına yapışdırın.

Sağlam və qeyri-sağlam qidalar	
sağlam qidalar	*qeyri-sağlam qidalar*



– Həyat üçün vacib olan varlıq adlarını və fəaliyyətləri göstərən sözlər alınacaqdır.

– Sizin işinizin nəticəsini hansı söz ilə və ya iki sözlə ifadə etmək olar?

Tədqiqatın aparılması. İşin yerinə yetirilməsinə 2 dəqiqə ayrılır. Qrupun nümayəndəsi işin nəticələrini yazı lövhəsinə yazır.

1-ci qrup – Su.

2-ci qrup – Fiziki təmrinlər və istirahət. *(İdman və istirahət.)*

3-cü qrup – Sağlam qida. *(Doğru qidalanma.)*

1-ci qrup bu sözü yazmışdır: su.

– Qlobusa baxın. Su yer kürəsinin çox hissəsini təşkil edir. Bizim orqanizmimizdə də elədir. Orqanizmimizin 80%-i sudan ibarətdir.

Dərsliklə iş. Müəllim:

– Dərslikdəki şəklə baxın. Oğlana bir gündə nə qədər su lazımdır (8 stəkan).

– Ölçü stəkanına şüşədən 200 işarəsinə qədər su süzün. Deməli, bir stəkana 200 ml su yerləşir.

– Bizim hər birimizin hər gün nə qədər su içməli olduğumuzu hesablayın. (Doğrudur, gündə ən azı 1600 ml.) İsti günlərdə isə sutkada 2 litrə qədər su içmək lazımdır.

2-ci qrup bu sözləri yazmışdır: fiziki temrinlər və istirahət.

– Elektron resurslar mövcud olduğu zaman müəllim linkə keçir və bədən tərbiyəsi dəqiqəsini daxil edir.

– Fiziki yüklənmələri aktiv istirahətlə birləşdirmək lazımdır. Aktiv istirahət – yorucu olmayan gəzintilər, sevimli işlə məşğul olmaq, dostlarla ünsiyyətdə olmaqdır. Bir də, əlbəttə ki, yuxu. Biz sutkada ən azı 8 saat yatmalıyıq.

Dərsliyin 62-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir.

3-cü qrup bu sözləri yazmışdır: sağlam qida.

– Deməli, biz yalnız faydalı məhsullardan istifadə etməliyik.

Qruplarla iş. Müəllim:

– Piramidanı doldurun. Ən vacib məhsulu piramidanın ilk pilləsinə qoyun. Ondan yuxarıda isə bizim gündəlik rasionumuzu təşkil edən ərzaq məhsullarını yerləşdirin. Piramidanın 3-cü pilləsində bağda və bostanda yetişən məhsulları yerləşdirin. 4-cü pilləyə ev heyvanlarından əldə etdiyimiz məhsulları qoyun. Ən üstdə isə çox az miqdarda istifadə edilməli olan qidaları yerləşdirin.

– Sizin piramidanız təxminən bu cür görünür: 1-ci pillə – su; 2-ci pillə – çörək, yarmalar (düyü, qarabaşaq), makaron məmulatları; 3-cü pillə – meyvə və tərəvəzlər; 4-cü pillə – süd, süd məhsulları, yumurta, ət, balıq; 5-ci pillə – kərə yağı və bitki yağları, şirniyyat.

QİDA PİRAMİDASI

Testin aparılması. *«Stres səviyyəsi».*

Müəllim:

– Elə hallar olur ki, insan bu və ya digər vəziyyətin öhdəsindən gələ bilmir. Bu cür vəziyyət stres adlanır. Stresin yaranmasına münaqişələr, nəzarət oluna bilməyən vəziyyətlər, xəstəliklər və s. səbəb ola bilər.

– Stres vəziyyətində insanda nə baş verir? Onda həyəcan, qorxu, çarəsizlik vəziyyəti müşahidə olunur. Orqanizm bu vəziyyətin öhdəsindən gəlməyə çalışır.

– Ən təhlükəlisi də odur ki, son nəticədə orqanizm zəifləyə və insan xəstələnə bilər.

Təlimat. Uşaqlara aşağıda verilmiş suallara cavab vermək təklif olunur. Müvafiq cavabın qarşısında üstəgəl işarəsi qoyulmalıdır.

Sən son iki həftə ərzində:

1. Məktəbdə summativ qiymətləndirmədən keçmisən.
2. Sinif yoldaşlarınla münaqişə yaşamısan.
3. Məktəbdə məşğələlərə gecikmisən.
4. Səni həyəcanlanmağa məcbur edən hadisələr baş verib.
5. Hansısa bir xəbər səni kədərləndirmişdir.
6. Yarışlarda iştirak etmisən.
7. Sənin xoşuna gəlməyən insanla qarşılaşmısan.
8. Valideynlərinlə mübahisə etmisən.

9. Kütlə qarşısında çıxış etmisən.
10. Dərslərlə həddən artıq yüklənmisən.
11. Ev tapşırığını vaxtında yerinə yetirə bilməmisən.
12. Məktəbdə və ya evdə sənin üzərinə qoyulan öhdəlikləri yerinə yetirə bilməmisən.
13. Bayramın təşkilində iştirak etmisən.
14. Çaşqınlıq hiss etmisən.

Şagirdə özünün üstəgəllərinin sayını toplamaq təklif olunur.
Nəticə:
• 0-dan 5-ə qədər – aşağı stres səviyyəsi;
• 6-dan 10-a qədər – orta stres səviyyəsi;
• 11-dən 14-ə qədər – yüksək stres səviyyəsi.

Streslə hansı mübarizə üsulları mövcuddur? (Bu, sizin təqdimatınızın mövzusu olacaqdır.)

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Dərsliyin 62-ci səhifəsindəki 1, 2, 3-cü tapşırıqlar yerinə yetirilir.

Ev tapşırığı. 1. Uşaqlara işıqfor çəkməyi və işıqforun hər bir rəngində ərzaq məhsullarını yerləşdirməyi təklif edin. Yaşıl rəng – sağlamlıq üçün faydalı məhsullar, sarı – nadir hallarda istifadə edilməli məhsullar, qırmızı rəng – istifadəsi orqanizmə zərər vura biləcək məhsullar.

2. Şagirdlərə «Mən göyqurşağını yeyə bilərəm» iş vərəqini doldurmağı təklif edin. Şagirdlər göyqurşağını düzgün rəngləməlidir, göyqurşağı rəngində qələmlər (sırası ilə) və onlarla yanaşı yerləşən sağlamlıq üçün faydalı məhsullar (məhsulların rəngi göyqurşağının rəngi ilə üst-üstə düşməlidir).

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.



Mövzu 17	Orqanizmi necə qorumalı? (2-ci dərs)
Standart	4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.
Təlim məqsədi	Mobil telefondan və kompüterdən təhlükəsiz istifadə qaydaları haqqında kiçik təqdimatlar edir.
İnteqrasiya	A.d. 1.1.2.; 2.1.1.
Təlim forması	Kollektiv iş, fərdi iş
Təlim üsulu	Problemli sərh metodu
Resurslar	Dərslik, iş vərəqləri

Dərsin gedişi



3 yaş *5 yaş* *böyüklər*

Motivasiya. Müəllim:

– Bu təsvirlərə baxın. Siz bu təsvirləri necə izah edə bilərsiniz?

Şagirdlərin mümkün cavabları dinlənilir.

Tədqiqat sualı. Zərərli şüalanmalara məruz qalmaq uşaqların sağlamlığına necə təsir göstərir?

Tədqiqatın aparılması. Müəllim:

– Böyüklərin beyni ilə müqayisədə uşaqların beyninin radiasiyanı daha çox udduğunu bilirsinizmi? Necə düşünürsünüz, bu, uşaqların sağlamlığına təsir göstərə bilərmi? (Əlbəttə, bilər.)

– Mobil telefondan tez-tez istifadənin gətirib çıxardığı nəticələrlə tanış olun.

– Baş ağrıları, həddən artıq yorğunluq, görmənin azalması, yuxusuzluq, iştahanın azalması.

– Bütün bu simptomlar bizə mobil telefonun istifadəsini minimuma endirmək barədə xəbərdarlıq edir.

Kollektivlə iş. Müəllim:

– Mən bir fikir söyləyəcəyəm, siz isə mobil telefondan istifadə qaydalarını ifadə edəcəksiniz.

1. Müəllimin izahı: Uşağın yaşı və radiasiya. Təxmini cavab: 12–14 yaşı tamam olmayan uşaqlara mobil telefon verməyin (Uşağın beyni mobil radiasiyanın təsirinə dözmək üçün həddən artıq həssasdır).
2. Müəllimin izahı: Metal vasitəsilə daxil olan siqnal daha güclüdür. Təxmini cavab: Bu liftlərdə, avtobuslarda, avtomobildə, qatarlarda istifadəni məhdudlaşdırmaq lazımdır.
3. Müəllimin izahı: Zəif siqnal və ya enerjisi qurtarmış telefon. Təxmini cavab: Telefonun enerjisi qurtardıqda və ya siqnal zəif olduqda telefondan istifadə etmək olmaz. (Bu, telefonun gücünü maksimuma qədər artıracaqdır).
4. Müəllimin izahı: Məktəb və mobil telefon. Təxmini cavab: Məktəbə mobil telefon gətirmək tövsiyə olunmur.
5. Müəllimin izahı: Çarpayının baş tərəfi, yuxu. Təxmini cavab: Mobil telefonları gecələr uşaq otağında, çarpayının baş tərəfində qoymayın.

– Eyni hal kompüter və ya noutbuka da aiddir.

Dərsliklə iş. Müəllim:

– Kompüterin insan orqanizminə zərərli təsiri haqqında oxuyun.

Dərsliyin 64-cü səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Dərsliyin 64-cü səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilir.

Telefonla uzun muddət danışmağın ziyanları adlı siyahı tərtib edin.

Ev tapşırığı.

1. Formalaşdırılmış qaydaları ailənin bütün üzvlərinin tanış ola bilməsi üçün evdə görünən yerdə asın.
2. Dərsliyin 64-cü səhifəsindəki 1-ci və 3-cü tapşırığı yerinə yetirin.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır. Sağlamlığın qorunub saxlanması üçün qidalanma rejiminə riayət olunması zərurətini əsaslandırır. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır. Sağlamlığın qorunub saxlanmasına yönəldilmiş bir sıra gigiyenik tələb və qaydaların adını çəkir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müəyyən edir. Əsas və ikinci dərəcəlilərə ayırmadan öyrənilmiş materialda müddəaları göstərir. Sağlamlığın qorunub saxlanmasına yönəldilmiş bəzi qaydaları fərqləndirir, ayrı-ayrı qaydaların yerinə yetirilməsini göstərir. Əvvəllər işlənmiş məsələlərin canlandırılması səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Aşağı səviyyə. Daha əvvəl müəyyən edilmiş problemi, tədris fəaliyyətinin məqsədini göstərir. Dərsliyin şəkilləri və mətninə əsaslanaraq, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan məlumatı müəyyən edir, sağlam həyat tərzinə riayət olunmasının əhəmiyyəti haqqında hazır informasiyanı tapır və götürür. Müəllimin nümunələrinə əsaslanaraq, tək-tək nümunələr haqqında məlumat verir.

Mövzu 18	**İlk tibbi yardım (1-ci dərs)**
Standart	4.3.2. Qəza zamanı ilkin tibbi yardım barədə biliklərini şərh edir.
Təlim məqsədi	Sarğının, yara bandının qoyulması qaydaları barədə biliklərini şərh edir.
İnteqrasiya	A.d. 2.1.2.; Tex. 2.1.3.
Təlim forması	Cütlərlə iş, fərdi iş
Təlim üsulu	Problem–axtarış, praktiki iş
Resurslar	Dərslik, paylama vərəqləri (vəziyyətə dair suallarla vərəqlər), bint, pambıq

Dərsin gedişi

Motivasiya. Müəllim təhlükəli vəziyyətlərin təsvirinin olduğu şəkilləri şagirdlərə paylayır (elektron resurslar mövcud olduğu zaman hamı üçün ümumi şəkli ekranda göstərir):

– Şəkli diqqətlə nəzərdən keçirin. Sizin fikrinizcə təhlükəli olan vəziyyətləri tapıb söyləyin.

İşin yerinə yetirilməsinə 2 dəqiqə vaxt ayrılır. Şagirdlər təhlükəli vəziyyəti və onun mümkün nəticələrini təsvir edirlər. Yaxud müəllim əvvəlki mövzuya ekskurs edir və onu yeni mövzu ilə bağlayan bir mətn oxuyur:

– Bir dəfə sinfimiz meşəyə ekskursiyaya getmişdi. Aylin yuxuya qalmış və səhər yeməyi yemədən hamı ilə birlikdə yola düşmüşdü. Qısa məsafə qət etdikdən sonra Aylinin halı pisləşdi, onun başı gicəlləndi və oturmağa məcbur oldu. Murad və Orxan budağın üstündə oturan dələni görərək cığırdan çıxdılar. Onlar dələnin ardınca qaçdılar və Murad daşa ilişərək yıxıldı və əlini cızdı. Aslan isə müəllimin çoxsaylı iradlarına baxmayaraq başıaçıq gəzirdi. Talada günün altında

oynayarkən Aslanın gözləri qaraldı. Onun üzü qızardı və başı gicəlləndi. Müəllim ekskursiyanı dayandırdı və dərman vasitələrinin olduğu çantanı çıxardı.

Tədqiqat sualı. İlkin tibbi yardım qaydalarına nələr daxildir?

Tədqiqatın aparılması. Təkrar tanış olmaq üçün müəllim mətn yazılmış vərəqləri cütlüklərə paylayır.

Cütlərlə iş. Hər bir cütlük ekskursiyanın iştirakçıları ilə bağlı vəziyyəti seçir və sualların olduğu vərəqləri alır (əlavə 1-ci, 2-ci, 3-cü sıra).

1. *Aylinlə bağlı vəziyyət.* Aylinə nə oldu? Nə üçün onun başı gicəlləndi? Ona necə kömək etməli?
2. *Muradla bağlı vəziyyət.* Murada nə oldu? O nə üçün yıxıldı? Murada hansı köməyi göstərmək lazımdır?
3. *Aslanla bağlı vəziyyət.* Siz Aslanın davranışını necə qiymətləndirirsiniz? Mətndə sübutları tapın. Ona nə oldu? Hansı tədbirləri görmək lazımdır?

Vəziyyətdən çıxış yolları müzakirə edilir:

Aylinlə bağlı vəziyyət. Aylin günün rejimini pozmuşdur. O, səhər yeməyi yeməmişdir, buna görə də orqanizm əlavə yüklənməyə məruz qalmış, tab gətirməmiş və onun halı pisləşmişdir. Aylinə qısamüddətli istirahət, şirin çay və yüngül səhər yeməyi lazımdır.

Muradla bağlı vəziyyət. Murad cığırdan çıxmış, ehtiyatlı olmamış, ayağının altına baxmadan qaçmışdır. Nəticədə o yıxılaraq əlini zədələmişdir. Yaranı su ilə yumaq, yaranın kənarlarına yod çəkmək və plastır yapışdırmaq lazımdır.



Aslanla bağlı vəziyyət. Aslan müəllimin sözlərini dinləməmişdir. Günün altında başı açıq dayanmışdır və həddən artıq istiyə məruz qalmışdır. Onu kölgədə oturtmaq, bədənini sıxan geyimləri çıxarmaq, içməyə sərin su vermək, başına soyuq yaş sarğı və ya buz paketi qoymaq lazımdır.

Dərsliklə iş. Müəllim:

– Hərdən yıxılarkən və ya zədə alarkən yara çox geniş sahəni əhatə edir və plastırın qoyulması kömək etmir. Bu halda hansı tədbirləri görmək lazımdır? (Sarğı qoymaq).

Praktiki iş. Müəllim:

– Dərslikdə verilmiş məlumatları oxuyaraq, sarğı qoymaq qaydaları ilə tanış olun. Zəruri ləvazimatları götürün və növbə ilə bir-birinizə sarğı qoyun.

Praktiki iş yerinə yetirilir. Zərurət yarandığı təqdirdə müəllim sarğının düzgün qoyulması üçün şagirdlərə kömək edir.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Dərsliyin 66-cı səhifəsindəki 4-cü və 5-ci tapşırıqlar yerinə yetirilir.

Lüğətlə iş. Azərbaycan dilinin izahlı lüğətindən istifadə edilərək «steril» sözünün mənası tapılıb yazılır.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 18	İlk tibbi yardım (2-ci dərs)
Standart	4.3.2. Qəza zamanı ilkin tibbi yardım barədə biliklərini şərh edir.
Təlim məqsədi	Yanıqlar, zədələr, günvurma, istivurma zamanı ilkin tibbi yardım qaydaları barədə biliklərini şərh edir.
İnteqrasiya	A.d. 1.1.1.; 1.1.2.; İnf. 2.1.1.; Tex. 2.1.3.
Təlim forması	Cütlərlə iş, fərdi iş
Təlim üsulu	Problem-axtarış, praktiki iş, Venn diaqramı
Resurslar	Dərslik, paylama materialı

Dərsin gedişi

Motivasiya. Müəllim mətni oxuyur:

– Yanğınsöndürmə maşını yolda sürətlə hərəkət edir. Deməli, harada isə yanğın baş vermişdir. Yanğınsöndürmə maşınının ardınca təcili yardım maşını gedir. Həkimlər hər zaman zərərçəkmişlərə ilk yardım göstərməyə hazırdır.

Tədqiqat sualı. Yanıqlar, zədələr zamanı ilk tibbi yardım necə göstərilir?

Tədqiqatın aparılması. Müəllim:

– Yanıq – yüksək temperaturun və ya bəzi kimyəvi maddələrin təsiri nəticəsində baş vermiş orqanizmin toxumalarının zədələnməsidir.

Müəllim ilk yardımın göstərilməsi mərhələlərinin təsvirinin olduğu şəkilləri yazı lövhəsinə bərkidir. *(Elektron resurslar mövcud olduğu zaman yanıq xəsarətləri alındıqda ilk yardımın göstərilməsi mərhələlərinin təsviri ekranda nümayiş etdirilir.)*

– Əgər siz yanıq xəsarəti almısınızsa, hansı tədbirləri görmək lazımdır?

Yanıq xəsarətləri zamanı ilk yardım





Şəkillər üzrə iş. Şəkilləri doğru ardıcıllıqla nömrələyin.

Dərsliklə iş. Dərslikdən yanıqlar və zədələrdən bəhs edilən mətn oxunur. Müəllim:

– Yanıqlar zamanı orqanizmin zədələnməsi dərəcəsindən bəhs edilən hissəni mətndə tapın.

Cütlərlə iş. Müəllim yanıq təsvirinin olduğu iş vərəqələrini paylayır. *(Elektron resurslar mövcud olduğu zaman təsvir yazı lövhəsinə verilir.)*



– Dərsliyin mətnindən istifadə edərək yanığın yüngül, orta və ağır dərəcəsini müəyyən edin. Boş kvadratları doldurun.

– Dərsliyin 68-ci səhifəsindəki 2-ci tapşırığı yerinə yetirin.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. 1. Dərsliyin 68-ci səhifəsindəki şəkli nəzərdən keçirin və 68-ci səhifədəki 4-cü, 6-cı tapşırığı yerinə yetirin.

Günvurma və ətrafların çıxığı zamanı zərərçəkmişə köməyin göstərilməsi üzrə hərəkətlərin ardıcıllığını təsvir edin.

Günvurma	Ətrafların çıxığı

2. Dərsliyin 68-ci səhifəsindəki 5-ci tapşırığı yerinə yetirin. Venn diaqramını doldurun. İstivurma və günvurmanın fərqini söyləyin.



3. Elektron resurslar mövcud olduğu zaman aşağıdakı çarxlara baxın:
https://www.youtube.com/watch?v=LMOsYPqB35Y
https://www.youtube.com/watch?v=Dg84hnybANw

Ev tapşırığı. Dərsliyin 68-ci səhifəsindəki 1-ci və 3-cü tapşırıqları yerinə yetirin.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, vəziyyətləri müəyyən edir və fərqləndirir, faktların və yardımın göstərilməsi üzrə tədbirlərin uyğunluğuna dair nümunələr göstərir. Yardımın göstərilməsi və təhlükəsizlik anlayışlarını ümumiləşdirir, davranış qaydaları və sağlamlığın qorunub saxlanmasına yönəldilmiş gigiyenik tələblər və qaydaların yerinə yetirilməsi zərurəti arasındakı qanunauyğunluğu müəyyən edir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, ilkin yardımın göstərilməsi elementlərini tanıyır, vəziyyətin və ilk yardımın göstərilməsi üzrə tədbirlərin uyğunluğuna dair nümunələr göstərir. Sarğının qoyulması üzrə praktiki hərəkətləri müstəqil şəkildə yerinə yetirir, müəyyən qanunauyğunluqları müəyyən edir. Sağlamlığın qorunub saxlanmasına yönəldilmiş bir sıra gigiyenik tələb və qaydaları göstərir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müəyyənləşdirir. Öyrənilmiş müddəaları göstərir, əsas və ikinci dərəcəli hissələrə bölmədən ilk yardımın göstərilməsinin ayrı-ayrı elementlərinin adını çəkir, bəzi funksiyaları qiymətləndirir. Sağlamlığın qorunub saxlanmasına yönəldilmiş bəzi qaydaları fərqləndirir, ayrı-ayrı qaydaların yerinə yetirilməsini təsvir edir. Əvvəllər öyrənilmiş sarğı qoymaq bacarıqlarının göstərilməsi səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Aşağı səviyyə. Dərslikdəki şəkillərə və mətnə əsaslanaraq, yardımın göstərilməsi üsullarının adını çəkir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan məlumatı müəyyən edir, ilk yardımın göstərilməsi bacarıqlarının əhəmiyyəti haqqında hazır informasiyanı tapır. Müəllimin nümunələrinə əsaslanaraq, tək-tək nümunələr haqqında məlumat verir.

Mövzu 19	**Məişət qəzaları**
Standart	4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən təhlükəsiz istifadə qaydalarını izah edir.
Təlim məqsədi	Qaz və elektrik avadanlıqlarından təhlükəsiz istifadə qaydalarını izah edir.
İnteqrasiya	A.d. 1.2.1.; İnf. 1.2.3.
Təlim forması	Cütlərlə iş
Təlim üsulu	Təqdimat. Qaydaların tərtib edilməsi
Resurslar	Dərslik, paylama materialı, «Yardım lövhəsi», özünüqiymətləndirmə vərəqi

Dərsin gedişi

Motivasiya. Müəllim dərsliyin mətnindən bir hissəni oxuyur.

Fuad küçədə uğultulu, zil səs eşidib tez pəncərəyə tərəf qaçdı. Həyətdə üstündə «FHN» yazılmış böyük qırmızı maşın dayanmışdı. Qonşular yığışıb həyəcanla nə barədəsə danışırdılar. Fuadın anası da onların arasında idi.

Maşından düşən sarı geyimli yanğınsöndürənlər cəld işə başladılar. Onlar yanğını söndürüb gedəndən sonra Fuadın anası evə gəldi və qonşu binada yanğın baş verdiyini söylədi. Məlum oldu ki, qadın paltarı ütüləyəndən sonra ütünü elektrik xəttindən ayırmağı unudub. Həddindən artıq qızan ütü yanğına səbəb olub.

Tədqiqat sualı. Məişətdə hansı hallar qəzalara səbəb olur?

Tədqiqatın aparılması. Müəllim:

– Bu gün sizinlə məişət cihazlarından istifadənin təhlükəsizliyi qaydalarının ətraflı şəkildə təsvirinin veriləcəyi yaddaş kitabçasını tərtib edəcəyik. (Müəllim hər bir cütlüyə kağızdan kəsilmiş sözləri paylayır.)

– Qaydanın alınması üçün sözləri cümlələrdə birləşdirin. Alınmış qaydanı iş vərəqinə yapışdırın.

1-ci cütlük: naqil, elektrik cihazlarının, şəbəkəyə, əvvəlcə, cihaza, qoşun, riayət edin, qaydasına, daha sonra şəbəkəyə, qoşulması.

Qayda 1. Elektrik cihazlarının şəbəkəyə qoşulması qaydasına riayət edin – əvvəlcə naqili cihaza, daha sonra şəbəkəyə qoşun.

2-ci cütlük: bilər, çəngəli, vura, rozetkaya, nəm, elektrik cərəyanı, əllə, taxmayın.

Qayda 2. Çəngəli nəm əllə rozetkaya taxmayın. Elektrik cərəyanı vura bilər.

3-cü cütlük: elektrik, əgər, elektrik naqili, izolyasiya, cihazlar, istifadə etməyin, zədələnmişdir, üstü açılmış naqillər.

Qayda 3. Əgər naqillərin izolyasiyası zədələnmişdirsə, naqillərin üstü açılmışdırsa, elektrik cihazlarından istifadə etməyin.

4-cü cütlük: qoşmusunuzsa, qoymayın, cihazlar, əgər siz, şəbəkəyə, nəzarət, naqildən, dartmayın, söndürərkən.

Qayda 4. Əgər siz cihazları şəbəkəyə qoşmusunuzsa, onları nəzarətsiz qoymayın. Cihazı söndürərkən naqildən tutub dartmayın.

5-ci cütlük: naqillər, qızdırıcı, olmamalıdır, qaz, cihazlarının, yanında.

Qayda 5. naqilləri qızdırıcı qaz cihazlarının yanında olmamalıdır.

6-cı cütlük: çaydan, elektrik, olmasını, suyun, çaydanı, olmaz, qoşan zaman, yoxlayın, boş, işə salmaq.

Qazsızma zamanı nə etməli

Qayda 6. Elektrik çaydanını qoşan zaman suyun olmasını yoxlayın, boş çaydanı işə salmaq olmaz.

Şagirdlər yerinə yetirilmiş iş vərəqlərini «Yardım lövhəsinə» bərkidirlər.

Dərslikdən «Qaz cihazları ilə davranış qaydaları» mətnini oxuyun. Qaz sızması zamanı davranış qaydalarını tərtib edin.

Şagirdlər tapşırıqları yerinə yetirirlər. Müəllim:

– Afərin. İşin öhdəsindən yaxşı gəldiniz. Yerinə yetirilmiş iş vərəqlərini «Yardım lövhəsi»nə bərkidin.

Nəticələrin çıxarılması və ümumiləşdirmə. Səhifə 70-dəki 1-ci tapşırıq yerinə yetirilir. Elektron resurslar mövcud olduğu zaman bu linkdən istifadə etmək olar: *https://www.youtube.com/watch? v=vEl0A-7nYns*

Ev tapşırığı. «Məişət qəzası zamanı ailə məcəlləsini» tərtib edin.

Qiymətləndirmə.

Özünüqiymətləndirmə vərəqi

«Uğurlu iş» oxu

Bilmirəm.	Bilirəm, demək olar ki, hər şeyi başa düşürəm.	Təcrübədə tətbiq edə bilərəm.	Sinif yoldaşlarıma öyrədə bilərəm.

Özünüzü qiymətləndirin.
Müvafiq «smaylik» daxil edin.

Ən yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, texnogen və təbii halları və yardımın göstərilməsi üzrə tədbirləri müəyyən edir və fövqəladə hallar zamanı davranış qaydalarını formalaşdırır. Təhlükəsizlik və davranış qaydaları anlayışlarını ümumiləşdirir, davranış qaydaları və onların pozulmasının nəticələri arasındakı qanunauyğunluğu müəyyən edir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Problemi müstəqil şəkildə müəyyən edir. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, texnogen və təbii halları tanıyır, mövzunu müzakirə etdikdən sonra vəziyyətin və ilk yardımın göstərilməsi üzrə tədbirlərin uyğunluğuna dair nümunələr göstərir. Fövqəladə hallar zamanı təhlükəsizlik və davranış qaydaları anlayışlarını ümumiləşdirir.

Texnogen fövqəladə halların qarşısının alınmasına yönəldilmiş bir sıra tələb və qaydaları söyləyir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müəyyənləşdirir. Öyrənilmiş müddəaların göstərir, əsas və ikinci dərəcəli hissələrə bölmədən texnogen fövqəladə halların ayrı-ayrı elementlərinin adını çəkir, texniki təhlükəsizlik qaydaları pozulduğu zaman meydana gəlmiş bəzi vəziyyətləri qiymətləndirir. Fövqəladə halların qarşısının alınmasına yönəldilmiş bir sıra qaydaları fərqləndirir. Əvvəllər öyrənilmiş bacarıqların göstərilməsi səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Aşağı səviyyə. Tədris fəaliyyətinin daha əvvəl müəyyən edilmiş məqsədini göstərir. Dərsliyin şəkilləri və mətninə əsaslanaraq, texnogen fövqəladə halların adını çəkir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan məlumatı müəyyən edir, təhlükəsizlik texnikası qaydalarının yerinə yetirilməsinin əhəmiyyəti haqqında hazır informasiyanı tapır və götürür. Müəllimin nümunələrinə əsaslanaraq, tək-tək nümunələr haqqında məlumat verir.

Mövzu 20	**Yol hərəkəti qaydaları (1-ci dərs)**
Standart	2.4.1.Müvafiq situasiyalarda qanun və qaydalara əməl edir. 4.2.3. Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir.
Təlim məqsədi	1. Yol hərəkəti qaydalarına əməl edir. 2. Yol hərəkəti qaydaları ilə bağlı kiçik təqdimatlar edir.
İnteqrasiya	A.d. 1.1.1.; 1.1.2.; T.i. 2.1.4.
Təlim forması	Qruplarla iş, cütlərlə iş, fərdi iş
Təlim üsulu	Problemin həlli xəritəsi, alqoritmin çıxarılması – analizdən sintezə
Resurslar	Dərslik, şəkillər, iş vərəqləri, flipçart

Dərsin gedişi

Motivasiya. Müəllim:

– Yol hərəkəti qaydaları ifadəsi hər kəsə yaxşı məlumdur, lakin əgər piyadalar və nəqliyyat vasitələrinin sürücüləri bu qaydalara riayət etmiş olsaydı, bu zaman yollarda yol-nəqliyyat hadisələri baş verməzdi.

Tədqiqat sualı: Yol-nəqliyyat hadisələri nə üçün baş verir?

Tədqiqatın aparılması (*Qruplarla iş).* Tapşırığın yerinə yetirilməsinə 2–3 dəqiqə ayrılır.

1-ci və 3-cü qruplar bu mövzuda tapşırıq alır: Problemi həll edin – piyadalar yol hərəkəti qaydalarına riayət etmir.

2-ci və 4-cü qruplar bu mövzuda tapşırıq alır: Problemi həll edin – sürücülər yol hərəkəti qaydalarına riayət etmir.

Müəllim:

– Xatırladıram, qrupda sakit işləmək, bir-birinə mane olmamaq, mübahisə etməmək lazımdır.

Tapşırığın yerinə yetirilməsindən sonra qrupun nümayəndəsi sxemin bir boş xanasını doldurur. Sxem müəllim tərəfindən yazı lövhəsində çəkilir. Elektron resurslar mövcud olduğu zaman sxem ekranda əks etdirilir.

Tədqiqatın nəticələri. Müəllim yazı lövhəsində sxem çəkir. «Piyadalar və sürücülər qaydalara riayət etmir» probleminin həll edilməsi xəritəsi:



Dərsliklə iş. Müəllim:

– Mətndən «Piyadalar» və «Sürücülər» hissəsini oxuyun. Şəkillərə baxın.

Cütlərlə iş:

1. Pəncərənin yanındakı sırada oturan cütlüklər piyadalar üçün qaydaları dəftərə yazır.

2. Cütlüyün birinci iştirakçısı dəftərə qaydalar yazır: «Piyadaya icazə verilir». Cütlüyün ikinci iştirakçısı dəftərə qaydalar yazır: «Piyadaya qadağan edilir».

3. Giriş qapısının yanındakı sırada oturan cütlüklər sürücülər üçün qaydaları dəftərə yazır.

4. Cütlüyün birinci iştirakçısı dəftərə qaydalar yazır: «Sürücü və piyada». Cütlüyün ikinci iştirakçısı dəftərə qaydalar yazır: «Sürücüyə qadağan edilir».

Qeyd: *Sinfin qruplar şəkilində oturduğu təqdirdə müəllim tapşırığın cütlüklər üzrə yerinə yetirilməsi öhdəliklərini sərbəst şəkildə bölüşdürür.*

Əvvəlcədən hazırlanmış flipçartda 4 sütunda qaydalar yazılmışdır. Müəllim hər bir cütlüyə səbətlə yaxınlaşır. Şagirdlər bükülmüş vərəqələri götürür və nömrəni oxuyurlar (püşk çəkirlər). Şagirdlər nömrələrə müvafiq olaraq flipçarta yaxınlaşır və öz fikirlərini yazırlar. Əgər fikirlər üst-üstə düşərsə, şagirdlər öz variantlarını söyləyir, lakin yazmırlar.

«Piyadaya icazə verilir»	«Piyadaya qadağan edilir»	«Sürücü və piyada»	«Sürücüyə qadağan edilir»

Ümumiləşdirmə və nəticələrin çıxarılması. 1. Dərsliyin 72-ci səhifəsindəki 2, 3, 5-ci tapşırıqların yerinə yetirilməsi.

2. Dərsliyin 73-cü səhifəsinin 6-cı tapşırığındakı şəkillərə əsasən qaydaları pozan uşaqların hərəkətlərini şərh edin.

Ev tapşırığı.

1. 72-ci səhifədəki 1-ci və 4-cü tapşırıqların yerinə yetirilməsi.
2. Evdən məktəbə, məktəbdən evə getdiyiniz yolda, həyətdə gəzərkən qarşılaşdığınız bütün yol nişanlarının çəkilməsi.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 20	**Yol hərəkəti qaydaları (2-ci dərs)**
Standart	4.2.4. Nəqliyyat vasitələrindən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət edir.
Təlim məqsədi	Müxtəlif nəqliyyat vasitələrindən (yerüstü, yeraltı, dəniz, hava) istifadə zamanı təhlükəsizlik qaydalarına əməl edir.
İnteqrasiya	A.d. 1.2.1.; X.d. 2.2.1.; T.i. 2.1.3.
Təlim forması	Qruplarla iş, cütlərlə iş, fərdi iş.
Təlim üsulu	Klaster, diskussiya
Resurslar	Dərslik, şəkillər

Dərsin gedişi

Motivasiya. «Nəqliyyat növləri» mövzusunda klaster doldurulur. Yazı lövhəsinə şəkillər asılır. Müəllim:

– Nəqliyyatın növünü sxem üzrə təsvir edin:

Hansı?





Tədqiqat sualı. Nəqliyyat nədir və onun hansı növləri var?

Tədqiqatın aparılması. Klaster doldurulur. Müəllim izah edir:

– Bizim ölkəmizdə nəqliyyatın bütün növləri inkişaf etmişdir.

Boru kəməri nəqliyyatını xüsusilə qeyd etmək lazımdır. Bakı–Tbilisi–Ceyhan neft kəməri Xəzər neftinin Aralıq dənizinin sahilində yerləşən Türkiyənin Ceyhan



limanına daşınması üçün nəzərdə tutulmuş boru kəməridir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyır.

– Eləcə də Bakı metrosu. Bakı metropoliteninin stansiyalarının memarlığı gözəl zövq, tikinti işlərinin yüksək keyfiyyəti, Azərbaycanın milli memarlığının üsul və motivlərindən ustalıqla istifadə edilməsi ilə fərqlənir. Görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərinin mövzusuna həsr olunmuş, mozaikası ilə fərqlənən Bakı metropoliteninin «Nizami» stansiyası dünyanın ən gözəl metro stansiyalarının siyahısına daxil olmuşdur.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. 1.Yeraltı, su, hava və yerüstü nəqliyyatın xüsusiyyətlərini təsvir edin.

2. Sevdiyiniz nəqliyyat növünün şəklini çəkin.

Ev tapşırığı. «Mənim sevdiyim nəqliyyat növü» mövzusunda təqdimat hazırlamaq.

Qiymətləndirmə meyarları.

Ən yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, piyada və sürücülərin davranış qaydalarını tanıyır, vəziyyət və küçə hərəkətinin təhlükəsizliyi tədbirlərinin uyğunluğuna dair şəxsi nümunələr gətirir, yollarda davranış qaydalarını formalaşdırır. Nəqliyyatın bütün növlərini fərqləndirir, xüsusiyyətlərini və fərqləri söyləyir. Təhlükəsizlik və davranış qaydaları anlayışlarını ümumiləşdirir, davranış qaydaları onların pozulmasının nəticələri arasındakı qanunauyğunluğu müəyyən edir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Problemi müstəqil şəkildə müəyyənləşdirir. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, texnogen və təbii fövqəladə halları tanıyır, mövzunu müzakirə etdikdən sonra vəziyyət və küçə hərəkətinin təhlükəsizliyi tədbirlərinin uyğunluğuna dair şəxsi nümunələr gətirir. Piyadaların hərəkət etdiyi zaman təhlükəsizlik və davranış qaydaları anlayışlarını ümumiləşdirir. Nəqliyyatın bütün növlərini fərqləndirir, bəzi xüsusiyyətləri və fərqləri söyləyir. Yol-nəqliyyat hadisələrinin qarşısının alınmasına yönəldilmiş bir sıra tələb və qaydaları göstərir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müəyyən edir. Öyrənilmiş materialda müddəaların adını çəkir, əsas və ikinci dərəcəli hissələrə bölmədən yol hərəkətinin təhlükəsizliyinin ayrı-ayrı elementlərinin adını çəkir. Təhlükəsizlik texnikasının pozulduğu zaman meydana gələn bəzi vəziyyətləri qiymətləndirir. Nəqliyyatın bəzi növlərini fərqləndirir. Yol-nəqliyyat hadisələrinin qarşısının alınmasına yönəldilmiş bəzi qaydaları göstərir. Əvvəllər işlənmiş məsələlərin canlandırılması səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Aşağı səviyyə. Tədris fəaliyyətinin daha əvvəl müəyyən edilmiş məqsədini göstərir. Dərsliyin şəkilləri və mətninə əsaslanaraq, sürücülərin və piyadaların davranış qaydalarını söyləyir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan məlumatı müəyyən edir, yol hərəkəti qaydalarının yerinə yetirilməsinin əhəmiyyəti haqqında hazır informasiyanı tapır və götürür. Müəllimin nümunələrinə əsaslanaraq, nəqliyyat növləri haqqında tək-tək nümunələr göstərir.

Mövzu 21	Fövqəladə hal (1-ci dərs)
Standart	4.3.1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir. 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir.
Təlim məqsədi	1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir. 2. Sinifdə və yaxud məktəb daxilində müəllim tərəfindən süni yaradılmış ekstremal vəziyyətlərdə özünümühafizə və tibbi yardım bacarıqlarını nümayiş etdirir.
İnteqrasiya	İnf. 1.2.3.; Riy. 5.1.1.
Təlim forması	Kollektiv iş, qruplarla iş, fərdi iş
Təlim üsulu	İzahedici-illüstrativ metod, «İNSERT»
Resurslar	Dərslik, paylama vərəqləri (vəziyyətə dair suallarla vərəqlər), buz paketi, bint, su

Dərsin gedişi

Motivasiya. Müəllim:

– Hər gün televiziya və radio ilə müxtəlif növ fövqəladə hadisələr haqqında məlumat verilir. Hadisələrin əksəriyyəti insanların təqsiri üzündən baş verir.

– Biz artıq texnogen və təbii fövqəladə hadisələrdən bəhs etmişik. Bu gün fövqəladə vəziyyət yaradan təbii və texnogen hadisələrin müxtəlif növlərini nəzərdən keçirəcəyik.

Tədqiqat sualı. Fövqəladə hadisələr hansı nəticələrə səbəb ola bilər?

Tədqiqatın aparılması. Müəllim mətni oxuyur:

– Təbii və texnogen xarakterli fövqəladə vəziyyət dedikdə qəzanın, təbiət hadisəsinin nəticəsində hər hansı bir yerdə baş verən və insan qurbanlarına gətirib çıxaran, insanların sağlamlığına və ətraf mühitə zərər vura bilən vəziyyət başa düşülür.

– Fövqəladə hallar zamanı meydana gəlmiş məhvedici amillər aşağıdakı xarakterə malik ola bilər:

- *Mexaniki amil* – zəlzələ, sellər, sürüşmələr, dağlarda qar uçqunu;
- *İstilik amili* – yanğınlar, alov, yanma məhsulları ilə zəhərlənmə, boğulma vəziyyəti;
- *Radiasiya amili* – təhlükəli radioaktiv şüalanma nəticəsində radiasiya təsiri;
- *Kimyəvi amil* – ətraf mühitin kimyəvi maddələrlə çirklənməsi, heyvanların, bitkilərin və insanların kimyəvi təhlükəli maddələrlə zəhərlənməsi.

«İNSERT» texnologiyası üzrə qruplarla iş. Müəllim uşaqları qruplar üzrə bölür. Hər bir qrup zədələyici amillərin təsirinin təsviri ilə vərəqi alır.

1-ci qrup: Zəlzələ baş verən zaman mövcud olan vəziyyət.

2-ci qrup: Elektrik cihazları ilə ehtiyatsız davranma nəticəsində yanğının meydana gəlməsi ilə bağlı vəziyyət. (Müəllim yanğının meydana gəlməsinin istənilən nümunələrini seçə bilər. Təsvirə dəm qazı və ya digər yanma məhsulları ilə mümkün zəhərlənməni daxil etmək lazımdır.)

3-cü qrup: Radioaktiv yoluxma ilə bağlı vəziyyət. (Çernobıl AES-də baş vermiş qəzanı, Yaponiyada Fukuşima AES-də baş vermiş qəzanı nümunə qismində göstərmək olar.)

4-cü qrup: Ətraf mühitin kimyəvi çirklənməsi ilə bağlı vəziyyət. (XX əsr dünya üzrə ən əhəmiyyətli kimyəvi fəlakətlərindən birini – 2 dekabr 1984-cü il tarixində Hindistanda zavodda baş vermiş, 4035 nəfərin zəhərlənməsi və məhv olmasına gətirib çıxaran partlayışı nümunə qismində göstərmək olar. Bu qəzada 40 min nəfərdən çox insan xəsarət almışdır. Toksiki qaz buludundan 5 km uzunluğunda ərazi çirklənmişdi.)

İşin gedişi. *1-ci mərhələ: Mətnin nişanlanması.* Qrupun iştirakçıları mətn və vəziyyətlə diqqətlə tanış olmalı və orada verilmiş informasiyanı aşağıdakı şəkildə hissələrə ayırmalıdır:

(✓) – «quş» ilə şagirdlərə məlum olan faktlar işarələnir.

(–) – «tire» işarəsi ilə şagirdlərin fərqli fikrə malik olduqları informasiya qeyd edilir.

(!) – «nida işarəsi» ilə onlar üçün maraqlı və gözlənilməz olanlar qeyd edilir.

(?) – «sual işarəsi» informasiyanın aydın olmadığı və ya daha çox öyrənmək istəyinin yarandığı zaman qoyulur.

2-ci mərhələ: İşarələrin qoyulması. Şagirdlər mətni oxuyur, işarələr üçün ayrılmış kənarlarda nişanlamanı həyata keçirirlər. Mətnin fraqmentlərinin altından xətt çəkməyə və ya ayırmağa icazə verilir. Müəllim şagirdlərin fəaliyyətini şərh edə və ya eşidərək mətnlə tanış olmaq üçün mətni oxuya bilər.

3-cü mərhələ: Cədvəlin doldurulması. Üçüncü mərhələdə müəllim informasiyanı cədvəl şəklində təqdim etməyi, onu sistemləşdirməyi şagirdlərə təklif edir. Cədvəlin yalnız üç sütunu doldurulur. Nida işarəsi ilə sütun boş qalır.

Qeyd: *«İNSERT» üsulunda «sual işarəsi» daha çox əhəmiyyət qazanır. Dərslərdə sualların şagirdlər tərəfindən qoyulmasına çox az vaxt ayrılır. Şagirdlərin yaşları artdıqca sual vermək qorxusu daha çox özünü büruzə verir. Bizim hamımıza yaxşı məlumdur ki, hər bir sual cavabın yarısını özündə ehtiva edir. Şagirdlərinizə sual verməyi öyrədin və nəticəni çox gözləməli olmayacaqsınız!*

4-cü mərhələ: Cədvəlin hər bir sətrinin müzakirəsi. Hər bir qrupun nümayəndəsi növbə ilə informasiyanı oxuyur. Bu zaman şagirdlərin mətndəki faktlara istinad etməsi, ayrı-ayrı fraqmentləri oxuması çox vacibdir.

Müzakirələrdən sonra frontal sorğu keçirmək olar.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. 1. Dərsliyin 75-ci səhifəsindəki 1-ci tapşırığın yerinə yetirilməsi.

Azərbaycan dilinin izahlı luğətindən «fövqəladə» sözünün mənasını tapıb yazın.

2. Dərsliyin 75-ci səhifəsindəki 2-ci və 3-cü tapşırıqların yerinə yetirilməsi.

Ev tapşırığı. Dərsliyin 75-ci səhifəsindəki 4-cü və 5-ci tapşırıqların yerinə yetirilməsi.

Qiymətləndirmə. Səhifə 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 21	Fövqəladə hal (2-ci dərs)
Standart	4.2.2. Müvafiq nişanlara (yüksək gərginlik, minalanmış sahə, yanğın təhlükəsi, radioaktivlik, zəhərli maddə, torpaq sürüşməsi, uçqun, daşqın və çimərlik nişanları) görə həyat üçün təhlükə mənbələrini fərqləndirir. 4.3.1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir. 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir.
Təlim məqsədi	1. Yüksək gərginlik, minalanmış sahə, yanğın təhlükəsi, radioaktivlik, zəhərli maddə, torpaq sürüşməsi, uçqun, daşqın və s. nişanları fərqləndirir. 2. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir. 3. Sinifdə və yaxud məktəb daxilində müəllim tərəfindən süni yaradılmış ekstremal vəziyyətlərdə özünümühafizə və tibbi yardım bacarıqlarını nümayiş etdirir.
İnteqrasiya	Riy. 5.1.1.
Təlim forması	Kollektiv iş, qruplarla iş, fərdi iş
Təlim üsulu	İzahedici-illüstrativ metod, «İNSERT», vizual imla
Resurslar	Dərslik, paylanma vərəqləri, tənzif sarğısı, təhlükəsizlik nişanları (şəkillər və ya elektron resurslar)

Dərsin gedişi

Tədqiqatın aparılması. Əvvəlki dərsdə şagirdlər «İnsert» metodiki üsulunun birinci, ikinci və üçüncü mərhələlərini araşdırmışlar. Aşağıdakılar yerinə yetirilmişdir:

1. Şagirdlər mətnin nişanlanması anlayışı ilə tanış olmuşlar.
2. Təklif edilən işarələrin köməyi ilə mətnin nişanlanmasını müstəqil şəkildə həyata keçirmişlər.
3. Cədvəli doldurmuşlar («sual işarəsi» sütunundan başqa hamısını).

Müəllim şagirdləri qruplar üzrə bölür (qrupların tərkibini dəyişdirmək olmaz). Şagirdlər cədvəlin 4-cü sütununa mətni oxuyan zaman aydın olmayan, dəqiqləşdirmə tələb edən məqamları və ya meydana gələn sualları yazırlar.

4. Sonuncu işlənmiş informasiya ilə cədvəlin nəticələrinin ardıcıl müqayisəsi.

Müzakirənin gedişi.

1. Hər bir qrupun nümayəndəsi auditoriyaya öz mətnini oxuyur, sualları və ya aydın olmayan məqamları sadalayırlar.
2. Müəllim çıxış edənləri dinləyir, digər qrupun iştirakçılarına suallara cavab verməyi və ya həmin qrup üçün aydın olmayan vəziyyəti izah etməyi təklif edir.
3. Əgər informasiya açıqlanmamışdırsa, bu zaman müəllim aydın olmayan informasiyanı izah edir.

Dərsliklə iş. Müəllim təhlükəsizlik nişanlarını göstərir (elektron resurslar mövcud olduğu zaman hamı üçün ümumi şəkli ekranda göstərir).

radiasiya təhlükəsi

bioloji təhlükə

zəhərli maddə

Müəllim:

– Şəkillərə diqqətlə baxın. Təhlükədən xəbərdar olmaq üçün bu nişanları yadda saxlayın! (2 dəqiqə vaxt ayrılır).

Ümumiləşdirmə və nəticələrin çıxarılması.

1. Dərsliyin 78-ci səhifəsindəki 1-ci və 4-cü tapşırıqların yerinə yetirilməsi.
2. Dərsliyin 78-ci səhifəsindəki 2-ci və 3-cü tapşırıqların yerinə yetirilməsi.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müstəqil şəkildə müəyyənləşdirir və formalaşdırır. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, texnogen və təbii halları və yardımın göstərilməsi üzrə tədbirləri müəyyən edir və fövqəladə hallar zamanı davranış qaydalarını formalaşdırır. Təhlükəsizlik və davranış qaydaları anlayışlarını ümumiləşdirir, davranış qaydaları və onların pozulmasının nəticələri arasındakı qanunauyğunluğu müəyyən edir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Yüksək səviyyə. Problemi müstəqil şəkildə müəyyən edir. Öyrənilmiş materialda əsas və ikinci dərəcəli müddəaları ayırır, texnogen və təbii halları tanıyır, mövzunu müzakirə etdikdən sonra vəziyyətin və ilk yardımın göstərilməsi üzrə tədbirlərin uyğunluğuna dair nümunələr göstərir. Fövqəladə hallar zamanı təhlükəsizlik və davranış qaydaları anlayışlarını ümumiləşdirir.

Texnogen fövqəladə halların qarşısının alınmasına yönəldilmiş bir sıra tələb və qaydaları söyləyir. Şəkil dəyişdirmiş sualları canlandırma səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Orta səviyyə. Problemi, tədris fəaliyyətinin məqsədini müəyyənləşdirir. Öyrənilmiş müddəaları göstərir, əsas və ikinci dərəcəli hissələrə bölmədən texnogen fövqəladə halların ayrı-ayrı elementlərinin adını çəkir, texniki təhlükəsizlik qaydalarının pozulduğu zaman meydana gəlmiş bəzi vəziyyətləri qiymətləndirir. Fövqəladə halların qarşısının alınmasına yönəldilmiş bir sıra qaydaları fərqləndirir. Əvvəllər öyrənilmiş bacarıqların göstərilməsi səviyyəsində işləmək bacarıqlarını nümayiş etdirir.

Aşağı səviyyə. Tədris fəaliyyətinin daha əvvəl müəyyən edilmiş məqsədini göstərir. Dərsliyin şəkilləri və mətninə əsaslanaraq, texnogen fövqəladə halların adını çəkir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan məlumatı müəyyən edir, təhlükəsizlik texnikası qaydalarının yerinə yetirilməsinin əhəmiyyəti haqqında hazır informasiyanı tapır və götürür. Müəllimin nümunələrinə əsaslanaraq, tək-tək nümunələr haqqında məlumat verir.

Mövzu 22	Yer təbiətinin müxtəlifliyi (1-ci dərs)
Standart	1.2.1. Coğrafi obyektləri xəritədə göstərir. 1.2.2. Yerin təbii zonalarını sadə şəkildə təsvir edir.
Təlim məqsədi	1. Coğrafi obyektləri xəritədə göstərir. 2. Arktik səhraların çöl, səhra və savannanın təbiətini sadə şəkildə təsvir edir.
İnteqrasiya	A.d. 4.1.3.
Təlim forması	Qruplarla iş
Təlim üsulu	Reproduktiv, izahedici-illüstrativ, qismən axtarış, «Alqoritmin çıxarılması – analizdən sintezə», alqoritm üzrə təsvir, plan üzrə iş
Resurslar	Dərslik, iş vərəqləri, dünyanın coğrafi xəritəsi, şəkillər, rəngli karandaşlar

Dərsin gedişi

Motivasiya. Müəllim coğrafi xəritəni yazı lövhəsinə asır. Xəritədə coğrafi obyektləri *(okeanları, dənizləri, çayları, meşələri, dağları, düzənlikləri*) göstərməyi tapşırır.



Şagirdlər əvvəlki biliklərinə əsaslanaraq okeanların, dənizlərin, çayların, göllərin rənginin mavi, meşələrin, düzənliklərin rənginin yaşıl, dağların qəhvəyi rəngdə olduğunu bilərək coğrafi obyektləri göstərirlər.

Müəllim:

– Bütün göstərdikləriniz coğrafi obyektlərdir. Coğrafi obyektlərin hər biri özünəməxsus hava şəraitinə uyğun bitki və heyvanat aləmi olan təbii zonalar yaradır.

Müəllim uşaqların diqqətini yenidən xəritəyə cəlb edərək şərh edir:

– Sizin qarşınızda müxtəlif rənglərlə boyanmış sahələrin olduğu xəritə vardır. Xəritəyə diqqətlə baxın və suallara cavab verin.

– Səhra – sarı, tundra – yasəmən rəngi, meşə-tundra – bənövşəyi, çöllər – solğun sarı, savannalar (seyrək ağacları və kolluqları olan düzənlik) – sarı, tropik meşələr – tünd-yaşıl rənglə işarə olunmuşdur.

– İndi sizinlə nəyi müəyyən etdik? (Yerin təbii zonalarını).

– Səyahətə yollanmaq istəyirsinizmi? Bu gün sizinlə yerin təbii zonaları üzrə səyahətə yollanacağıq.

Tədqiqat sualı. Tundranın, çöl, səhra və savannanın təbiəti necə fərqlənir?

Qeyd: *Bu mövzu 2 dərs saatı üçün nəzərdə tutulmuşdur. Birinci dərs saatında aşağıdakı təbii zonalar araşdırılır: tundra, çöl, savanna və səhra. İkinci dərs saatında tədqiq edilir: tayqa, qarışıq meşə, tropik meşə.*

Tədqiqatın aparılması.

Müəllim şagirdləri 8 qrupa bölür (şagirdlərin sayından asılı olaraq). Hər 2 qrup bir təbii zonanı araşdırmaq tapşırığı alır: 2 qrup – tundra, 2 qrup – çöl, 2 qrup – savanna, 2 qrup – səhra. Müəllim

imzalanmamış bağlı zərfləri paylayır (sərbəst seçim). Hər bir zərfdə təbii zonalardan birinin adı və təbii zonaların öyrənilməsi planının yazıldığı vərəq vardır. Şagirdlər atlas, ensiklopediya, dərslikdən istifadə edə bilər.

Təbii zonaların öyrənilməsi plan üzrə həyata keçirilir:

1. Təbii zonanın adı
2. Coğrafi yerləşmənin xüsusiyyətləri
3. İqlim xüsusiyyətləri
4. Torpaq və onun müxtəlifliyi
5. Bitki və heyvanlar aləmi

Müəllim şagirdlərə yönəldici suallar təklif edə bilər:

1. İqlim bu və ya digər təbii zonanın formalaşmasına hansı təsiri göstərə bilər?
2. Cansız təbiət amilləri (işıq, torpaq, su, temperatur) bitki və heyvanlar aləminin müxtəlifliyinə hansı təsiri göstərir?
3. Yerin təbii zonaları necə formalaşır?
4. Canlı və cansız təbiətin arasında bağlayıcı halqa nədir?
5. Əgər iqlim dəyişərsə, təbii zona dəyişə bilərmi?
6. Əgər bitki aləmi dəyişərsə, heyvanlar aləmi ilə nə baş verə bilər?

Müəllim:

– Bitki aləmi dəyişmişdirsə, heyvanlar aləmi də dəyişəcəkdir. Bütün bu dəyişikliklər insanın həyatında da dəyişikliklərin baş verməsinə gətirib çıxaracaqdır.

– Sizin qarşınızda duran məsələ aldığınız təbii zona haqqında ətraflı hekayə yazmaqdır. Siz atlasdan, ensiklopediyada olan məlumatlardan, dərsliyin mətnindən, dərsliyin şəkilləri və illüstrasiyalarından istifadə edə bilərsiniz.

Tədqiqatın aparılmasına 10–15 dəqiqə ayrılır. Hər bir qrup təqdim edilmiş plan üzrə apardığı araşdırmanın nəticələrini təqdim edir. Qrupun hər bir üzvü beş bənddən birini təsvir edir.

Müəllim:

– İndi isə sizin digər qrupların iştirakçılarının çıxışlarını nə qədər diqqətlə dinlədiyinizi yoxlayaq.

Hər bir qrup plana əsaslanaraq, istənilən digər qrupa özünün təbii zonası haqqında sual verir. Şagirdlər suallara cavab verir.

Müəllim metodiki vəsaitin 12-ci səhifəsindəki tövsiyələrdən istifadə edərək qrupun işinin qiymətləndirilməsini həyata keçirə bilər.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim şagirdlərlə birlikdə yerin təbii zonaları, bitki və heyvanlar aləminin müxtəlifliyi, iqlim xüsusiyyətləri və torpaq haqqında məlumatları ümumiləşdirir. Müəllim şagirdlərin diqqətini təbii zonaların öz aralarındakı qarşılıqlı əlaqəsinə cəlb edir, araşdırmanın başlanmasına qədər təklif edilmiş yönəldici suallara verilən cavabları şagirdlərlə birlikdə müzakirə edir.

Təbii zonaların arasındakı fərqlərin tapılması üçün 84-cü səhifədəki 3-cü tapşırıq yerinə yetirilir. Bu tapşırığa Venn diaqramının tətbiq edilməsi daxildir. Şagirdlər çöl və savannanı müqayisə edirlər. Bənzər şəkildə digər təbii zonaları da müqayisə etmək olar.

Müxtəlif təbii zonaların heyvanlarının xarici quruluşu və davranışının xüsusiyyətlərini öyrənmək üçün 84-cü səhifədəki 2-ci tapşırıq yerinə yetirilir. Müəllim şagirdlərin diqqətini şimalda yaşayan heyvanların xarici quruluşunun xüsusiyyətlərinə yönəldir: sıx xəz, qalın dəri; çöl və səhra quşları: uzun boyun və yaxşı inkişaf etmiş ayaqlar və s.

Möhkəmləndirmək üçün 84-cü səhifədəki 1-ci və 4-cü test tapşırıqları yerinə yetirilir.

Qiymətləndirmə. Səhifə 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 22	Yer təbiətinin müxtəlifliyi (2-ci dərs)
Standart	1.2.1. Coğrafi obyektləri xəritədə göstərir. 1.2.2. Yerin təbii zonalarını sadə şəkildə təsvir edir.
Təlim məqsədi	1. Coğrafi obyektləri xəritədə göstərir. 2. Tayqa, enliyarpaqlı və qarışıq meşələrin, rütubətli tropik meşələrin təbiətini sadə şəkildə təsvir edir.
İnteqrasiya	A.d. 4.1.3.
Təlim forması	Qruplarla iş, fərdi iş
Təlim üsulu	Alqoritm üzrə təsvir, plan üzrə iş, diskussiya – analizdən sintezə
Resurslar	Dərslik, iş vərəqləri, dünyanın coğrafi xəritəsi, şəkillər, rəngli karandaşlar

Dərsin gedişi

Tədqiqat sualı. Tayqa, qarışıq və tropik meşələrin təbiəti necədir?

Tədqiqatın aparılması. 6 qrup formalaşır. Hər bir qrup təbii zonanın adı ilə zərf alır: 2 qrup – tayqa, 2 qrup – qarışıq meşələr, 2 qrup – tropik meşələr.

Mövcud resurslardan istifadə etməklə əvvəlki dərsdə təklif olunmuş plan üzrə tədqiqatı davam etdirmək tövsiyə olunur.

Dərsliklə iş. Dərsliyin 85–88-ci səhifələrindəki illüstrasiyalar və mətn ilə tanışlıq məcburi şərtdir.

Şagirdlər dərsliyin mətnini oxumalı və tapşırığa müvafiq olan informasiyanı seçməlidirlər. Qrupun üzvləri ilə informasiya müzakirə edilməli və mətndən başqa bu barədə məlum olan hər şey yada salınmalıdır. Yönəldici sualları verməmək və şagirdlərin qrupda müstəqil şəkildə tədqiqat aparmasına imkan vermək olar.

Tədqiqatın aparılmasından sonra qrupun nümayəndələri digər qrupların qarşısında çıxış edirlər. Şagirdlərin yerin təbii zonalarının xarakteristikalarını nə qədər diqqətlə dinlədiklərini aydınlaşdırmaq üçün qruplarla sorğu keçirilir.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim bütün məlumatları təhlil edərək şagirdlərin tədqiqat işlərini ümumiləşdirir. Dərsliyin 88-ci səhifəsindəki 4-cü tapşırığı yerinə yetirməzdən əvvəl müəllim aşağıdakı sualları verə bilər:

– Azərbaycanın ərazisində hansı təbii zonalar vardır?

– Azərbaycanın iqlimini necə təsvir etmək olar?

Arktika zonasından tropik meşələrin zonasına qədər heyvanlar və bitkilərin növ müxtəlifliyinin və növlərinin sayının artmasının aydınlaşdırılması üçün 88-ci səhifədəki 3-cü tapşırığı yerinə yetirmək təklif olunur. Müəllim və şagirdlər öyrənilmiş təbii zonaların növ müxtəlifliyinin müqayisəsini aparır və belə bir nəticəyə gəlirlər ki, tropik zona torpaq və iqlim xüsusiyyətləri səbəbindən daha çox sayda bitki və heyvan növlərini özündə ehtiva edir.

Yaradıcı tətbiq üçün 88-ci səhifədəki 6-cı tapşırığın yerinə yetirilməsi tövsiyə olunur. Bu tapşırıqda tropik və ya qarışıq meşənin təsvirini də əlavə etmək olar.

Ev tapşırığı. 88-ci səhifədəki 1, 2, 5-ci tapşırıqlar.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Təbii zonaların coğrafi yerləşməsini fərqləndirir, bitki və heyvanlar aləminin müxtəlifliyi, yerin təbii zonalarının iqlimi və torpağının xüsusiyyətləri haqqında yazılı və şifahi formada öz fikirlərini formalaşdırmaq bacarıqlarını nümayiş etdirir, təbii zonaların arasında qarşılıqlı əlaqəni izah edir.

Yüksək səviyyə. Xəritədəki işarəyə müvafiq olaraq təbii zonaların adını çəkir, iqlimin yerin təbii zonalarının heyvan və bitki aləminə təsirinin bəzi xüsusiyyətlərini göstərir, təbii zonaların arasında əvvəllər müəyyən edilmiş qarşılıqlı əlaqəni xarakterizə edir.

Orta səviyyə. Yerin təbii zonalarının adını çəkir, lakin onları xarakterizə etmir. Xəritədəki işarəyə müvafiq olaraq əvvəllər müəyyən edilmiş fikirlərə əsaslanaraq, iqlimin yerin təbii zonalarının heyvan və bitki aləminə təsirinin bəzi xüsusiyyətlərinin adını çəkir.

Aşağı səviyyə. Yerin təbii zonalarının müxtəlifliyi, heyvanlar və bitki aləminin xüsusiyyətləri haqqında hazır informasiyanı tapır və götürür, dərslikdən nümunələrə yönəlir.

Mövzu 23	**Təbiətdəki əlaqələr (1-ci dərs)**
Standart	1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri izah edir. 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir.
Təlim məqsədi	1. Cansız varlıqlar arasındakı əlaqələri izah edir. 2. Canlı və cansız varlıqlar arasındakı əlaqələri izah edir. 3. İnsanın həyatında digər canlıların rolunu ızah edir.
İnteqrasiya	İnf. 1.2.2.
Təlim forması	Cütlərlə iş, kollektiv iş
Təlim üsulu	Mətnlə iş, problem-axtarış
Resurslar	Dərslik, şəkillər, iş vərəqləri, A4 və ya albom vərəqləri, rəngli karandaş

Dərsin gedişi

Motivasiya. Müəllim təbiətin, mənzərənin təsvir edildiyi şəkli yazı lövhəsinə asır (elektron resurslar mövcud olduğu zaman müəllim təbiət obyektlərini: mənzərəni, təbiətin təsvir edildiyi şəkli, təbiət haqqında videoçarxı ekranda nümayiş etdirir).

Müəllim:

– Şəklə baxın. Nə görürsünüz? (Uşaqların cavabları.)

– Bütün bunları bir sözlə necə adlandırmaq olar? (Doğrudur, təbiət.)

– 89-cu səhifədəki şəklə baxın. Nə görürsünüz? (Günəş, su, torpaq, buludlar.)

– Bu necə təbiətdir? (Cansız). Cansız təbiət nə deməkdir? (Qidalanmır, nəfəs almır.)

– Şəkildəki hansı obyektlər canlı təbiətə aiddir? (Dovşanlar, ağac, ot, güllər, quşlar.)

– Canlı təbiəti necə xarakterizə etmək olar? (Nəfəs alır, qidalanır, hərəkət edir.)

– 89-cu səhifədəki sxemə baxın. Obyektlərin arasındakı oxlar onların arasındakı əlaqələri bildirir.

Tədqiqat sualı. 1) *Cansız varlıqlar* arasında hansı əlaqələr vardır? 2) *Cansız* və *canlı varlıqlar* arasında hansı əlaqələr vardır?

Tədqiqatın aparılması. Şagirdlər informasiyanın araşdırılmasına başlamazdan əvvəl müəllim həmin mövzu üzrə şagirdlərin hansı informasiyanı əldə etmək istədiklərini müəyyən edir.

Müəllim:

– Siz bu mövzu üzrə nə bilmək istərdiniz?

Müəllim bütün sualları yazı lövhəsinə yazır. Əgər suallar çoxdursa, bir neçə sual bir sual kimi formalaşdırılır.

Cütlərlə iş. Hər bir cütlük sxemlərdən birini öyrənmək tapşırığı alır. Bölgü ardıcıllıqla həyata keçirilir (sıralar və ya cərgələr üzrə).

1-ci və 5-ci cütlüklər aşağıdakı sxem ilə kartlar alır:

Canlı təbiət ⟷ Cansız təbiət

Açar sözlərdən istifadə edərək canlı və cansız təbiət arasındakı əlaqənin təsvir edildiyi 3–4 cümlə tərtib edin.

Açar sözlər: su, külək, hava, heyvanların, bitkilərin çürüyən qalıqları, oksigen, torpaq.
Unutmayın: Oxlar canlı və cansız təbiətin öz aralarında bağlandığını bildirir.

2-ci və 6-cı cütlüklər aşağıdakı sxem ilə kartlar alır:

Heyvanlar ⟷ Heyvanlar

Açar sözlərdən istifadə edərək müxtəlif heyvanların arasındakı əlaqənin təsvir edildiyi 3–4 cümlə tərtib edin.

Açar sözlər: qurbağa, ağcaqanad, şir, cüyür, timsah, zebr, yırtıcı, otyeyənlər.

3-cü və 7-ci cütlüklər aşağıdakı sxem ilə kartlar alır:

Bitkilər ⟷ Heyvanlar

Açar sözlərdən istifadə edərək bitkilər və heyvanların arasındakı əlaqənin təsvir edildiyi 3–4 cümlə tərtib edin.

Açar sözlər: taxıl, siçan, çiçək, arı, kələm, dovşan, giləmeyvələr, ayı.

4-cü və 8-ci cütlüklər aşağıdakı sxem ilə kartlar alır:

İnsan ⟷ Təbiət

Açar sözlərdən istifadə edərək bitkilər və heyvanların arasındakı əlaqənin təsvir edildiyi 3–4 cümlə tərtib edin.

Açar sözlər: kağız, ağac, bal, arı, qoruqlar, insanlar, quşlar, quş yuvaları.

Cütlüklərin sayından asılı olaraq bölgünü davam etdirmək lazımdır. Qısa müzakirədən sonra cütlüklər mətnin tərtib edilməsinə başlayır.

Hər bir cütlük albom vərəqləri alır, onlar bu vərəqlərdə tərtib edilmiş cümlələri yazmalı və bir nümunə çəkməlidirlər. Nümunəni müəllim göstərə bilər. Müəllim albom vərəqində ağac şəkli çəkir və cümlə yazır. «Ağaclardan oduncaq alırlar. Oduncaqdan isə kağız hazırlayırlar».

Cütlərin işləri nümayiş etdirilir və müzakirə olunur. Şagirdlər bu fəaliyyətin nəticəsində bitkilər və heyvanlar, insan və təbiət, canlı və cansız təbiət arasındakı əlaqələrin əhəmiyyətini başa düşməlidir. Müəllim yuxarıda sadalanan obyektlərin arasında müqayisə apara bilər, eləcə də dərsliyin şəkillərindən istifadə edərək izahat verə bilər.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına qayıdır, şagirdlərin bütün ideyalarını ümumiləşdirir. 91-ci səhifədəki 3-cü tapşırıq yerinə yetirilir. Bu tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlər mətni diqqətlə oxuyurlar. Şagirdlərə cansız təbiətin amillərinin heyvanların həyatındakı rolunu xarakterizə etməyi təklif edərək tapşırığı tamamlamaq olar.

Mikroorqanizmlərin torpağın formalaşmasında rolunun aydınlaşdırılması üçün 91-ci səhifədəki 4-cü tapşırıq yerinə yetirilir. Müəllim bitkilərin və heyvanların qalıqlarının torpaqda çürüməsinin əhəmiyyətini və çürüntünün yaranmasını bir daha vurğulayır. 91-ci səhifədəki 4-cü tapşırıq yerinə yetirilərkən müəllim «Suyun təbiətdə dövr etməsi» anlayışını şagirdlərə izah edir.

Ev tapşırığı. 91-ci səhifədəki 2-ci tapşırıq.

Qiymətləndirmə. Səhifə 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 23	**Təbiətdəki əlaqələr (2-ci dərs)**
Standart	1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri izah edir.
Təlim məqsədi	Canlılar arasındakı əlaqələri izah edir.
İnteqrasiya	İnf. 1.2.3.; Tex. 3.1.2.; T.i. 2.1.4.
Təlim forması	Qruplarla iş, fərdi iş
Təlim üsulu	Praktiki iş, problemli vəziyyət
Resurslar	Dərslik, şəkillər, iş vərəqləri, A4 və ya albom vərəqləri, rəngli karandaş

Dərsin gedişi

Motivasiya. Yazı lövhəsində heyvanların, bitkilərin sxemi və şəkilləri verilir:



Müəllim:

– Sizin qarşınızda canlı orqanizmlərin zənciri vardır. O, hər bir əvvəlki halqanın sonrakı ilə qidalanmasını bildirir. Sizə artıq məlum olduğu kimi, ox orqanizmlərin bir-biri ilə əlaqəsini bildirir. Heyvanları və bitkiləri boş kvadratlar üzrə bölüşdürün. Şagirdlər fərziyyələrini söyləyirlər.

Şəkillər: dovşan, yerkökü, tülkü, şir.

Tədqiqat sualı. Qida zəncirinin orqanizmləri arasında hansı qarşılıqlı əlaqələr mövcuddur?

Tədqiqatın aparılması. Şagirdlər 91 və 92-ci səhifələrdəki mətni oxuyurlar.

Müəllim:

– Şəkillərə diqqətlə baxın, mətnin əvvəlindəki açar sözlərə diqqət yetirin.

Praktiki iş: Şagirdlərə müstəqil iş üçün iş vərəqləri paylanır.

İş vərəqinin nümunəsi

Qruplar: İstehsalçılar, İstehlakçılar və Dağıdıcılar.

İstehsalçılar – özləri qidalandırıcı maddələr istehsal edən və oksigen ayıran orqanizmlər

İstehlakçılar – hazır qidalandırıcı maddələri istifadə edən orqanizmlər

Dağıdıcılar – heyvanların qalıqlarını cansız təbiətə qaytararaq onları sadə maddələrə çevirən orqanizmlər

Aşağıda təqdim edilmiş orqanizmlərin hansı qrupa aid olduğunu yazın:

a) ot _____
в) inək _____
c) şir _____
d) yerkökü _____
g) göbələklər _____
e) dovşan _____
f) ağac _____
j) siçan _____
h) soxulcanlar _____
k) buğda _____

İş vərəqinin digər tərəfində aşağıdakı sxem təqdim edilir:



Buraxılmış kvadratlara lazımi sözlər yazılmalıdır.

Açar sözlər: Soxulcanlar, Yerkökü, Dovşan, Tülkü.

Tapşırıq yerinə yetirildikdən sonra müəllim şagirdlərlə birlikdə diskussiya ilə müzakirəyə başlayır.

Müəllim aşağıdakı sualları verə bilər:

– Qidalanmanın zəncirlərinin daha hansı nümunələri vardır?

– İstehsalçılar istehlakçılardan nə ilə fərqlənirlər?

– Onların arasındakı qarşılıqlı təsir necə baş verir?

– Dağıdıcılar yoxa çıxarsa, nə baş verər? Bitkilər qidalana bilərmi?

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Ümumiləşdirməyə 92-ci səhifədəki 4-cü tapşırığın yerinə yetirilməsindən başlamaq lazımdır. Müəllim əsas rolun üzvi maddələrin istehsalçıları kimi bitkilərə məxsus olduğu qidalanma zəncirlərinin əhəmiyyəti haqqında məlumatları şagirdlərlə birlikdə ümumiləşdirir. Müxtəlif informasiya mənbələri ilə işləmək, informasiyanı təhlil etmək və dəyişdirmək bacarıqlarının möhkəmləndirilməsi üçün 92-ci səhifədəki 1-ci tapşırıq yerinə yetirilir. Müəllim aşağıdakı anlayışları şagirdlərə xatırlatmalıdır: sadə maddələr (su, oksigen, karbon qazı) və mürəkkəb maddələr (qidalandırıcı maddələr).

92-ci səhifədəki 2-ci tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlər lüğət ilə işləyirlər. «Mikroorqanizmlər» anlayışının tərifini dəftərə yazırlar. Müəllim izah edir ki, göbələklər, soxulcanlardan başqa, mürəkkəb maddələrin sadə maddələrə qədər parçalanmasında iştirak edən daha kiçik orqanizmlər də mövcuddur – bu, torpaq bakteriyalarıdır. Bakteriyalar mikroorqanizmlərə aiddir.

Ev tapşırığı.

1. 92-ci səhifədəki 3-cü tapşırığı yerinə yetirin.
2. Qidalanma zəncirini tərtib edin və sizin tərəfinizdən qurulmuş qidalanma zəncirində iştirak edən orqanizmlərin şəklini çəkin.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Orqanizmlərin müxtəlif qruplarının qidalanma xüsusiyyətlərini təsvir edir, istehsalçılar, istehlakçılar və dağıdıcıların həyat fəaliyyətinin xüsusiyyətlərini müqayisə edir, canlı və cansız təbiətin qarşılıqlı əlaqəsini müəyyən edir, canlı orqanizmlərin arasındakı qarşılıqlı əlaqəni təhlil edir və qiymətləndirir, informasiyanı dəyişdirir, qidalanma zəncirinin müəyyən edilməsi üçün meyarları müstəqil şəkildə seçir.

Yüksək səviyyə. Canlı orqanizmlərin həyat fəaliyyəti proseslərini müqayisə edərək, istehsalçılar və istehlakçıların qidalanmasının xüsusiyyətlərini təsvir edir, mətndən informasiyanı tapır, orqanizmlərin ayrı-ayrı qrupları arasında qarşılıqlı əlaqəni müəyyən edir, informasiyanı qismən dəyişdirir, qidalanma zəncirini müəyyən etmək üçün meyarlardan istifadə edir.

Orta səviyyə. Təklif edilən informasiyanın əsasında mümkün qidalanma zəncirlərinin adını çəkir, istehlakçılar, istehsalçılar və dağıdıcıların arasındakı əlaqə haqqında mətndən informasiyanı tapır və götürür, canlı və cansız təbiət anlayışlarını fərqləndirir.

Aşağı səviyyə. Əvvəllər öyrənilmiş hazır informasiyanı tapır və götürür, hazır qidalanma zəncirini təsvir edir, canlı və cansız təbiətin amillərini söyləyir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan informasiyanı müəyyən edir.

Mövzu 24	**Ekologiya (1-ci dərs)**
Standart	1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir.
Təlim məqsədi	Ekologiyanı çirkləndirən mənbələr ilə bağlı kiçik təqdimatlar edir.
İnteqrasiya	A.d. 1.1.2., 3.1.5.
Təlim forması	Qruplarla iş, praktiki iş
Təlim üsulu	Əyani-illüstrativ, izahlı-illüstrativ, qismən axtarış, əlavə ədəbiyyat və dərslik ilə müstəqil iş
Resurslar	Dərslik, ensiklopediyalar, cızılmış sxem ilə flipçart, şəkillər və illüstrasiyalar, rəngli qələmlər, otaq bitkiləri, damcıtökən, sulfat turşusu ilə kolba, elektron resurslar

Dərsin gedişi

Motivasiya. Müəllim:

– Şəklə diqqətlə baxın. Siz nə görürsünüz? Şəkildə baş verənləri necə izah edə bilərsiniz? (Şagirdlərin cavabları.) Atmosferin qazla çirklənməsi yaşıl bitkilərə necə təsir göstərir? Şəkildə baş verən prosesləri hansı elm öyrənir? (Ekologiya.)

Təcrübə aparılır. Müəllim:

– Otaq bitkisinin (pelarqoniyanın) yaşıl yarpağını götürək. Yarpağın üzərinə bir qədər sulfat turşusu damcıladaq. Siz nə görürsünüz? (Bitkinin üzərinə sulfat turşusunun damcılarının düşdüyü yerlərdə dəliklər yaranmışdır.)

– Deməli, atmosferə atılan zərərli maddələrlə havanın çirklənməsi onunla təhlükəlidir ki, zərərli maddələr buxarlanır, daha sonra isə turşu yağışı şəklində torpağa düşür.

– Mən sizə bir nümunə göstərdim, bu nümunə təbiətə düşüncəsiz münasibətin nəticələrinin nə qədər təhlükəli ola biləcəyini göstərir.

– Növbəti şəklə baxın.

Tədqiqat sualı. Bəşəriyyətin qarşısında hansı qlobal ekoloji problem durur?

Tədqiqatın aparılması. Müəllim şagirdləri 5 qrupa bölür. Hər bir qrup təsvir ilə flipçart alır, 5 dəqiqə ərzində problemli vəziyyətlə əlaqədar araşdırma aparır və flipçartı doldurur.

1-ci qrup: Problem – havanın çirklənməsi
2-ci qrup: Problem – dünya sularının çirklənməsi
3-cü qrup: Problem – torpağın çirklənməsi
4-cü qrup: Problem – Azərbaycanın ekoloji problemləri
5-ci qrup: Problem – bütün dünyanın ekoloji problemləri



Müəllim şagirdlərə xatırladır ki, tədqiqata yalnız mövzu ilə diqqətlə tanış olduqdan sonra başlamaq lazımdır (şagirdlər mövcud biliklərə, əvvəllər əldə edilmiş informasiyaya istinad edə bilər və ya əlavə informasiya mənbələrindən istifadə edə bilər: dərslik, ensiklopediyalar, elektron

resurslar (elektron təminat olduğu zaman). Şagirdlər tədqiqatın aparıldığı zaman həmçinin 95-ci səhifədəki 5-ci tapşırıq ilə tanış olmalı və özünün işində qarşıya qoyulmuş suala cavab verməlidirlər. Müəllim həmçinin növbəti dəfə qrupda iş qaydalarını xatırladır: sakit danışmaq, digərlərinə mane olmamaq, münaqişəyə girməmək. Birinci mərhələdə şagirdlər problemin səbəblərini müəyyən edir, 2-ci mərhələdə arqument və faktların toplanmasına başlayır, 3-cü mərhələdə nəticələr çıxarırlar.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim tədqiqat sualına qayıdır, şagirdlərlə birlikdə ekologiya problemlərini və ətraf mühitin qorunmasına yönəldilmiş tədbirləri müzakirə edir.

Dərsliyin 94-cü səhifəsindəki 2-ci tapşırıq və 95-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. 4-cü tapşırığın yerinə yetirilməsi zamanı müəllim şagirdlərin diqqətini məntiqi ardıcıllığı müəyyən edən hadisələr zəncirinə cəlb edir. Müəllim məntiqi zəncirlə bağlı nümunə göstərə bilər.

Qrupun işinin qiymətləndirilməsi metodiki vəsaitdə 12-ci səhifədə təklif edilən qiymətləndirmə meyarlarının əsasında həyata keçirilə bilər.

Sonda müəllim aşağıdakı sualları verə bilər:

– Bu gün biz sizinlə hansı mürəkkəb problemi həll etməyə çalışdıq?

– Bizim hər birimiz ekologiya problemlərinin həll edilməsi üçün nə edə bilər?

– Necə düşünürsünüz, əgər təbiət danışa bilsəydi, bəşəriyyətə nə söyləyərdi?

Ev tapşırığı. «Ana təbiətin bəşəriyyətə məktubu» mövzusunda məktub yazmaq.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Ekoloji problemləri fərqləndirir, problemli vəziyyətlərdən çıxış yollarını tapır, ətraf mühitin yoluxması amillərinin müxtəlifliyi haqqında özünün fikirlərini şifahi və yazılı şəkildə formalaşdırmaq bacarıqlarını nümayiş etdirir, insanın ekologiyaya mənfi təsiri və qlobal problemlərin yaranması arasındakı qarşılıqlı əlaqəni izah edir.

Yüksək səviyyə. Təklif edilən faktlara münasib olaraq ekoloji problemləri, arqument və faktları söyləyir, ətraf mühitin yoluxması amillərinin müxtəlifliyinin bəzi xüsusiyyətlərini şifahi və yazılı şəkildə göstərir, insanın ekologiyaya mənfi təsiri və qlobal problemlərin mümkün yaranması arasında əvvəllər müəyyən edilmiş qarşılıqlı əlaqəni xarakterizə edir.

Orta səviyyə. Bəzi ekoloji problemlərin adını çəkir, lakin onları xarakterizə etmir. Əvvəllər müəyyən edilmiş səbəblər və arqumentlərə müvafiq olaraq, əvvəllər müəyyən edilmiş müddəaların əsasında ətraf mühitin yoluxmasının bəzi amillərinin adını çəkir.

Aşağı səviyyə. Dərslikdən nümunələrə istinad edərək, ətraf mühitin çirkləndirilməsi amillərinin müxtəlifliyi haqqında hazır informasiyanı tapır və götürür.

Mövzu 24	**Ekologiya (2-ci dərs)**
Standart	1.2.3. Yaşadığı ərazinin, məhəllənin planını çəkir. 1.4.1. Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir.
Təlim məqsədi	1. Yaşadığı ərazini planda təsvir edir. 2. Yaşadığı ərazidə ekologiyanı sağlamlaşdırmaq üçün kiçik layihələr hazırlayıb təqdim edir.
İnteqrasiya	A.d. 1.2.1., 2.1.2.; İnf. 2.1.1.
Təlim forması	Qruplarla iş
Təlim üsulu	Xəritə ilə iş, diskussiya
Resurslar	Dərslik, yaşadığı ərazinin, məhəllənin planı və şərti işarələr ilə iş vərəqləri, coğrafi xəritə

Dərsin gedişi

Motivasiya: Yazı lövhəsinə yaşadığı ərazinin, məhəllənin planı vurulur. Müəllim yaşadığı ərazinin planı anlayışını izah edir.

– Plan – iri miqyasda şərti işarələr ilə yerinə yetirilmiş yerin kiçildilmiş təsvirinin çertyojudur. Planlar, adətən, yerin kiçik sahələri üçün tərtib edilir. Planlardan binaların tikintisi, yolların salınması zamanı istifadə olunur. Yerin planı – kiçik torpaq sahəsinin kiçildilmiş şəkildə təsvir edildiyi çertyojdur. Bütün obyektlər şərti işarələr ilə təsvir edilir.



Tədqiqat sualı. Yaşadığımız ərazinin ciddi vəziyyətinə hansı mənbələr təsir göstərir?

Tədqiqatın aparılması. Müəllim püşkatma metodu ilə şagirdləri 4–6 nəfərdən ibarət qruplara bölür və yaşadığı ərazinin planını onlara paylayır. Hər bir qrup 3 dəqiqə ərzində, plandan istifadə edərək, obyektləri çəkməli və vərəqdə misal göstərməlidir. Məsələn, kiçik qardaşı götürmək üçün məktəbdən bağçaya gedən ata ilə oğulun yol boyunca nə gördükləri haqqında hekayə yazmalıdır. Misal göstərilir: «Biz ... prospekti ilə gedirik. Bizdən solda kafe, sağda isə... vardı». Müəllim xatırladır ki, qrupun bütün iştirakçıları işləməlidir və özü də nəzarət edir, prosesi isti-qamətləndirir.

Qruplar hekayə ilə çıxış edirlər. Onların çıxış ardıcıllığı da həmçinin püşkatma ilə müəyyən edilir.

Mətnlə iş. Şagirdlər «Məhəlləmizin planı» mətnini oxuyurlar. Mətndə yaşayış ərazisinin planının tərtib edilməsi ətraflı şəkildə təsvir edilir. Şagirdlər mətnlə tanış olduqdan sonra flipçartda yaşayış ərazisinin planının tərtib edilməsi tapşırığını alırlar. Planda ətraf mühitin ekologiyasına təhlükə təşkil edən obyektləri işarə etmək lazımdır. Yerin planının tərtib edilməsini valideynlərlə razılaşdırmaq lazımdır.

Müəllim şagirdlərlə birlikdə ətraf mühitin çirkləndirilməsinin mümkün mənbələri haqqında müzakirə aparır: restoranlar və kafelər (sanitariya normalarına riayət olunmadığı təqdirdə gəmirici və həşəratların meydana çıxması), zibilxanalar – müxtəlif yoluxucu xəstəliklərin daşıyıcıları olan

milçəklərin çoxalması mənbəyi, zibil qutularının olmaması, yüksək gərginlikli elektrik ötürücü xətlərinin olması, yaşayış evlərinin yaxınlığında olan avtomobil magistralı, evlərin yaxınlığında fabrik və zavodların yerləşməsi və s.

Şagirdlər müzakirədən sonra 96-cı səhifədəki 1-ci sualı cavablandırırlar.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim tədqiqat sualına qayıdır, tədqiqatın gedişində əldə edilmiş bütün məlumatlar bir daha ümumiləşdirilir.

96-cı səhifədəki 2-ci və 3-cü tapşırıq yerinə yetirilir. 2-ci tapşırıq yerinə yetirilərkən şagirdlərin diqqətini ətraf mühitin ekoloji vəziyyətinə təhlükə bildirən, işarələrin «+» sayına yönəltmək lazımdır.

Ev tapşırığı. Məhəllənizin ekoloji vəziyyətini əks etdirən məlumat hazırlayıb təqdim edin.

Qiymətləndirmə. Səhifə 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 25	**Yurdumuzun işıqları**
Standart	1.1.3. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar edir.
Təlim məqsədi	Şirvan, Mingəçevir, Şəmkir elektrik stansiyaları haqqında kiçik təqdimatlar edir.
İnteqrasiya	A.d. 1.1.1., 1.1.2.
Təlim forması	Praktiki iş, cütlərlə iş
Təlim üsulu	Problem-axtarış, praktiki iş, müzakirə ilə diskussiya
Resurslar	Dərslik, batareyalar, lampalar, naqillər, praktiki işlər üçün dəftərlər, şəkillər, videomateriallar

Dərsin gedişi

Motivasiya. Müəllim:

– Milyonlarla il bundan əvvəl ibtidai insanlar od əldə etməyi öyrənmişdilər. Məşəl belə yaranmışdı. Bir çox illər keçdi, insanlar neft çıxarmağa və neft emalı məhsullarından istifadə etməyə başladılar. Neft lampaları da belə yarandı. Bir az da vaxt keçdi, elektrik lampaları neft lampalarını əvəz etdi. Elektrik lampası nə üçün lazımdır? (Uşaqların cavabları.)



Tədqiqat sualı. Elektrik necə yaranır? Enerjinin mənbəyi hansılardır?

Tədqiqatın aparılması. Müəllim:

– Biz enerjinin mənbələrini araşdırmazdan əvvəl praktiki işi yerinə yetirək və elektron saatların, mobil telefonun, oxuya və hərəkət edə bilən uşaq oyuncaqlarının necə işlədiyini aydınlaşdıraq.

– Əşyaların işləməsi üçün onlarda nə olmalıdır? (Doğrudur, batareyalar.)

Cütlərlə iş. Müəllim şagirdlərdən biri ilə sadə qapalı elektrik dövrəsinə dair təcrübəni nümayiş etdirir.

Müəllimin şərhi:

– Qidalanma mənbəyi batareyadır, elektrik enerjisi naqillər vasitəsilə batareyadan lampalara daxil olur.

Təcrübəni nümayiş etdirdikdən sonra şagirdlər müstəqil işin yerinə yetirilməsinə başlayır. Əgər lampa yanarsa, iş yerinə yetirilmiş hesab olunur.

Müəllim izah etməyə davam edir:

– Bu batareyanın gücü yalnız bir lampa üçün kifayətdir. Mövzunun birinci abzasını oxuyun.

– Gəlin evlərimizin, məktəblərin, müəssisələrin işıqlandırılması, elektrik cihazlarının işləməsi üçün lazım olan enerjinin necə yarandığını aydınlaşdıraq.

Mətnlə iş. Şagirdlər mətni oxuyurlar. Mətnin bütünlükdə oxunması metodunun tətbiq edilməsi yaxşı olardı. Bu metod şagirdlərin idrakını və kommunikativ bacarıqlarını formalaşdırır, mətnin məzmunu daha şüurlu şəkildə mənimsənilir. Oxuya başlamazdan əvvəl müəllim hər bir sonrakı abzasın əvvəlki ilə bağlı olduğunu xatırladır. Əgər şagirdlərdə suallar meydana gələrsə və ya onlara daha çox informasiya lazım olarsa, bu zaman onlar sualları dəftərə yazmalı və onları müəllimlə müzakirə etməlidirlər.

Növbəti mərhələdə şagirdlər suallar verir, müəllim isə suallara cavab verir və əldə edilmiş məlumatları ümumiləşdirir. Müəllim müzakirənin gedişində hidroelektrik stansiyanın işi haqqında şəkilləri, fotoları, videomaterialları (elektron resursları mövcud olduğu zaman) nümayiş etdirir.

Kollektiv iş prosesində 99-cu səhifədəki 2-ci tapşırıq yerinə yetirilə bilər.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına qayıdır. O, bir daha suallar verir və alınmış cavabları ümumiləşdirir.

Şəkil üzrə iş. Müəllim:

– Siz şəkildə nə görürsünüz? Oğlanın hərəkətlərini təsvir edin. Şəkillə bağlı suallara cavab verin.

Əldə olunmuş məlumatların təhlil edilməsi prosesində aşağıdakı sualları vermək olar:

– Hidroelektrik stansiyanın üstünlükləri və çatışmazlıqları nədən ibarətdir?

– Siz hansı iri hidroelektrik stansiyaları tanıyırsınız? Onlar harada yerləşir? Azərbaycanın ən böyük hidroelektrik stansiyalarının adını çəkin.

– Hidroelektrik stansiyalar harada tikilir?

– Hidroelektrik stansiyalar nə üçün tikilir?

Şagirdlər müzakirənin gedişində bu nəticəyə gəlirlər: Hidroelektrik stansiyalar (SES) sürətlə axan və böyük su istehlakına malik çayların üzərində tikilir. Su ehtiyatları kənd təsərrüfatında, sənayedə və məişətdə istifadə olunur. Üstünlük bir də ondan ibarətdir ki, hidroelektrik stansiyalar ekologiya üçün təhlükə yaratmır.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Elektrik mənbələri anlayışını xarakterizə edir, elektrik enerjisinin ötürülməsi üsullarını təsvir edir, əldə edilmiş informasiyanı təhlil edir və qiymətləndirir, hidroelektrik stansiyaların rolunu müəyyən edir, hidroelektrik stansiyaların işinin üstünlüklərini və çatışmazlıqlarını müəyyən edir, informasiyanı dəyişdirir.

Yüksək səviyyə. Aparılmış təcrübənin əsasında enerjinin ötürülməsi üsulunu təsvir edir, hidroelektrik stansiyaların adını çəkir, onların yerləşdiyi yeri müəyyən edir, mətndən əldə edilmiş informasiyadan istifadə edərək fərqləri göstərir, təsvirin ayrı-ayrı meyarları arasındakı qarşılıqlı əlaqəni müəyyən edir, informasiyanı qismən dəyişdirir.

Orta səviyyə. Təklif edilən informasiyanın əsasında mümkün enerji mənbələrini söyləyir, enerji mənbələri və hidroelektrik stansiyalar arasındakı əlaqə haqqında informasiyanı mətndə tapır və götürür, onların yerləşməsi və əhəmiyyətinin bəzi xüsusiyyətlərini fərqləndirir.

Aşağı səviyyə. Əvvəllər öyrənilmiş hazır informasiyanı tapır və götürür, əvvəllər təklif edilmiş enerji mənbələrinin adını çəkir, hidroelektrik stansiyaların əhəmiyyətini qismən təsvir edir, açıq şəkildə bildirilən və asanlıqla lokallaşdırılan məlumatı müəyyən edir.

Ev tapşırığı. «Azərbaycanda yenilənən enerji mənbələri» mövzusunda təqdimat hazırlayın.

Təqdimatlar 8 qrupa bölünür. Hər 2 qrup 4 tapşırıqdan birini alır. Qruplar püşkatma yolu ilə formalaşdırılır.

Tədqiqat üçün mövzular:

1. Azərbaycanda külək elektrik stansiyaları və onların əhəmiyyəti

2. Azərbaycanda hidroelektrik stansiyalar və onların əhəmiyyəti

3. Azərbaycanda istilik elektrik stansiyaları və onların əhəmiyyəti

4. Atom elektrik stansiyaları və onların əhəmiyyəti

Növbəti dərsdə (2-ci saat) qruplar öz işlərini təqdim edirlər. Digər siniflərin şagirdlərinin tanış olması üçün məktəbin vestibülündə və ya kitabxanada şagirdlərin işlərindən ibarət sərgi təşkil etmək olar.

Təqdimatların qiymətləndirilməsini aşağıdakı meyarlar üzrə həyata keçirmək olar:

Təqdimatların qiymətləndirilməsi meyarları. Cəmi – 8 bal. 8 bal – ən yüksək nəticə, 6–7 bal – yüksək nəticə, 4–5 bal – orta nəticə, 3 bal – aşağı nəticə.

Mövzu 26	**Enerji mənbələri (1-ci dərs)**
Standart	1.1.2. Təbii resurslardan, təbiət hadisələrindən («işıq», «səs» və «enerji») istifadədə elmin rolunu izah edir. 1.1.3. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar edir.
Təlim məqsədi	1. Təbii resurslardan istifadədə elmin rolunu izah edir. 2. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar edir.
İnteqrasiya	İnf. 2.2.2.; Tex. 1.2.4.
Təlim forması	Praktiki iş, diskussiya
Təlim üsulu	Cütlərlə iş, fərdi iş, qruplarla iş
Resurslar	Hər bir cütlük üçün 5 parça mis izolyasiyalı məftil, 4 limon, 4 sancaq, cib fənərinin lampası, dərslik, iş vərəqləri

Dərsin gedişi

Motivasiya. Şagirdlər mövzunun birinci abzasını oxuyurlar. Müəllim «ənənəvi enerji mənbələri ilə işləyən elektrik stansiyaları» anlayışını izah edir. Şagirdlər tərifi müstəqil şəkildə dəftərə yazırlar.

Qeyd: *Ənənəvi enerji mənbələri ilə işləyən elektrik stansiyaları üç növə ayrılır: istilik, atom və hidroelektrik stansiyaları.*

Tədqiqat sualı. Azərbaycanda istifadə olunan enerjinin əsas mənbələri hansılardır?

Tədqiqatın aparılması. Müəllim:

– Gəlin təcrübə aparaq və enerjinin hansı üsullarla alına biləcəyini öyrənək.

Müəllim əvvəlcədən hazırlanmış resurslardan istifadə edərək qarşıda duran işin gedişini şagirdlərə izah edir.

Praktiki iş (cütlərlə iş).

İşin gedişi.





1. Dəftərxana sancaqlarını yarısına qədər batıraraq limonlara daxil edin.
2. Əvvəlcədən 3 sm məsafədə təmizlənmiş məftillərin uclarını (müəllim məftillərin uclarını müstəqil şəkildə və ya digər şəxslərin köməyi ilə təmizləyir) limonlara daxil edilmiş sancaqlara burub bağlayın.
3. Məftilin digər ucunu, şəkildə göstərildiyi kimi, sancaqdan 1–1,5 sm məsafədə qonşu limona bağlayın.
4. Məftilin digər sərbəst ucu lampanın kontaktlarına bağlanır.
5. Lampa yanmalıdır.

Hər bir cütlük təcrübəni yerinə yetirir. Əgər lampa yanarsa, iş yerinə yetirilmiş hesab olunur.

Nəticə. Enerji ayrılır, lampa yanır.

Tədqiqat davam etdirilir. Müəllim şagirdləri 6–8 qrupa bölür (şagirdlərin sayından asılı olaraq).

Qruplarla iş. Müəllim:

– İstilik stansiyalarının işini nəzərdən keçirin. Mətni oxuyun və «İES-in üstünlükləri və çatışmazlıqları» tədqiqatını yerinə yetirin. İşin sonunda hər bir qrup ekologiyaya zərər vurmadan enerjinin əldə edilməsi üçün metod və ya vasitələri təklif edə bilər.

Qeyd: *Tədqiqatın tam şəkildə aparılması üçün müəllim bu mövzu üzrə keçən illərin ən yaxşı işlərini, əlavə çap materiallarını «Kömək lövhəsi»nə asır. Şagirdlərin əlavə ədəbiyyatla təmin edilməsi üçün məktəbin kitabxana fondundan istifadə etmək lazımdır. Sinifdə «Əlavə ədəbiyyat guşəsi»nə xüsusi yer ayrılmalıdır, guşədə tanışlıq və tədqiqat işinin aparılması üçün əlavə ədəbiyyat yerləşdirilməlidir, məsələn: ensiklopediyalar, kitablar, məqalələr.*

Dərsdə qarışıqlığın qarşısının alınması üçün müəllim hər bir qrupdan bir nəfərin yaxınlaşa biləcəyi ilə bağlı xəbərdarlıq edir. 4 nəfərdən çox olmayaraq, «Əlavə ədəbiyyat guşəsi»nin yaxınlığında olmaq müddəti 2 dəqiqədən çox deyildir. Zərurət yarandığı təqdirdə müəllim prosesi tənzimləyir, çətin vəziyyətlər meydana gəldiyi zaman kömək edir.

Hər bir qrup yerinə yetirilmiş işin nəticələri ilə çıxış edir. Şagirdlər onlardan hər birinin ümumi işin hansı hissəsini məruzə edəcəyini özləri bölüşdürürlər.

Qiymətləndirmə dərsin istənilən mərhələsində həyata keçirilə bilər, qrupun qiymətləndirilməsi meyarları metodiki vəsaitdə 12-ci səhifəsində təklif edilir.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Müəllim şagirdlərlə birlikdə İES-in üstünlükləri və çatışmazlıqları haqqında məlumatları ümumiləşdirir. Dərsliyin 101-ci səhifəsindəki 2-ci və 3-cü tapşırıqlar yerinə yetirilir. Sonra müəllim dərsliyin mətnlərinə istinad edərək, İES-in üstünlükləri və çatışmazlıqları haqqında məlumatları ümumiləşdirərək şagirdlərin cavablarını tamamlayır.

Üstünlüklər: İES istənilən ərazilərdə inşa edilə bilər, yanacağın bütün növləri ilə işləyir, yalnız elektrik enerjisi deyil, həm də evlərin qızdırılması üçün, buxarın əldə edilməsi üçün enerji istehsal edir.

Çatışmazlıqlar: işlənmiş su hovuzlara qayıdır ki, bu da suyun ekoloji vəziyyətinin pozulmasına gətirib çıxarır, atmosferə çox miqdarda zərərli qazlar, eləcə də havanın çirklənməsinə və qlobal istiləşməyə gətirib çıxaran dəm qazı atılır.

Ev tapşırığı. Dərsliyin 101-ci səhifəsindəki 1-ci tapşırığı yerinə yetirin.

Qiymətləndirmə. Səh. 13-də təqdim olunmuş cədvəl üzrə aparıla bilər.

Mövzu 26	Enerji mənbələri (2-ci dərs)
Standart	1.1.2. Təbii resurslardan, təbiət hadisələrindən («işıq», «səs» və «enerji») istifadədə elmin rolunu izah edir. 1.1.3. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar edir.
Təlim məqsədi	1. Təbiət hadisələrindən istifadədə elmin rolunu izah edir. 2. Azərbaycanda mövcud olan alternativ enerji mənbələri haqqında kiçik təqdimatlar edir.
İnteqrasiya	İnf. 1.1.3.
Təlim forması	Kollektiv iş, fərdi iş
Təlim üsulu	Xəritə üzərində iş metodu, müşahidə, problemin həlli
Resurslar	Dərslik, şəkillər, illüstrasiyalar, coğrafi xəritə, iş vərəqləri

Dərsin gedişi

Motivasiya. Müəllim:

– Dərsliyin 102-ci səhifəsindəki şəkilləri nəzərdən keçirin. Siz şəkillərdə nə görürsünüz? Təsvir edin (şagirdlər şəkilləri təsvir edirlər). Siz enerji mənbələrini görürsünüz.

Tədqiqat sualı. Ölkəmizdə hansı alternativ enerji mənbələri vardır?

Tədqiqatın aparılması. Mətnlə iş bacarıqlarının formalaşdırılması, informasiyanın bir növünün digərinə keçirilməsi üçün mətnlə iş aparılır.

Mətnlə iş. Şagirdlər dərslikdən alternativ enerji mənbələri haqqında mətni diqqətlə oxuyur, onları daha çox maraqlandıran və ya onlarda sual yaradan fraqmentləri mətndən köçürürlər. Müəllim şagirdlər tərəfindən əvvəllər hazırlanmış alternativ enerji mənbələri haqqında təqdimatlara (məruzələrə) bir daha qayıdır. Şagirdlər qruplar üzrə çıxış edirlər. Müəllim şagirdlərə bir daha xatırladır ki, çıxışları dinləyərkən qrup iştirakçılarının məruzələrinin gedişində meydana gələ biləcək sualları yazmaq lazımdır.

Çıxışlardan sonra qrupun iştirakçıları və qalan şagirdlər çarpaz sorğuya başlayırlar. Qrupun iştirakçıları sinfə suallar verir və bununla da sinif yoldaşlarının onları nə qədər diqqətlə dinlədiyini müəyyən edirlər. Şagirdlər sinfə, ilk növbədə, qrup iştirakçıları çıxış etdikləri zaman onların yazdıqları sualları verirlər.

Xəritə ilə iş (coğrafi xəritə ilə iş üzrə sadə bacarıqların formalaşdırılması). Azərbaycanın elektrik enerjisi istehsal edən ən iri stansiyalarının təsvir edildiyi dərsliyin 102-ci səhifəsindəki xəritə ilə tanış olmaq üçün şagirdlər yuxarıda qeyd edilən stansiyaları Azərbaycan Respublikasının coğrafi xəritəsində tapırlar.

Dərsliyin 103-cü səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir.

Ümumiləşdirmə və nəticələrin çıxarılması. Coğrafi proqnozlaşdırma bacarıqlarının, əvvəllər əldə edilmiş biliklərin təcrübədə tətbiq edilməsi bacarıqlarının formalaşdırılması üçün şagirdlər dərsliyin 103-cü səhifəsindəki 3-cü və 4-cü tapşırıqları yerinə yetirirlər. 3-cü tapşırıqda şagirdlər Venn diaqramının doldurulması yolu ilə alternativ və ənənəvi enerji mənbələrinin fərqlərini və bənzərliklərini tapırlar.

Dərsliyin 103-cü səhifəsindəki 4-cü tapşırıqda şagirdlər cədvəli doldururlar, cədvəldə alternativ və ənənəvi enerji mənbələrinin üstünlükləri və çatışmazlıqları göstərilir. Müəllim xatırladır ki, cədvəli dolduran zaman qrup iştirakçılarının çıxışlarında olan informasiyanı və dərsliyin mətnini oxuyan zaman şagirdlərin tanış olduğu informasiyanı nəzərə almaq lazımdır.

Müəllim tədqiqat sualına qayıdır və şagirdlərlə birlikdə tədqiqata yekun vurur.

Nəticələr: Alternativ (yenilənən) enerji mənbələri ekoloji baxımdan təmizdir, ətraf mühitə zərərli maddələr atmır, bütünlükdə ölkə üçün iqtisadi baxımdan faydalıdır.

Ev tapşırığı. Alternativ enerji mənbələrindən istifadəyə dair layihə hazırlayın.

Qiymətləndirmə meyarları:

Ən yüksək səviyyə. Alternativ və ənənəvi enerji mənbələrinin coğrafi mövqeyini fərqləndirir, yenilənən enerji mənbələrinin müxtəlifliyi, yerləşmə və istifadə xüsusiyyətləri haqqında öz fikirlərini yazılı və şifahi formada formalaşdırmaq bacarıqlarını nümayiş etdirir, alternativ və ənənəvi enerji mənbələrinin arasındakı qarşılıqlı əlaqəni izah edir.

Yüksək səviyyə. Xəritədəki işarələrə müvafiq olaraq alternativ və ənənəvi enerji mənbələrinin adını çəkir, alternativ mənbələrinin yerləşməsi və istifadəsinin xüsusiyyətlərinin adını çəkir, yenilənən və yenilənməyən enerji mənbələri arasında əvvəllər müəyyən edilmiş qarşılıqlı əlaqəni xarakterizə edir.

Orta səviyyə. Alternativ və ənənəvi enerji mənbələrinin adını çəkir, lakin onları xarakterizə etmir. Xəritədəki işarələrə müvafiq olaraq, əvvəllər müəyyən edilmiş fikirlərə əsasən alternativ enerji mənbələrinin bəzi xüsusiyyətlərinin adını çəkir.

Aşağı səviyyə. Dərslikdən nümunələrə istiqamətlənərək alternativ və ənənəvi enerji mənbələrinin müxtəlifliyi, yerləşmə və istifadəsinin xüsusiyyətləri haqqında hazır informasiyanı tapır və götürür.

KSQ NÜMUNƏSİ

I. DÖVLƏTİMİZ, HÜQUQLARIMIZ, VƏZİFƏLƏRİMİZ

1. Sxemə əsasən doğru bəndi müəyyən edin.



1. X – cəmiyyətdə davranış qaydalarına əməl etmək
2. Y – tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumamaq
3. Z – Azərbaycan Respublikasının dövlət rəmzlərinə bələd olmaq
4. K – başqa xalqların adət-ənənələrinə hörmətlə yanaşmamaq

2. Verilənlərə diqqət yetirin və məntiqi biliklərinizə əsaslanaraq X-i tapın.

Milli dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq uşağın hüququdur.
Biliklərə yiyələnmək uşağın əsas vəzifəsidir.
Özünü faydalı fəaliyyətə hazırlamaq uşağın əsas vəzifəsidir.
Hərtərəfli inkişafetmə uşağın hüququdur.
Hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək…… .

X _____

3. Aşağıdakı şəkli nəzərə alaraq və açar sözlərdən isifadə edərək cümlələri tamamlayın:

Muasir dövrdə dünya dövlətləri bir araya gələrək qurumlar yaradırlar. Belə qurumlara ..... deyilir. Dünya dövlətləri ..... imzalayır, bununla da orada göstərilənləri yerinə yetirməyi öhdələrinə götürürlər. Belə sənədlərdən biri də Uşaq Hüquqları haqqında ..... . Bu sənədi imzalayan dövlətlər uşaq ..... qorumağa borcludurlar.

Açar sözlər: *Konvensiya, beynəlxalq sənədlər, beynəlxalq təşkilatlar, hüquqlar.*

4. Uyğun variantları xətlərlə birləşdirin.

1. İnkişaf hüququ	**A.** Uşağın fiziki və əqli sağlamlığının qorunması və möhkəmləndirilməsi üçün onun vacib olan qida məhsulları, tibbi xidmət və s. ilə təmin olunması
2. Müdafiə hüququ	**B.** Uşağın təhsil alması, yaradıcılıqla məşğul olması, biliklər əldə etməsi, istirahəti və başqa fəaliyyətlərinə imkan yaradılması
3. Cəmiyyətin həyatında iştirak etmək hüququ	**C.** Uşağın döyülmə, təhqir olunma, müharibələrə cəlb edilmə, işlədilmə və başqa zorakılıqlardan müdafiəsi
4. Yaşamaq hüququ	**D.** Uşaqların təşkilatlar yaratması, fikirlərini sərbəst bildirməsi, yaşlarına uyğun tədbirlərə qatılması və digər fəaliyyətləri üçün şəraitin təmin olunması

5. Cümləni tamamlayın və buraxılmış sözü yerinə yazın:

«Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu ..... xidmət edir.

6. Nümunəyə əsasən uyğunluğu müəyyən edin: Nümunə: 1. B. II

Cavab:

Dövlət orqanı	Dövlət orqanlarında çalışanlar (fəaliyyət göstərənlər)	Fəaliyyət
1. Milli Məclis	A. Hakim	I. İnsan hüquqlarını müdafiə edir.
2. Nazirlər Kabineti	B. Millət vəkilləri	II. Ölkə üçün qanunlar hazırlayır.
3. Hüquq-mühafizə orqanları	C. Nazirliklər	III. Qəbul edilmiş qanunları həyata kecirir.

7. Bu simvollar hansı funksiyaları yerinə yetirir?

Cavab: _____

asan xidmət ***Cavab:*** _____

Cavab: _____

Cavab: _____

8. Ailə büdcəsi ilə dövlət büdcəsini Venn diaqramında müqayisə edin.



9. Verilmiş söz və söz birləşmələrindən cümlələr qurun, şəkilləri adlandırın.

Birinci cümlə: məvacib, istehsal olunan məhsulun, tikintinin və xidmətin satışından əldə olunan vəsait

_____

İkinci cümlə: dövlət büdcəsi, ödəniş köçürülən, məcburi

_____

10. Boş xanaları doldurun.

Pul vahidləri	Üzərində nə təsvir olunmuşdur?
	Tarix mövzusuna həsr olunmuşdur.
5 manatlıq	
	Əsginasın üzərində Azərbaycan xalq calğı alətləri – *tar, kamança, qaval* və *not açarı* təsvir olunmuşdur.
20 manatlıq	

11. Aşağıda gostərilənlərdən hansıları şəxsiyyət vəsiqəsinə aiddir?

a) Ölkədə yaşayan hər bir vətəndaşa təqdim edilir.

b) Bu sənədi olan hər bir şəxsin dövlət orqanında işləmək hüququ var.

c) Ölkədə yaşayan və 16 yaşına catmış hər bir şəxsin şəkli vurulmuş şəxsiyyət vəsiqəsi olur.

d) Bu sənədlə ölkədən kənara da getmək olar.

e) Bu sənəd seçkilərdə iştirak etmək hüququ verir.

12. Sual: *Tibbi sığorta nə üçün lazımdır?*
Cavab: _____ .
Cavabı əsaslandırın.

Qiymətləndirmə meyarları

Tapşırıq 1

Doğru cavab: *1, 3.*

Bal şkalası	Meyarlar
5 bal	***a)*** Bəndlər düzgün yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 2

Doğru cavab: *X* – dövlətin vəzifəsi

Bal şkalası	Meyarlar
5 bal	***a)*** Cavab düzgün yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 3

Doğru cavab: *beynəlxalq təşkilatlar, beynəlxalq sənədlər, Konvensiya, hüquqlar.*

Bal şkalası	Meyarlar
10 bal	***a)*** Açar sözlər tam doğru yerləşdirilmişdir.
5 bal	***b)*** Hər iki açar sözləri doğru yerləşdirilmişdir.
0 bal	***c) a, b*** hallarından başqa bütün hallar

Tapşırıq 4
Doğru cavab: *1-B; 2-C; 3-D; 4-A.*

Bal şkalası	Meyarlar
10 bal	***a)*** 1-B; 2-C; 3-D; 4-A
5 bal	***b)*** iki və ya üç variant düzgün yazılmışdır.
0 bal	***c) a, b*** hallarından başqa bütün hallar

Tapşırıq 5
Doğru cavab: *Hər bir uşağa*

Bal şkalası	Meyarlar
5 bal	***a)*** Düzgün cavab yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar.

Tapşırıq 6
Doğru cavab: *1.B.II; 2.C.III; 3.A.I.*

Bal şkalası	Meyarlar
5 bal	***a)*** 1.B.II; 2.C.III; 3.A.I.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 7
Doğru cavab: *Azərbaycan Respublikasının Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi* – insan və vətəndaş hüquqlarının, azadlıqlarının, xüsusilə uşaq və qadın hüquqlarının həyata keçirilməsini təmin edir və onların pozulmasının qarşısını alır. (Göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir.)

Asan Xidmət – vətəndaşlara bir neçə xidmət göstərir. (Göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir.)

Fövqəladə Hallar Nazirliyi – fövqəladə hallar sahəsində fəaliyyət göstərir. (Göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir.)

Azərbaycan Respublikasının Təhsil Nazirliyi – vətəndaşların təhsil almaları üçün imkanlar yaradır. (Göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir.)

Bal şkalası	Meyarlar
20 bal	***a)*** Bütün dövlət orqanlarının funksiyaları düzgün yazılmışdır.
10 bal	***b)*** Hər iki və ya üç dövlət orqanının funksiyası düzgün yazılmışdır.
0 bal	***c) a, b*** hallarından başqa bütün hallar

Tapşırıq 8
Doğru cavab: *Ailə büdcəsi* – maaşların hesabına formalaşır. Əsas xərclər – kommunal xərclər, geyimlər, məktəb ləvazimatları, qida məhsulları və həkimə, dərmanlara, nəqliyyat vasitələrinə xərclənən pullar. (Göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir.)

Oxşar cəhətlər – ailə büdcəsi, müəssisənin büdcəsi və dövlət büdcəsi ardıcıllıqla gedən, birbirinə bənzəyən gəlir və xərclərin planlaşdırılmasından asılı olan eyni strukturdur. (Göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir.)

Dövlət büdcəsi – vergilərin hesabına formalaşır. Dövlət öz büdcəsini qurarkən əhalinin təhsil, səhiyyə xərclərini, təqaüd və pensiyaları, elmin, mədəniyyətin, idmanın inkişafı üçün ayrılan vəsaiti, dövlət orqanlarında işləyənlərin maaşlarını və s. nəzərə alır. (Göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir.)

Bal şkalası	Meyarlar
10 bal	***a)*** Venn diaqramının hər bir hissəsində 2 və ya 3 düzgün nümunə yazılmışdır.
5 bal	***b)*** Venn diaqramının hər bir hissəsində 1 düzgün nümunə yazılmışdır.
0 bal	***c) a, b*** hallarından başqa bütün hallar

Tapşırıq 9
Doğru cavab: *Birinci cümlə – gəlirə; ikinci cümlə – vergiyə aiddir.*

Bal şkalası	Meyarlar
5 bal	***a)*** Yalnız düzgün cavab yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 10

Doğru cavab: *10 manatlıq* – tarix mövzusuna həsr olunmuşdur. *1 manatlıq* – üz tərəfində Azərbaycan xalq çalğı alətləri – tar, kamança, qaval və not açarı təsvir olunmuşdur. Arxa üzündə isə qədim xalça naxışları və Azərbaycanın xəritəsi verilmişdir. *5 manatlıq* – yazı və ədəbiyyat mövzusuna həsr olunmuşdur. Əsginasın üz tərəfində Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin fasadı, Azərbaycan kitabları, Azərbaycanın Dövlət himnindən bir parca və müasir əlifbamızın hərfləri əks olunmuşdur. Arxa üzündə isə Qobustan qaya rəsmləri və qədim türk əlifbası ilə yazı verilmişdir. *20 manatlıq* – Qarabağ mövzusuna həsr olunmuşdur.

Bal şkalası	Meyarlar
15 bal	***a)*** Hər bir əzginasın (10 manat, 1 manat, 5 manat, 20 manat) bir xüsusiyyəti yazılmışdır.
5 bal	***b)*** Hər iki və ya üç əsginasın bir xüsusiyyəti yazılmışdır.
0 bal	***c) a, b*** hallarından başqa bütün hallar

Tapşırıq 11

Doğru cavab: *a)* ✓ ; *c)* ✓ ; *e)* ✓

Bal şkalası	Meyarlar
5 bal	***a)*** Hər üç variant düzgün seçilmişdir.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 12

Doğru cavab: Qəfildən və gözlənilmədən baş verən bədbəxt hadisə və meydana gələn xəstəliklər nəticəsində sığorta olunmuş şəxsin müalicəsi üçün tələb olunan tibbi xərclər sığorta olunur. (Göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir.)

Bal şkalası	Meyarlar
5 bal	***a)*** Yalnız düzgün cavab yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar

Cəmi: 100 bal

Bal şkalası	Qiymət
[1–30]	2 *(qeyri-kafi)*
(30–60]	3 *(kafi)*
(60–80]	4 *(yaxşı)*
(80–100]	5 *(əla)*

III. SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT

1. Şəkildəki rəqəmlərə uyğun hissələrin adlarını yazın:

1.
2.
3.
4.



2. Uyğunluğu oxlarla göstərin:

Kəllə qutusu	Onurğa sütunu	Baş beyini mühafizə edir.
Döş qəfəsi	Fəqərələrdən təşkil olunmuşdur.	Ürəyi mühafizə edir.

3. Cümlələrə müvafiq fiqurları daxil edin:



1._____ işi nəticəsində qan bədəndə dövran edir.

2._____ tənəffüs orqanıdır.

3. _____ orqanizmi zəhərli maddələrdən təmizləyir.

4. _____ və _____həzm orqanlarıdır.

5. _____ orqanizmi idarə edən orqandır.

4. Sarğı qoymağın ardıcıllığını müəyyən edin:

1._____ 3._____

2._____ 4._____

5. Hansı oxun istiqaməti düzgün seçilib?



Cavab: _____

6. Aşağıda verilənləri doğru (D) və səhv (S) olaraq qruplaşdırın:

1. Uşaqlar qaz cihazlarından nəzarətsiz istifadə edə bilərlər.
2. Qaz iyi hiss etdikdə elektrik cihazlarını şəbəkəyə qoşmaq olmaz.
3. İslanmış corab, əlcək və digər geyimləri qurutmaq üçün qaz cihazlarının üstünə asmaq lazımdır.
4. Qaz iyi hiss etdikdə 104 №-li telefonla qaz-qəza xidmətinə müraciət edin.
5. Elektrik naqilinə, açarına və cihazlarına yaş əllə toxunmaq olar.
6. Metal əşyaları elektrik cihazlarının içərisinə salmaq olmaz.

D_____ ***S***_____

7. Uzun müddət isti yerlərdə, məsələn, hamamda qalanda nə baş verə bilər?

Cavab: _____

8. Seçdiyiniz cavaba görə uyğun şəklin olduğu xanaya səhv ☒ və ya düz ☑ işarəsi qoyun:



9. Cümlələri tamamlayın:

İnsan sutka ərzində xeyli su itirir. Gündə _____ yaxın su içmək lazımdır ki, bu itkinin yeri dolsun. Qidalanmanın da sağlamlıq üçün böyük əhəmiyyəti var. Hər gün nizamlı olaraq _____ dəfə yemək vacibdir. _____adlandırdığımız ayaqüstü yeməklər insan orqanizminə ciddi ziyan vurur.

10. Şəkillərə diqqətlə baxın. Qaydaları bitirin:



Qiymətləndirmə meyarları

Tapşırıq 1

Doğru cavab: 1 – kəllə və ya kəllə qutusu və ya başın skeleti; 2 – yuxarı ətraf və ya yuxarı ətraf sümükləri və ya yuxarı ətrafın skeleti; 3 – onurğa sütunu; 4 – aşağı ətraf və ya aşağı ətraf sümükləri və ya aşağı ətrafın skeleti.

Bal şkalası	Meyarlar
15 bal	***a)*** Hər dörd cavab düzgün yazılmışdır.
7 bal	***b)*** Hər iki və ya üç cavab düzgün yazılmışdır.
0 bal	***c) a-b*** hallarından başqa bütün hallar.

Tapşırıq 2

Doğru cavab: Kəllə qutusu ⟶ Baş beyini mühafizə edir. Döş qəfəsi ⟶ Ürəyi mühafizə edir. Onurğa sütunu ⟶ Fəqərələrdən təşkil olunmuşdur.

Bal şkalası	Meyarlar
5 bal	***a)*** Cavab düzgün yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 3

Doğru cavab: 1– ; 2 – ;

3 – ; 4 – və ;

5– .

Bal şkalası	Meyarlar
15 bal	***a)*** Bütün fiqurlar düzgün seçilmişdir.
7 bal	***b)*** Hər üç və ya dörd fiqur düzgün seçilmişdir.
0 bal	***c) a-b*** hallarından başqa bütün hallar

Tapşırıq 4

Doğru cavab: 1 – Yaranın üzərinə steril tənzif qoyulur. 2 – Sonra isə pambıq qoyulur. 3 – Bint sağ əldə saxlanılır, sarğı sol əllə tutulur. 4 – Bint soldan sağa doğru sarınır.

Bal şkalası	Meyarlar
5 bal	***a)*** Cavab düzgün yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 5

Doğru cavab: 2. Qabarlar kəsiləndən sonra dərinin açıq qalmış yerində infeksiya əmələ gələ bilər.

Bal şkalası	Meyarlar
5 bal	***a)*** Yalnız düzgün cavab yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 6

Doğru cavab: *D* – 2, 4, 5, 6; *S* –1, 3

Bal şkalası	Meyarlar
10 bal	***a)*** D – 2, 4 ,5, 6; S –1, 3
5 bal	***b)*** Hər 4–5 cavab (D və S) düzgün seçilmişdir.
0 bal	***c) a-b*** hallarından başqa bütün hallar

Tapşırıq 7

Doğru cavab: Başağrısı; başgicəllənmə; ürəkbulanma; qusma; nəbzin və tənəffüsün tezləşməsi (göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir).

Bal şkalası	Meyarlar
10 bal	***a)*** Yalnız düzgün cavab yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 8

Doğru cavab:

☒; ☑; ☒; ☑; ☒; ☑.

Bal şkalası	Meyarlar
5 bal	***a)*** Yalnız düzgün cavab yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 9

Doğru cavab: 2 *l*; 3; fastfud

Bal şkalası	Meyarlar
10 bal	***a)*** 2 *l*; 3; fastfud
5 bal	***b)*** Hər iki cavab düzgün yazılmışdır.
0 bal	***b) a*** halından başqa bütün hallar

Tapşırıq 10

Doğru cavab: *Qayda 1:* Hündürlüyü nizamlana bilən, kürək üçün dəstəyi olan yumşaq döşəkli və dayanıqlı oturacaq (ya kreslo) seçmək lazımdır (göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir). *Qayda 2:* Kompüter monitorunun gözünüzdən bir az aşağıda və ya tam qarşınızda olmağı vacibdir. Klaviatura dik oturduğunuz zaman əllərinizlə eyni xətdə, əllərinizin tam qarşısında olmalıdır (göstərilən nümunəyə oxşar cavablar doğru cavab kimi qəbul edilir).

Bal şkalası	Meyarlar
20 bal	***a)*** *Qayda 1* və *qayda 2* düzgün yazılmışdır.
10 bal	***b)*** *Qayda 1* və ya *qayda 2* düzgün yazılmışdır.
0 bal	***c) a-b*** hallarından başqa bütün hallar

Cəmi: 100 bal

Bal aralığı	Qiymət
[1–30]	2 (qeyri-kafi)
(30–60]	3 (kafi)
(60–80]	4 (yaxşı)
(80–100]	5 (əla)

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Düşünən sinif üçün öyrətmə və öyrənmə üsulları. A.Krouford, E.Vendi Soul, S.Metyu, C.Makinster.
2. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait. Z.A.Veysova. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF).
3. Q.Məmmədov, M.Xəlilov. Ekologiya, ətraf mühit və insan. Bakı, «Elm», 2006.
4. Qida və sizin sağlamlığınız. Məktəblilər üçün tədris proqramı. Açıq Cəmiyyət İnstitutu, Bakı, 1999.
5. İnteraktiv kurikulum: mahiyyəti və nümunələr. Müəllimlər üçün vəsait. F.Kərimova və b.; red.: M.M.Əmirov, A.M.Şirinova; tərc.ed.: F.B.Abdullayeva. Bakı, Adiloğlu, 2006, 234 s.
6. İsmayılov Ç. Məktəblinin coğrafiya lüğəti. Ç.İsmayılov, Y.Qəribov; red. İ.Qasımzadə. Bakı, Ayna Mətbu Evi, 2006. 239 s.
7. Məmmədova G. İbtidai siniflərdə uşaq hüquqları haqqında ilkin təsəvvürlərin aşılanması //Azərbaycan müəllimi, 2011, s. 20.
8. «Özünə və başqalarına kömək etməyi bacar» (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi). Bakı, 2004.
9. S.C.Əliyev, H.M.Hacıyeva, N.C.Mikayılzadə. Tibbi biliklərin əsasları. Bakı, 2004.
10. Təhsil haqqında Azəbaycan Respublikasının Qanunu. Bakı, 2009.
11. Uşaq hüquqları mövzusunda diskussiya // Mədəniyyət, 2014.
12. Uşaq hüquqları və ekoloji maarifləndirmə // Mədəniyyət, 2014, s. 1.
13. Z.A.Veysova. Fəal təlim metodları. «Bakı», 2007.

Rus dilində

1. Аквилева, Г.Н. Наблюдения и опыты на уроках природоведения / Г.Н. Аквилева, З.А.Клепинина. М.: Просвещение, 2008, 83 с.
2. Андреева Ю.В. Оптимистически ориентированная стратегия создания ситуации успеха в учебной деятельности подростков / Ю.В.Андреева // Педагогическое образование в России, 2012, № 3.
3. Арасланова А.А. Учебные проекты как средство формирования универсальных учебных действий / А.А.Арасланова, Г.А.Березина // Обучение и воспитание: методики и практика 2015/2016 учебного года: сборник материалов XXVI Международной научно-практической конференции. Новосибирск: Издательство ЦРНС, 2016.
4. Батакова Е.Л. Интерактивные средства обучения как часть ЭОР / Е.Л.Батакова, Н. В. Батакова. Интерактивные средства обучения как часть ЭОР //Вестник ТГПУ (TSPU Bulletin). 2016. 1 (166).
5. Барышева, Ю.А. Наблюдение как метод познания окружающего мира младшими школьниками / Ю.А. Барышева // Начальная школа. 2009, № 7, с. 36–40.
6. Баскаков А.Я., Туленков Н.В. Методология научного исследования. Учебное пособие.-2-у изд., исрп.- К.: МАУП, 2004, 216 с.
7. Васильева Е.В. Урок-исследование в начальной школе / Е. В. Васильева // Начальное образование, 2006, №2.
8. Демидко Т.Н. Проектно-исследовательская деятельность при изучении курса «Окружающий мир» / Т.Н.Демидко // Начальная школа, 2013, № 1.
9. Дичковская И.М. Инновационные педагогические технологии / И.М.Дичковская. К.: Академвидав, 2004.
10. Добротин Д.Ю. Формирование методов научного познания на уроках окружающего мира / Д.Ю.Добротин // Начальная школа, 2016, № 1.

11. Зорина С.В. О некоторых приемах работы с географической информацией на уроках и во внеурочное время (из опыта работы) / С.В.Зорина, Ю.В.Зорин // Пермский педагогический журнал, 2015, № 7.
12. Иванова И.Ю. Использование краеведческого материала на уроках и во внеурочной деятельности / И.Ю.Иванова // Начальная школа. / 2014. 25 июня // URL: http://n-shkola.ru/articles/view/48
13. Информационно-педагогические технологии: ключевые понятия: словарь / Е.В. Ширшов; под ред. Т.С.Буториной. Ростов-н/Д: Феникс, 2006.
14. Как проектировать универсальные учебные действия в начальной школе. От действий к мысли: пособие для учителя / А.Г.Асмолов, Г.В.Бурменская, И.А.Володарская и др. М.: Просвещение, 2011.
15. Скворцова М.А. Теоретические основы создания ситуации успеха в образовательной среде младшего школьника / М.А.Скворцова // Вестник КГУ им. Н.А.Некрасова: Педагогика. Психология. Социальная работа. Ювенология. Социокинетика, 2014, № 4.
16. Смирнова Е.С. Проблемное обучение на уроках окружающего мира / Е. С. Смирнова // Начальная школа, 2016, № 4.
17. Сулейманова Ф.А. Использование знаково-символических средств представления информации при изучении окружающего мира / Ф.А.Сулейманова // Начальная школа, 2013, № 5.

İngilis dilində

1. Angelo, T. & Cross, K.P.Classroom Assessment Techniques: A Handbook for College Teachers
2. Being Logical: A Guide to Good Thinking – D.Q. McInerny
3. Buzan T. The Mind Map book. BBC Books / T. Buzan, B. Buzan. London: BBC Books, 2000.
4. Demonstrating Student Mastery with Digital Badges and Portfolios (2019) by David Niguidula
5. Digital Portfolios in the Classroom: Showcasing and Assessing Student Work (2017) by Matt Renwick
6. Grading and Group Work: How do I assess individual learning when students work together? (ASCD Arias) (2013) by Susan M. Brookhart
7. Understanding and Using Reading Assessment, K–12, 3rd Edition (2017) by Peter Afflerbach

İnternet resursları

1. www.bio.1september.ru 24.
2. www.bio.nature.ru 25.
3. http://gimbioperm.blogspot.com/
4. http://www.zemnovodik.ru 27.
5. http://www.ecosystema.ru 28.
6. http://search.icq.com 29.
7. http://www.virtulab.net/

BURAXILIŞ MƏLUMATI

HƏYAT BİLGİSİ 4
Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün
Həyat bilgisi fənni üzrə dərsliyin
METODİK VƏSAİTİ

Tərtibçi heyət:

Müəllif ***Sevinc Arifovna Bayramova***
Aygün Baba qızı Həşimova

Redaktor ***İradə Musalı***
Bədii və texniki redaktor ***Abdulla Ələkbərov***
Dizaynerlər ***Səbinə Məmmədova***
Təhmasib Mehdiyev
Korrektor ***Mətanət Kərimova***

© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2019-019)

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 12,9. Fiziki çap vərəqi 15,0.
Formatı 57x82 $^{1}/_{8}$. Səhifə sayı 120. Ofset çapı.
Tirajı 8642. Pulsuz. Bakı–2019.

«Aspoliqraf LTD» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 149

PULSUZ